Xalqın qəzeti!

# Xalq qəzeti

№ 181 (30585) 24 avqust 2024-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

**Prezident İlham Əliyev:**

**Biz bu gün Daşkənddə, həqiqətən də, münasibətlərimizin yeni fəslini deyil, kitabını yazırıq. Bu gün iki qardaş xalq, iki müstəqil, güclü, suveren, nüfuzlu dövlət rəsmi müttəfiq oldu. Bu, çox mühüm xarici siyasət addımıdır və gələcək illərdə münasibətlərimizi, həmçinin bir çox hallarda regional siyasəti müəyyən edəcək.**

# Azərbaycan–Özbəkistan: Strateji tərəfdaşlıq müttəfiqlik zirvəsinə yüksəldi!

## Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana dövlət səfəri



### Daşkənddə rəsmi qarşılanma mərasimi



**Avqustun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistana dövlət səfəri çərçivəsində Daşkənddəki "Kuksaroy" dövlət iqamətgahında rəsmi qarşılanma mərasimi olub.**

Azərbaycanın və Özbəkistanın Dövlət bayraqlarının dalğalandığı meydanda Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyeva qarşıladılar.

Sonra birgə foto çəkdirildi.

Azərbaycanın və Özbəkistanın Dövlət himnləri səsləndi.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistan əsgərlərini salamladı.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Özbəkistanın dövlət və hökumət nümayəndələri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri isə Prezident Şavkat Mirziyoyevə təqdim edildi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezidentlərin qarşısından keçdi.

Dövlət başçıları birgə foto çəkdirdilər.

# Borcu qaytarmaq

## Yaxud Rusiya–Ermənistan münasibətlərində tarix və müasirlik

**Mövzumuz Ermənistanın Rusiyaya borcu barədədir. Əlbəttə, mövcud xüsusda bir çox başqa məqamlardan da söz açacağıq. Daha doğrusu, borc amilini qabardaraq, Cənubi Qafqazda yaşanan proseslərə tarixi və müasir aspektdən yanaşacağıq.**



Bəli, hazırkı Ermənistan hakimiyyəti var gücü ilə Rusiyadan ayrılmaq yolunu tutur. Ermənilər indiyədək üzləşdikləri bütün bəlaların kökünü Rusiyada görürlər. Hər halda, ölkədə belə bir ab-havanın olduğu duyulur. Əslində, Nikol Paşinyanın iqtidara yiyələnməyi bacarmasının özü də bu ab-havanın siyasi məhsulu olub. Əks halda, otuz ilə yaxın at oynatmış ruspərəst xunta rejimi devrilməzdi.

Koçaryan–Sarkisyan tandemi Ermənistana çox bəlalar yaşatmışdı. Ancaq bir maraqlı nüans var və bu, erməni xalqının düşüncə tərzi ilə bağlıdır. Nəzərə alaq ki, Ermənistanda 2018-ci il inqilabı sırf Rusiyaya hiddət zəminində baş verdi. Rusiyaya hiddət, Qərbə rəğbət. Sadə dildə desək, ruslar pis, avropalılar və amerikalılar yaxşıdır. Yəni, dəyişiklik hansısa ideoloji fərqliliyin təqdimatına duyulan ehtiyac zəminində yaşanmadı və əsl mahiyyət bu qədər bəsitdir.

Sırf bəsit təfəkkürün nəticəsidir ki, hazırda Ermənistan hakimiyyəti Rusiya ilə bağlı hər şeyin üzərindən xətt çəkməyə çalışır. Baxın, Paşinyan iqtidarı dərsliklərə əl qoyur. Tarixi saxtalaşdıraraq, Rusiyanı işğalçı kimi göstərir. Halbuki, ermənilər üçün Rusiya işğalçı olmamalıdır. Çünki ikinci ələ keçirdiyi Azərbaycan torpaqlarında birincilərə vilayət yaratmışdı. Sonra o vilayət dövlətə çevrilmişdi. Daha sonra isə Rusiya həmin dövlətin ərazisini Azərbaycan torpaqları hesabına genişləndirmişdi. Deməli, erməni qövmü ruslar qarşısında əbədi borclu idi.

*(ardı 8-ci səhifədə)*

# Heydər Əliyev Fondunun Gəncə nümunəsi



Səhifə ⇨ 9

# Ermənistan geosiyasi dalandan çıxa bilmir



Səhifə ⇨ 7

## "Yaşıl" enerji – "yaşıl" texnologiyalar



Səhifə ⇨ 12

## Şərq–Qərb dəhlizində Azərbaycanın rolu artır



Səhifə ⇨ 15

## Laçın elinin söz çələngi



Səhifə ⇨ 15

# Azərbaycanın xarici borcu 1,1 milyard dollar azalıb

Səhifə ⇨ 11

# Daşkənddə Azərbaycan və Özbəkistan prezidentlərinin məhdud tərkibdə görüşü olub



**Avqustun 23-də Daşkənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevlə məhdud tərkibdə görüşü olub.**

Görüşdə Azərbaycan ilə Özbəkistan arasında münasibətlərin strateji müttəfiqlik xarakteri daşıması məmnunluqla vurğulandı, enerji, nəqliyyat, turizm sahələrində əməkdaşlıq müzakirə olundu, beynəlxalq və regional məsələlər ilə bağlı fikir mübadiləsi aparıldı.

# Azərbaycan-Özbəkistan Ali Dövlətlərarası Şuranın birinci iclası keçirilib

**Avqustun 23-də Daşkənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin iştirakı ilə Azərbaycan-Özbəkistan Ali Dövlətlərarası Şuranın birinci iclası keçirilib. İclasda əvvəlcə Özbəkistan Prezidenti çıxış etdi.**







## Prezident Şavkat Mirziyoyevin çıxışı

– Hörmətli İlham Heydər oğlu.

Bugünkü iclasımızın iştirakçıları.

Hörmətli İlham Heydər oğlu, Sizi və Azərbaycan nümayəndə heyətinin üzvlərini, qardaşlarımızı Özbəkistanda salamlayıram. Sizi bir daha salamlamağa şadam. Özbəkistana xoş gəlmisiniz.

Vurğulayım ki, Sizin indiki dövlət səfəriniz həqiqətən də tarixidir. Birincisi, bu gün məhdud tərkibdə görüşdə danışdığımız kimi, müttəfiqlik münasibətlərinə dair müqavilə imzalayacağıq. Ən əsası, bir neçə il ərzində Sizinlə birgə Özbəkistan-Azərbaycan münasibətlərini ən yüksək dövlətlərarası qarşılıqlı fəaliyyət səviyyəsinə qaldıra bildik. Bu, bizim real uğurumuzdur. Zənnimcə, bu gün xalqlar, insanlar eşidəcəklər ki, biz müttəfiqlik münasibətlərinə dair müqavilə imzalayacağıq. Bu, xalqlarımızın daha da yaxınlaşmasına xidmət edəcək. Başlıcası, biz ölkələrimizi yaxınlaşdırdıq, artıq dediyim kimi, xalqlarımız həqiqətən də bir-birinə qardaşcasına münasibət göstərirlər. Bizim hər görüşümüz xalqlarımızı yaxınlaşdırır və məmnuniyyətlə demək istəyirəm ki, bu gün Sizin sözün həqiqi mənasında Özbəkistana tarixi səfəriniz həyata keçirilir.

İkincisi, bu gün Ali Dövlətlərarası Şuranın birinci iclasını keçiririk. Dövlət başçılarının sədrliyi ilə bu Şuranı çoxplanlı əməkdaşlığımızın inkişafının konkret məzmunla zənginləşdirilməsini daha səmərəli mexanizm hesab edirəm. Çünki bizim hər görüşümüzdə konkret tapşırıqlar veririk və indi də bu, istisna olmadı. Biz məhdud tərkibdə görüşdə geniş müzakirə apardıq. Bu gün bu barədə geniş tərkibdə də danışacağıq və növbəti görüşümüzə qədər birgə qərarlar qəbul edəcəyik. Qeyd edim ki, müasir dünyada böyük nəticələr o zaman əldə olunur ki, siyasi iradə və qarşılıqlı dəstək olsun. Bizdə iki prezidentin siyasi iradəsi də, hər iki tərəfdən dəstək də var. Fikrimcə, komandalarımız artıq bunu görür və dərindən hiss edirlər.

Hörmətli İlham Heydər oğlu, əvvəlcə Sizi Azərbaycanda islahatların uğurla keçirilməsi münasibətilə səmimi-qəlbdən təbrik etmək istəyirəm. Yaxın qonşular və qardaşlar olaraq, biz uğurlarınıza sevinirik. Ölkənizin necə dinamik inkişaf etdiyini görür və buna ürəkdən sevinirik. Siz iqtisadiyyatın şaxələndirilməsi strategiyasını həyata keçirə bildiniz, Azərbaycanda davamlı inkişaf yeni sahələrin və infrastrukturların hesabına təmin edilir. Bütün bunlar əhalinin rifah halının durmadan yüksəlməsinə gətirib çıxarır. Ölkənin beynəlxalq nüfuzu artır. Bu il Azərbaycan dünyanın ən böyük tədbirlərindən birinə - Qlobal İqlim Sammitinə evsahibliyi edəcək. Belə bir sammit bizim geniş regionumuzda ilk dəfədir ki, keçirilir. Bu, heç vaxt olmayıb. Bu, Sizin xarici siyasət kursunun səmərəliliyinin etiraf olunmasını bir daha təsdiq edir. Sizə böyük uğurlar arzulayıram. Biz bu barədə danışdıq, həmişə Sizinlə birlikdə olacağıq, həmçinin biz də bu sammitə ciddi hazırlıq görürük.

Hörmətli İlham Heydər oğlu, nümayəndə heyətlərinin qarşısında ölkənizin ərazi bütövlüyünün bərpa olunmasında və Azərbaycanın əzəli torpaqlarının qaytarılmasında Sizin tarixi rolunuzu bir daha qeyd etmək istəyirəm. Siz öz atanızın və xalqınızın ən böyük arzusunu yerinə yetirdiniz. Bu gün Qarabağ gözlərimizin qarşısında dirçəlir, çiçəklənən diyara çevrilir. Mən özüm həm Füzulidə, həm də Şuşada bunları öz gözlərimlə gördüm və sevindim.

İrimiqyaslı sosial-infrastruktur və sənaye layihələri həyata keçirilir. Biz məhdud tərkibdə görüşdə ərazilərimizin inkişafı üzrə əməkdaşlığın genişləndirilməsi imkanlarını ətraflı müzakirə etdik, ayrıca proqramın - yol xəritəsinin qəbul edilməsi, regionların üçüncü Forumunun keçirilməsi, həmçinin turistik komplekslərin paytaxtda yaradılması üzrə razılığa gəldik. Biz artıq bu barədə danışmışıq.

Hörmətli nümayəndə heyətlərinin üzvləri, son bir neçə il ərzində Özbəkistan-Azərbaycan əməkdaşlığı xeyli genişlənib. Parlamentlər, hökumətlər, nazirliklər və idarələr arasında sıx təmaslar var. Mütəmadi olaraq, Hökumətlərarası Komissiyanın iclasları, Biznes Şurası, forumlar, sərgilər və mədəniyyət tədbirləri keçirilir. Biznes dairələri arasında tərəfdaşlıq genişlənir.

Hörmətli İlham Heydər oğlunun bizim görüşümüzə Azərbaycanın biznes liderlərini dəvət etməsinə ürəkdən şadam, onlar sanballı iş adamlarıdır. Zənnimcə, tezliklə nəticələri görə biləcəyik. Ciddi nəticə əldə ediləcək. Əminəm ki, bu dialoq çox məhsuldar olacaq.

Ümumilikdə, ikitərəfli münasibətlərin hazırkı səviyyəsinə qiymət verərkən vurğulamaq istəyirəm ki, birgə səylərlə çox böyük işlər görülüb. Amma görüləsi daha çox iş var, çünki biz prezidentlər artıq bir-birimizi və iş adamlarını, şirkətləri, nazirlikləri və idarələri rəsmi hissədə olarkən dediyimiz kimi, əzbərdən bilirik. Bu da onu göstərir ki, tez-tez görüşdüyümüzə görə real nəticələr əldə olunur.

Növbəti ildə diplomatik münasibətlərin 30 illiyini qeyd edəcəyik. Biz bu yubileyə ciddi nəticələrlə gəlməliyik. Bununla bağlı əsas vəzifələr üzərində dayanacağam. Birincisi, intensiv siyasi təmaslar və bütün il ərzində gündəlikdəki məsələlər üzrə ahəngdar fəaliyyətin mübadiləsi üçün cədvəl hazırlamağı təklif edirəm. Bundan başqa, xarici işlər nazirliklərimiz qarşıdakı əlamətdar hadisə ilə əlaqədar tədbirlər proqramı hazırlayırlar. İkincisi, İlham Heydər oğlu, əgər Siz dəstəkləyirsinizsə, biz razılaşdıq ki, - mən artıq bunu məhdud tərkibdə görüşdə də dedim, - növbəti ili "Özbəkistan-Azərbaycan iqtisadi kooperasiyası ili" elan edək və məhdud tərkibdəki görüşdə üzərində dayandığımız 20 prioritet istiqaməti əhatə edən kompleks proqram qəbul edək. Qarşıda əmtəə dövriyyəsinin həcmini dəfələrlə artırmaq və sənaye kooperasiyasını yeni fazaya keçirmək, o cümlədən üçüncü ölkələrdə layihələri reallaşdırmaq vəzifələri durur. Biz bu barədə də çox ciddi danışdıq. Görüşümüz üçün 2 milyard dollardan artıq məbləğdə perspektivli layihələr portfeli hazırlanıb. Onların reallaşdırılmasını bu gün biznes nümayəndələri ilə ətraflı müzakirə edəcəyik.

Bundan başqa, Birgə İnvestisiya Fondu da səmərəli fəaliyyətə başladı. Siz də dediyiniz kimi, layihələr olarsa, biz hər iki tərəfdən Fondu genişləndirəcəyik. Çünki bu, biznes və real layihələrin həyata keçirilməsi üçün çox yaxşı dəstəkdir. Hesab edirəm ki, layihələrin dəstəklənməsinin bu aləti saat kimi işləməlidir. Çünki onlar işləyirlər, amma bu gün biz iş adamlarını da eşidəcəyik, onları bu məsələdə də dəstəkləyəcəyik. Üçüncüsü, nəqliyyat-kommunikasiya, energetika və digər infrastruktur layihələri vasitəsilə ölkələrimizin qarşılıqlı əlaqələrini gücləndirmək vacibdir. Artıq çoxtərəfli formatda fəal iş aparırıq. Bu əməkdaşlığı tam şəkildə dəstəkləyirəm. Aviareyslərin sayının artırılmasını, yerüstü, hava daşımalarının maksimum dərəcədə yüngülləşdirilməsini, rəqəmsal həllərin tətbiqini də vacib hesab edirəm. Biz artıq bu barədə məhdud tərkibdəki görüşdə danışmışıq.

Dördüncüsü, mədəniyyət və incəsənət, təhsil, səhiyyə, gənclər və informasiya siyasəti, idman sahələrində fəal mübadiləni davam etdirmək lazımdır. Bu sahələrə cavabdeh olan nazirlərimiz müntəzəm görüşlər keçirməlidirlər.

Bu gün incəsənət ustalarının, o cümlədən əfsanəvi mədəniyyət xadimləri Fərrux Zakirov və Polad Bülbüloğlunun iştirakı ilə birgə konsert olacaq. Bu yaxınlarda hörmətli İlham Heydər oğlu ilə onlara ölkələrimizin Xalq artistləri adı vermişik.

Bundan başqa, Özbəkistan və Azərbaycan universitetlərinin rektorlarının müntəzəm görüşləri mexanizmini yaratmağı təklif edirik.

Hörmətli İlham Heydər oğlu, Bakıdakı görüşlərimizin birində, həm də məhdud tərkibdə görüşdə demişdim ki, biz ikitərəfli münasibətlərimizin inkişafının mühüm informasiya-analitik kontekstindən, əməkdaşlığımızın yeni imkanlarının dərin təhlili və üzə çıxarılması potensialı ilə bağlı birgə layihələrdən danışmışıq. Bugünkü iclasımızda iqtisadi təhlil mərkəzlərindən birinin rəhbəri iştirak edir. Əgər Siz razılıq verərsinizsə, o, öz komandası ilə bayramlardan sonra, növbəti həftədə yəqin ki, - bizim Müstəqillik Günündən sonra birbaşa Azərbaycana yollanacaq. Etiraz etmirsinizsə, bayramlardan sonra birhəftəlik deyil, ongünlük gələcək, iyirmi sahə istisna olmaqla, bizim gələcəkdə inkişaf etdirəcəyimiz sahələrin yaxşı iqtisadi təhlilini aparacaq, həm də biz bununla başqa resursları və ehtiyatları üzə çıxara bilərik. O, öz komandası ilə birlikdə yaxın vaxtlarda azərbaycanlı tərəfdaşlarla bu tədqiqata hazırlıq məqsədilə Bakıda olacaq. Ümidvaram ki, bu, gələcək üçün yaxşı kömək olacaq.

Beləliklə, hörmətli İlham Heydər oğlu, bunlar mənim demək istədiklərimin hamısıdır. Biz məhdud tərkibdə görüşdə çox ətraflı danışdıq. Məmnuniyyətlə sözü Sizə verirəm.

Sonra Azərbaycan Prezidenti çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı

– Əziz qardaşım, hörmətli Şavkat Miromonoviç, sağ olun. İlk növbədə, dəvətə görə bir daha minnətdarlığımı bildirmək istərdim. Qardaş Özbəkistana yenidən böyük məmnuniyyətlə səfər edirəm. Yeni görüşümüzə şadam.

Siz də qeyd etdiyiniz kimi, məhdud tərkibdə görüşdə münasibətlərimizin geniş gündəliyini artıq nəzərdən keçirdik, əməkdaşlığın yeni istiqamətlərini müəyyən etdik. Əlbəttə, bu gün geniş tərkibdə - Dövlətlərarası Şuranın birinci iclası çərçivəsində qarşılıqlı münasibətlərimizin mühüm məsələlərini müzakirə edəcəyik.

Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması ilə bağlı sözlərinizə görə xüsusi təşəkkürümü bildirmək istəyirəm, həmçinin azad edilmiş ərazilərə bir neçə dəfə səfər etdiyiniz üçün Sizə xüsusi minnətdarlığımı ifadə edirəm. Əlbəttə, azad olunmuş ərazilərin bərpasında köməyə görə Füzuli şəhərinin sakinləri və Azərbaycanın bütün əhalisi adından xüsusi təşəkkürümü bildirirəm. Bu, xarici dövlətin infrastrukturun bərpası üzrə Azərbaycana ilk hədiyyəsi idi. Mirzə Uluqbəyin adını daşıyan məktəb düz bir il əvvəl açılıb. Elə bu gün, avqustun 23-də biz Sizinlə Füzulidə və Şuşada olduq. Orada artıq 500 şagird təhsil alır. Sakinlərin qayıdacağını nəzərə alsaq, onların sayı artacaq.

Ölkələrimiz arasında möhkəm münasibətlər artıq bütün sınaqlardan çıxıb və bu gün ən yüksək səviyyəyə çatıb. Siz də qeyd etdiyiniz kimi bu müttəfiqlik münasibətləridir və bundan yüksəyi yoxdur. Biz buna nisbətən qısa zaman ərzində nail olduq, məhz hər iki tərəfdən siyasi iradə nümayiş etdirdik, həmçinin ölkələrimizi və xalqlarımızı maksimum yaxınlaşdırdıq. Əminəm ki, həm Özbəkistanda, həm də Azərbaycanda ictimaiyyət bizim qazandığımız nailiyyətləri diqqətlə izləyir və bizimlə birlikdə sevinir.

Heydər Əlirza oğlu Əliyevin xatirəsinə göstərilən ehtirama görə təşəkkürümü bildirmək istərdim. İki il əvvəl Daşkəndə səfərim zamanı biz Sizinlə birlikdə onun adını daşıyan parkın və barelyefinin açılışını etdik. Dünən bu məkanı ziyarət edərkən qəlbimdə bir daha Sizə təşəkkür etdim.

Əlbəttə, Özbəkistanın inkişafı ilə bağlı heyranlıq sözlərimi ifadə etmək istəyirəm. Mən həm Xivəyə, həm Səmərqəndə səfər etdim. Uzun illər əvvəl Səmərqənddə olmuşam. Bu yaxınlarda etdiyim səfər bir daha ölkənin inkişafı sahəsində Sizin həyata keçirdiyiniz müdrik siyasətdən xəbər verir. Bu, şəhərin görkəminin necə dəyişməsində, paytaxtın və Özbəkistanın regionlarının simasının gözəlləşməsində özünü göstərir. Beynəlxalq icmanın mühüm üzvünə çevrilən Özbəkistan bu gün təkcə öz regionunda deyil, həm də dünya məkanında geniş nüfuz qazanıb. Əlbəttə, bütün bunların arxasında iqtisadi inkişaf durur. Siz ölkədə iqtisadi münasibətləri tamamilə yenidən qurmağı və bu sahəni, eyni zamanda, bütün digər sahələri modernləşdirməyi bacardınız.

Qardaş Özbəkistanın idmançılarının tarixi qələbəsi ilə bağlı xüsusi təbriklərimi çatdırıram. Biz onların qələbəsinə özümüzünkü kimi sevinirdik. Səkkiz qızıl medal, müsəlman ölkələri arasında birinci yer və bütün ölkələr üzrə 13-cü yer – bu tarixi nailiyyət Sizin idmanın inkişafına göstərdiyiniz böyük diqqətin təzahürüdür.

Bugünkü iclas çərçivəsində biz, əlbəttə, nümayəndə heyətlərimizin üzvlərini də dinləyəcəyik. Siz də qeyd etdiyiniz kimi, iqlim konfransının keçirilməsinin əhəmiyyətini xüsusi vurğulamaq istərdim. Təbii ki, Sizi səbirsizliklə gözləyirik və həmçinin ikitərəfli formatda işləyirik. Çünki konfransın keçirilməsi mühüm hadisədir. Amma növbəti ildə də böyük iş aparılacaq, biz mahiyyət etibarilə bu prosesə sədrlik edəcəyik. Əlbəttə, bizim regionumuzda da, Mərkəzi Asiya regionunda da iqlimlə bağlı çoxlu məsələlər var və ikitərəfli formatda fəal əməkdaşlıq etməyə hazırıq. Prinsipcə, bu əməkdaşlıq artıq başlayıb.

Beləliklə, dəvətə, diqqətə görə bir daha təşəkkür edirəm və fürsətdən istifadə edərək, Sizi növbəti ildə yenidən Azərbaycana dövlət səfərinə dəvət edirəm. Amma biz hələ noyabrda COP konfransında görüşəcəyik, lakin növbəti ildə Sizi dövlət səfəri ilə gözləyirik. Sağ olun.

# Azərbaycan–Özbəkistan sənədləri imzalanıb





**Avqustun 23-də Daşkənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin iştirakı ilə Azərbaycan–Özbəkistan sənədlərinin imzalanması mərasimi olub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə"ni imzaladılar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev "Azərbaycan Respublikasının və Özbəkistan Respublikasının Ali Dövlətlərarası Şurasının birinci iclasının Qərarı"nı qəbul etdilər.

"Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi ilə Özbəkistan Respublikasının Ekologiya, Ətraf Mühitin Mühafizəsi və İqlim Dəyişikliyi Nazirliyi yanında Turizm Komitəsi arasında 2024-2026-cı illər üzrə turizm sahəsində Fəaliyyət Planı"nı Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev və Özbəkistan Respublikasının Turizm Komitəsinin sədri Umid Şadiyev imzaladılar.

"Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Özbəkistan Respublikasının Mədəniyyət Nazirliyi arasında 2024-2026-cı illər üçün mədəni-humanitar əməkdaşlıq üzrə Yol xəritəsi"ni Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli və Özbəkistan Respublikasının mədəniyyət naziri Ozodbek Nazarbekov imzaladılar.

"Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Özbəkistan Respublikasının Məktəbəqədər və Ümumi Təhsil Nazirliyi arasında məktəbəqədər və ümumi təhsil sahəsində əməkdaşlıq haqqında Protokol"u Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Özbəkistan Respublikasının məktəbəqədər və ümumi təhsil naziri xanım Xilola Umarova imzaladılar.

"Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Özbəkistan Respublikasının Ali təhsil, Elm və İnnovasiyalar Nazirliyi arasında peşə təhsili, orta ixtisas, ali təhsil və elm sahəsində əməkdaşlıq haqqında Protokol"u Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Özbəkistan Respublikasının ali təhsil, elm və innovasiyalar naziri Konqratbay Şaripov imzaladılar.

"Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Özbəkistan Respublikasının Ədliyyə Nazirliyi arasında 2024-2026-cı illər üzrə Əməkdaşlıq Proqramı"nı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev və Özbəkistan Respublikasının ədliyyə naziri Akbar Taşkulov imzaladılar.

"Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası ilə Özbəkistan Respublikasının Ədliyyə Nazirliyinin yanında Hüquqşünasların İxtisasının Artırılması Mərkəzi arasında əməkdaşlıq haqqında Protokol"u Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Özbəkistan Respublikasının ədliyyə naziri Akbar Taşkulov imzaladılar.

"Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi ilə Özbəkistan Respublikasının Ədliyyə Nazirliyi yanında H.Sulaymanova adına Respublika Məhkəmə Ekspertizası Mərkəzi arasında əməkdaşlıq haqqında Protokol"u Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Özbəkistan Respublikasının ədliyyə naziri Akbar Taşkulov imzaladılar.

"Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Özbəkistan Respublikasının Milli Qvardiyası arasında əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikasının Özbəkistan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Hüseyn Quliyev və Özbəkistan Respublikasının Milli Qvardiyasının komandanı Rustam Curayev imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında Özbəkistan Respublikası ərazisində müvəqqəti işləyən Azərbaycan Respublikası vətəndaşlarının və Azərbaycan Respublikası ərazisində müvəqqəti işləyən Özbəkistan Respublikası vətəndaşlarının əmək fəaliyyəti və hüquqlarının müdafiəsi haqqında Saziş"i Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev və Özbəkistan Respublikasının məşğulluq və yoxsulluğun azaldılması naziri Bexzod Musayev imzaladılar.

"Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Özbəkistan Respublikasının İnvestisiyalar, Sənaye və Ticarət Nazirliyi arasında ticarət-iqtisadi və investisiya əməkdaşlığının daha da genişləndirilməsi üzrə 2024-2025-ci illər üçün Praktiki Fəaliyyət Planı"nı ("Yol xəritəsi") Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov və Özbəkistan Respublikasının investisiya, sənaye və ticarət naziri Laziz Kudratov imzaladılar.

"Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Özbəkistan Respublikasının Xarici İşlər Nazirliyi arasında 2025-2026-cı illər üzrə Əməkdaşlıq Proqramı"nı Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Özbəkistan Respublikasının xarici işlər naziri Baxtiyor Saidov imzaladılar.

Səfər çərçivəsində, həmçinin Bakı (Azərbaycan) ilə Daşkənd (Özbəkistan), Beyləqan (Azərbaycan) ilə Şəhrisəbz (Özbəkistan), Quba (Azərbaycan) ilə Cizak (Özbəkistan) şəhərləri arasında regionlararası əməkdaşlıq haqqında sənədlər və "Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "Uzbekneftegaz" SC arasında Əsas Şərtlər Sazişi" imzalanıb.

# Azərbaycan və Özbəkistan prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər





**Avqustun 23-də Daşkənddə sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə Özbəkistan Prezidenti bəyanatla çıxış etdi.**

## Prezident Şavkat Mirziyoyevin bəyanatı

– Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri. Sizin iştirakınıza şadam. Azərbaycan Respublikasının Prezidentini, əziz qardaşım, hörmətli İlham Heydər oğlu Əliyevi və Azərbaycan nümayəndə heyətinin bütün üzvlərini qonaqpərvər özbək torpağında səmimiyyətlə salamlayıram. Sizi görməyimizə çox şadıq. Özbəkistana xoş gəlmisiniz.

Böyük məmnuniyyətlə qeyd etmək istəyirəm ki, Azərbaycan Prezidentinin Özbəkistana dövlət səfəri çoxəsrlik dostluq münasibətlərimizin inkişafında tarixi hadisədir. Bu gün hörmətli İlham Heydər oğlu ilə müttəfiqlik münasibətləri haqqında Müqavilə imzaladıq. Bu sənəd dövlətlərarası qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsində yeni fəslin başlanması ilə əlamətdardır. Biz bununla çoxplanlı tərəfdaşlığın hərtərəfli inkişafı kursuna möhkəm sadiqliyimizi təsdiq etdik.

Hörmətli iştirakçılar, siz yəqin ki, bu gün bizim, əslində, nə etdiyimizi sonuna qədər təsəvvür etmirsiniz... Zənnimcə, bu il 33 illiyimizin tamam olduğu qısa bir müddətdə bu sənədlərin imzalanması heç bir ölkə ilə olmayıb, birincisi, Özbəkistanın çox az ölkə ilə müttəfiqlik münasibətləri var. Sizin qarşınızda bir daha demək istəyirəm, bu gün biz tarix yazdıq. Bu tarix iki yaxın xalqın - Azərbaycan və Özbəkistan xalqlarının rifahında öz əksini tapacaq. Bu münasibətlə Sizi bir daha təbrik edirəm.

Özbəkistanın kütləvi informasiya vasitələrinin nümayəndələrinə müraciət edirəm: Siz bu barədə daha çox, daha ucadan danışmalı və onu əhalimizə çatdırmalısınız. Fikrimcə, sizin azərbaycanlı həmkarlarınız da çatdıracaq, çünki xalqlar bunu gözləyirlər. Zənnimcə, bu, müttəfiqlik münasibətləri haqqında çoxdan gözlənilən ən vacib müqavilədir.

Biz, həmçinin müttəfiqlik münasibətlərimizin dərinləşməsi üzrə yeni təkliflərin hazırlanması və həyata keçirilməsinin səmərəli mexanizmi olan Ali Dövlətlərarası Şuranın birinci iclasını keçirdik. Bilirsiniz, biz İlham Heydər oğlu ilə həmişə razılığa gəlirik, tapşırıq veririk, həm də nəzarət edirik. Azərbaycandakı birinci görüşümüzdə əməkdaşlığın on istiqaməti müəyyən edildi. Məmnunluqla və əminliklə demək istəyirəm ki, razılaşmaların heç biri kağız üzərində qalmayıb. Bizim real nəticələrimiz var. Bu gün 20 yeni istiqamət götürmək üzrə razılıq əldə etmişik, bu, əməkdaşlığımızın real istiqamətləridir və İlham Heydər oğlu məmnuniyyətlə qəbul etdi. Zənnimcə, indi dərindən məşğul olacağımız sahələr, istiqamətlər var.

Ümumilikdə, danışıqlar ənənəvi olaraq, açıq və konstruktiv ab-havada keçdi. Hesab edirəm ki, görüşümüzün uğurunun əsasını böyük hazırlıq işi təşkil edir. Biz, sadəcə, danışmırıq, hər istiqamət üzrə çox diqqətlə işləyirik, nazirliklərimizin və idarələrimizin nümayəndələri artıq öyrəşiblər ki, Azərbaycanla nəzərdə tutduqlarımızı mütləq yerinə yetirməliyik. İlin əvvəlindən hökumətlərarası komissiyanın iclasları, siyasət və təhlükəsizlik sahələrində məsləhətləşmələr, parlamentarilərin görüşləri, regionların forumu və bir sıra mədəni və işgüzar tədbirlər keçirilib.

Hörmətli jurnalistlər, biz Özbəkistanda qardaş Azərbaycanın böyük uğurlarına və nailiyyətlərinə ürəkdən sevinirik. Bu gün sizin ölkənizdə iqtisadiyyatın, sənayenin, əhalinin həyat səviyyəsinin dinamik artımı təmin edilir, böyük sənaye və infrastruktur layihələri həyata keçirilir. Hörmətli İlham Heydər oğlu, böyük tarixi Qələbə, ölkənin ərazi bütövlüyünün bərpa olunması və əzəli Azərbaycan torpaqlarının qaytarılması münasibətilə bir daha səmimi-qəlbdən təbrik edirəm. Qədim Qarabağ torpağı Sizin səylərinizlə inkişaf və tərəqqi diyarına çevrilir. Burada sosial infrastruktur və istehsalat obyektləri fəal şəkildə tikilir, yeni iş yerləri yaradılır, insanların dinc, əmin-amanlı və xoşbəxt həyata qayıtması üçün bütün tədbirlər görülür. Mən özüm Füzulidə, Şuşada olarkən insanların baxışlarını, tikilmiş infrastrukturu, tunelləri, körpüləri gördüm. Evlər, məktəblər, xəstəxanalar inşa edilir. Yəni, demək istəyirəm ki, insanların rahatlığı və xoşbəxt həyatı üçün hər şey edilir. Qayıdan hər bir insanın, - onlar bu günü illərlə, on illərlə gözləyiblər, - biz İlham Heydər oğlu ilə onlarla görüşərkən, mən bu sakinlərin gözlərində evlərinə qayıtmağın sevincini gördüm. Bir daha əmin etmək istəyirəm ki, Özbəkistan gələcəkdə də bu nəcib işdə Sizi dəstəkləməyə hazırdır. Məhdud tərkibdə görüşdə razılığa gəldik ki, bu gün irimiqyaslı quruculuq işlərinin getdiyi Qarabağda əgər özbək inşaatçıları üçün də hər hansı sahə və ya rayon ayrılarsa, biz də çiçəklənən yeni Qarabağın inşaat işlərində iştirak edərik. İlham Heydər oğlu nəzərdə tutduğumuz işlərdə mənə çox ciddi dəstək verdi. Zənnimcə, biz də sözdə deyil, əməldə bunları reallığa çevirmək üçün dostlarımızın yanında olacağıq.

Daha bir vacib məqam – düz bir həftə sonra, sentyabrın 1-də Azərbaycanda böyük daxili siyasi hadisə – parlament seçkiləri olacaq. Noyabrda Bakı Qlobal İqlim Sammitinə ev sahibliyi edəcək. Biz onların uğurla keçirilməsini arzu edirik və qardaşlarımıza hərtərəfli dəstək göstərəcəyik.

Hörmətli jurnalistlər, Azərbaycan bizim mühüm strateji tərəfdaşımız və bu gündən etibarən artıq həm də müttəfiqimizdir. Bizi ortaq tarixi köklər, çoxəsrlik dostluq birləşdirir, biz bir dinə və oxşar mədəniyyətə, ənənələrə malikik. Bütün bunlar hərtərəfli əməkdaşlığın dərinləşdirilməsi üçün möhkəm zəmindir.

Bu gün çoxtərəfli münasibətlərimizin bütün spektrini ətraflı müzakirə etdik, əsas istiqamətlər üzrə məruzələri dinlədik. Bu, hər şeydən əvvəl ticarət, sənaye kooperasiyası, energetika, nəqliyyat, böyük imkanlarımızın olduğu kənd təsərrüfatı, təhlükəsizlik, mədəniyyət və digər sahələrdir. Siyasi dialoqu möhkəmləndirmək, çoxtərəfli platformalarda qarşılıqlı dəstək göstərmək, parlamentlər, hökumətlər, sahələr, nazirliklər səviyyəsində və ən başlıcası həm də regionlararası fəal təmasları davam etdirməklə bağlı razılığa gəldik. Qarşılıqlı fəaliyyətin artırılmasına xüsusi diqqət yetiririk. Əmtəə dövriyyəsi həcmlərinin artırılmasının zəruriliyini vurğuladıq. Bugünkü əmtəə dövriyyəsini iki dəfə artırmaq üçün bütün əsaslar mövcuddur. Obrazlı desək, biz sıfırdan başlamışıq və indi bu səviyyəyə çatmışıq.

(ardı 4-cü səhifədə)

# Azərbaycan və Özbəkistan prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər

(əvvəli 3-cü səhifədə)

Göstəriciləri dəfələrlə artırmaq üçün bütün əsaslar var. Razılığa gəldik ki, növbəti ili "Özbəkistan–Azərbaycan iqtisadi kooperasiyası ili" elan edək və bununla yanaşı, artıq dediyim kimi, 20 əsas istiqamət üzrə proqram qəbul olunsun. Danışıqlar əsnasında konkret kooperasiya layihələrinin üzərində dayandıq. Bu ərəfədə biznes-forum məhsuldar şəkildə keçirildi, onlarla müqavilə və saziş imzalandı. Bu gün bizim biznes nümayəndələri ilə ayrıca görüşümüz olacaq. Bu da ilk dəfədir. Birlikdə mühüm layihələrə start verəcəyik – bu, mehmanxanaların, tekstil klasterlərinin, tikiş fabriklərinin tikintisi, inşaat materiallarının istehsalı və digərləridir. Bildiyiniz kimi, belə layihələrin həyata keçirilməsi üçün 500 milyon dollar kapitalı olan birgə investisiya şirkəti fəaliyyət göstərir. Üçüncü ölkələrdə perspektivli layihələrdə iştirakı nəzərdən keçirmək üzrə razılığa gəldik.

Biz, həmçinin nəqliyyat əlaqələrinin möhkəmləndirilməsi, o cümlədən Trans-Xəzər dəhlizinin inkişafı vasitəsilə birgə səyləri davam etdirəcəyik. Regionlararası əlaqələrin potensialından maksimum istifadə edəcəyik. May ayında Quba şəhərində regionların forumu uğurla keçirildi. Regionlararası kooperasiya üzrə yol xəritəsini qəbul etmək, növbəti forumun gələn il Kokand şəhərində keçirilməsi, paytaxtlarda turistik komplekslərin yaradılması qərara alındı. Mədəniyyət, gənclər, informasiya siyasəti, elm, təhsil və idman sahələrində fəal mübadiləni davam etdirəcəyik. Hər il ölkələrimizdə qarşılıqlı mədəniyyət və kino günlərinin, sərgilərin, yaradıcı kollektivlərin qastrollarının keçirilməsi xoş ənənəyə çevrilib. Belə tədbirlərin tez-tez bizim əhalinin böyük hissəsinin yaşadığı regionlarda keçirilməsi çox vacibdir. Bu gün, həmçinin bizim əfsanəvi ulduzlarımız Fərrux Zakirov və Polad Bülbüloğlunun çıxış edəcəkləri birgə konsert olacaq. Onların geniş şəkildə tanınması və yüksək qiymətlərinin əlaməti olaraq biz hörmətli İlham Heydər oğlu ilə bu yaxınlarda onlara Xalq artistləri fəxri adının verilməsinə dair qərar qəbul etdik.

Ümumiyyətlə demək istəyirəm ki, etimada əsaslanan danışıqların nəticəsindən çox məmnunam, çünki bu gün də, dünən də bir çox beynəlxalq, regional, ikitərəfli məsələləri çox ciddi müzakirə etdik. Demək istəyirəm ki, bizim mövqelərimiz üst-üstə düşür. Bütün məsələlər üzrə razılığa gəldik. Bizim mövqelərimiz eynilə ondan ibarətdir ki, bütün platformalarda əməkdaşlıq edəcəyik, qarşılıqlı münasibətlərimizi birlikdə inkişaf etdirəcəyik. Yekunda biz mühüm, konkret razılaşmalar əldə etdik, qarşılıqlı fəaliyyətin əsas sahələrində sanballı sazişlər paketi imzaladıq. Bizim bütün təkliflərimizi dəstəklədiyinə görə hörmətli İlham Heydər oğluna səmimi-qəlbdən təşəkkür etmək istəyirəm. Əminəm ki, Sizin tarixi səfərinizin məhsuldar nəticələri Özbəkistan–Azərbaycan əlaqələrinin gələcək inkişafına güclü təkan verəcək, dostluq və müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsinə xidmət edəcək.

İndi məmnuniyyətlə sözü İlham Heydər oğluna vermək istəyirəm.

Sonra Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.



## Prezident İlham Əliyevin bəyanatı

– Hörmətli Şavkat Miromonoviç, əziz qardaş, sağ olun. İlk növbədə, dəvətə görə təşəkkür etmək istəyirəm. Qardaş Özbəkistana yenidən səfər etmək və qardaş ölkənin sürətli inkişafını bir daha görmək böyük sevincdir.

Müxtəlif dövrlərdə, xüsusən son illərdə Özbəkistana dəfələrlə səfər etmişəm. Şavkat Miromonoviçin rəhbərliyi ilə özbək xalqının həyata keçirdiyi möhtəşəm dəyişiklikləri əyani şəkildə görürəm və buna şadam. Şəhərlər gözəlləşir, sənaye fəal inkişaf edir. Keçən səfərimdə biz Daşkənddə birlikdə böyük sənaye kompleksində olduq. Bütün bunlar müdrik siyasətin, xarici investisiyaların cəlb edilməsinin, əlverişli biznes mühitinin yaradılmasının nəticəsidir. Bugünkü Özbəkistan sosial-iqtisadi inkişaf üzrə aparılan gündəlik iş, çoxlu sayda sosial layihələrlə səciyyələnir. Həmçinin bütün bunlara ölkənin beynəlxalq arenada nüfuzunun artmasını da əlavə etmək olar. Bu gün Özbəkistan təkcə regionda deyil, həm də dünya miqyasında sanballı siyasi nüfuza malik ölkəyə çevrilib. Biz buna səmimi-qəlbdən sevinirik. Şavkat Miromonoviçin müdrik siyasətinin son təzahürü özbək idmançılarının Yay Olimpiadasında tarixi uğuru oldu, onlar çoxlu medal qazandılar, onlardan 8-i qızıldır, həm də müsəlman ölkələri arasında birinci və dünyada 13-cü yeri tutdular. Bu, tarixi nailiyyətdir. Sizi bu münasibətlə Azərbaycan xalqı adından bir daha təbrik etmək istərdim.

Artıq qeyd etdiyim kimi, mən qardaş ölkədə tez-tez oluram. Səfərə hazırlaşarkən, onların cədvəlinə və Şavkat Miromonoviçin səfərlərinin cədvəlinə nəzər saldım və gördüm ki, bu, mənim son iki ildə beşinci səfərimdir. Şavkat Miromonoviç isə son il yarımda dörd dəfə Azərbaycanda olub. Əgər buna noyabrda COP konfransında görüşməyimizi də əlavə etsək, onda hesabı bərabərləşdiririk. Bu, ən yaxşı göstəricidir. Hələ mən başqa ölkələrdə beynəlxalq tədbirlər çərçivəsində görüşlərimizi demirəm. Bütün bunlar bu gün haqqında danışdığımız və Ali Dövlətlərarası Şuranın birinci iclası çərçivəsində məruzələrdə dinlədiyimiz uğurların rəhnidir. Konkret layihələrin iyirmiyə çatdırılması onun nəticəsidir ki, bizim keçmişdə razılığa gəldiklərimizin hamısı yerinə yetirilib. Belə deyək ki, nümayəndə heyətlərinin üzvlərinə razılaşdırdığımız məsələlərlə bağlı irad tutduğumuz bir bənd də yoxdur. Bu, əlbəttə, onlarda arxayınlıq yaratmamalıdır, amma hər zaman obyektiv və ədalətli olmaq lazımdır. Ona görə də biz, əslində, Azərbaycan və Özbəkistan nümayəndə heyətlərinin kollektivi arasında da eynilə bu cür münasibət görürük.

Şavkat Miromonoviçin qeyd etdiyi kimi, bu gün biz rəsmən müttəfiq olduq. Bu, razıyam ki, əslində, tarixi məqamdır. Müttəfiqlik münasibətləri haqqında müqavilə iki ölkənin imzalaya biləcəyi ən yüksək beynəlxalq sənəddir. Biz bu gün Daşkənddə həqiqətən də münasibətlərimizin yeni fəslini deyil, kitabını yazırıq. Zənnimcə, əminəm ki, üzərimizdə dolaşan və bununla bağlı bizə xeyir-dua verən əcdadlarımızın ruhları şad olacaq. Bu gün iki qardaş xalq, iki müstəqil, güclü, suveren, nüfuzlu dövlət rəsmi müttəfiq oldular. Bu, çox mühüm xarici siyasət addımıdır və gələcək illərdə bizim münasibətlərimizi, həmçinin bir çox hallarda regional siyasəti müəyyən edəcək. Çünki biz fəal işləyirik və Şavkat Miromonoviçin dediyi kimi, ən müxtəlif – regional və beynəlxalq siyasət məsələləri müzakirə olundu. Bu gün Mərkəzi Asiya, Cənubi Qafqaz, Xəzər regionları vahid geosiyasi regiona çevrilir və regionlarımızda müsbət proseslər Özbəkistan ilə Azərbaycan arasında səmərəli əməkdaşlıqdan asılıdır.

Ona görə də bu hadisə ölkələrimizin ictimaiyyəti tərəfindən çox düzgün qiymətləndirilməlidir fikrinə mən də qoşuluram. Əminəm ki, onlar bizim danışdığımız məsələləri biləndə, bu səviyyəyə çıxdığımızı görəndə bu cür sevinc hissləri keçirirlər. Şavkat Miromonoviç deyəndə ki, bütün bunlar rekord qısa müddətdə edilib, o, tamamilə haqlıdır. Yəni, biz xalqlarımızın yaxınlaşması üzrə işlərimizi o qədər intensiv həyata keçirdik ki, bu səviyyəyə çatmaq üçün cəmi bir neçə il lazım oldu.

Şavkat Miromonoviç də artıq bu barədə danışdı, bizim bu gün müzakirə etdiyimiz məsələlər arasında yalnız bir layihəni ayrıca qeyd etmək istərdim, çünki o, əlamətdardır – bu, işğaldan azad olunmuş Xankəndi şəhərində yeni yüngül sənaye müəssisəsinin yaradılmasıdır. Bu, xalqlarımızın qardaşlığının və dostluğunun daha bir rəmzidir. Biz həmişə - istər işğal, istərsə də İkinci Qarabağ müharibəsi illərində və sonra da özbək xalqının qardaş dəstəyini hiss etmişik. Mən bu gün bu barədə danışmışam, Özbəkistan ilk ölkədir ki, Prezidentin təşəbbüsü ilə bizə mənəvi dəstək olmaqla yanaşı, həm də azad olunmuş ərazilərin bərpasında kömək edib. Bir il əvvəl, avqustun 23-də biz Füzulidə Mirzə Uluqbəy adına 960 şagird üçün nəzərdə tutulan və münasibətlərimizin rəmzi olan, özbək qardaşlarımızın gözəl münasibətlərinin simvoluna çevrilən, həmçinin Şavkat Miromonoviçin Özbəkistanda həyata keçirdiyi standartlara uyğun məktəbin açılışında olduq. O, artıq Özbəkistanda çoxlu sayda belə məktəblər tikib və eynisini bizdə də inşa etdi. Artıq mənə məlumat veriblər ki, orada 500 şagird təhsil alır, amma tezliklə bu məktəbdə nəzərdə tutulduğu qədər şagird olacaq. Çünki keçmiş məcburi köçkünlərin qayıdışı prosesi uğurla davam edir.

Qarabağ haqqında söylədiyiniz sözlərə görə sağ olun. Hamınız bilirsiniz ki, bu, təxminən 30 il ərzində bizim üçün bir nömrəli məsələ idi. Ərazi bütövlüyünün bərpası və sonra ötən ilin sentyabrında suverenliyin tam təmin edilməsi tarixi ədalətin və beynəlxalq hüququn bərqərar olmasıdır. Belə münasibətə görə səmimi-qəlbdən minnətdaram.

Bu gün biz, həmçinin iş adamlarından ibarət qrupla görüşəcəyik. Hərçənd biznes-forum artıq işini yekunlaşdırsa da, hələ hazırda yerinə yetirilmə mərhələsində olan konkret layihələr var. Bu səbəbdən biz onları dinləmək və yeni təlimatlar vermək istəyirik. Həmçinin bugünkü diskussiyalar çərçivəsində çoxlu yeni mövzuları, ilk növbədə, əmtəə dövriyyəsinin artırılması, iqtisadi-ticari əlaqələrimizin konkret məzmunla zənginləşdirilməsi, həmçinin üçüncü ölkələrdə birgə işimizi müzakirə etdik. Yəqin ki, bunun üçün bizə Birgə İnvestisiya Fondunun kapitalını artırmaq lazım gələcək, artıq eşitdiyimiz kimi, layihələrə 500 milyon ayrılıb. Odur ki, bu kapitalı həm ikitərəfli gündəlik, həm də üçüncü ölkələrə investisiyalar ilə çıxış üçün artıracağıq.

Qardaş ölkələr, müttəfiqlər kimi inamla, layiqincə, çiyin-çiyinə addımlayırıq və irəliləməyə davam edəcəyik. Qonaqpərvərliyə və dəvətə görə bir daha təşəkkür edirəm. Sağ olun.

# Daşkənddə Azərbaycan və Özbəkistan prezidentlərinin hər iki ölkənin işgüzar dairələrinin nümayəndələri ilə görüşü





**Avqustun 23-də Daşkənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin hər iki ölkənin işgüzar dairələrinin nümayəndələri ilə görüşü keçirilib. Görüşdə əvvəlcə Özbəkistan Prezidenti çıxış etdi.**

## Prezident Şavkat Mirziyoyevin çıxışı

– Hörmətli İlham Heydər oğlu.

Hörmətli görüş iştirakçıları.

Mən bir daha sizinlə görüşməkdən və Özbəkistana bugünkü tarixi səfərinizdən çox şadam. Bir daha Özbəkistana xoş gəlmisiniz.

Ölkələrimizin–Azərbaycanın və Özbəkistanın aparıcı şirkətlərinin, strateji sənayelərin nümayəndələrinin, biznes elitasının rəhbərlərinin ilk dəfə baş tutan görüşündən məmnunam.

Hörmətli İlham Heydər oğlu, səfər proqramı çərçivəsində özünüzlə işgüzar dairələrdən ibarət geniş nümayəndə heyətini gətirdiyinizə görə Sizə səmimi təşəkkürümü bildirirəm. Çünki bilirəm ki, onlar tez-tez görüşürlər, lakin prezidentlərin himayəsi ilə biz ilk belə görüşü keçiririk. Əminəm ki, çox yaxşı nəticəsi olacaq. Çünki bir daha demək istəyirəm ki, mən onların çoxunu tanıyıram, onlar haqqında çox eşitmişəm, lakin onlar Özbəkistana belə missiya ilə ilk dəfədir səfər edirlər.

Onları özünüzlə gətirdiyiniz üçün bir daha minnətdarlığımı bildirmək istəyirəm. Çünki bizim sahibkarlar bir-birini çoxdan tanıyırlar, amma prezidentlərin himayəsi ilə belə bir görüşümüz olmayıb. İstəyirəm ki, dəstək verdiyiniz təqdirdə, - biz səfərlərə gedəndə, Siz məni dəvət etdiniz və mən də məmnuniyyətlə qəbul etdim, gələn il mütləq səfər edəcəyəm, - biznes nümayəndələri ilə belə görüşlər ənənəvi xarakter alsın. Onların artıq təcrübəsi, əməkdaşlıq etmək istəyi var və biz bütün şəraiti yaradacağıq ki, onların Özbəkistanda işləməsi qarşılıqlı faydalı və rahat olsun. Onlar buna əmin olmalıdırlar. Ona görə də bu gün mən onları məmnuniyyətlə dinləmək istərdim. Çünki gördüyünüz kimi, hörmətli İlham Heydər oğlu və mən dünya və regional bazarlarda qeyri-sabitlik şəraitində Özbəkistan və Azərbaycan arasında iqtisadi-ticari əməkdaşlığın genişləndirilməsinə xüsusi diqqət yetiririk, habelə bu prosesdə biznes təşəbbüslərinə və layihələrinə dəstəyin hansı rola malik olduğunu yaxşı bilirik.

Bu masa arxasında həm Azərbaycanda, həm də Özbəkistanda ayaq üstə möhkəm duran aparıcı şirkətlərin rəhbərləri və nümayəndələri əyləşiblər. Bunu bir daha sizinlə paylaşmaq istəyirəm ki, son üç-dörd il ərzində mən bu biznes elitasını yetişdirirəm və qoruyuram. Çünki bizim müəyyən tarixçəmiz olub. Bəzi insanlar yaxşı bilirlər ki, əvvəllər nə olub, indi vəziyyət necədir. Yəni, mənim üçün onların hər biri həqiqətən yetirmədir. Mən onların hər birini tanıyıram, biznes elitasının burada əyləşən nümayəndələrinin hər biri ilə görüşürəm, onlara hər cür şərait yaradıram. Bu gün isə onların Azərbaycan şirkətləri ilə əməkdaşlıq etməyini istəyirəm. Görürsünüz ki, nə qədər nailiyyətlər əldə etmişik. Dünən keçirilən biznes-forumda artıq 2 milyard dollar dəyərində layihələr portfeli formalaşdırılıb. Bunu uzun bir səyahətin başlanğıcı hesab edirəm, iri şirkətlərimiz isə bundan daha artığına qadirdir. Bugünkü görüşümüzün tarixi olmasını çox istəyirəm. Biz indicə mətbuatla görüşdük və dedim ki, hörmətli İlham Heydər oğlu ilə müttəfiqlik müqaviləsi imzalamışıq. Bilirsiniz ki, biz bu qədər qısa müddətdə heç bir ölkə ilə belə bir müqavilə imzalamamışıq. Niyə məhz mən və hörmətli İlham Heydər oğlu qısa müddətdə buna nail olduq? Çünki ölkələri, xalqları bir araya gətirmək üçün siyasi iradə var. Bizim birbaşa uçuşlarımız yox idi. Bu gün hər iki istiqamətdə həftədə 4 uçuş həyata keçirilir. Amma biz başqa şəhərlərə, yəni Səmərqəndə, Fərqanəyə, Urgençə yeni uçuşlar açmaq istəyirik və bunun üzərində ciddi işləyəcəyik.

Siz iqtisadiyyatın hərəkətverici qüvvəsisiniz, cəsarətlə yeniliklər edir, biznes yaradır və yeni iş yerləri açırsınız. Siz yaxın keçmişi yaxşı xatırlayırsınız. Qeyd etdiyim kimi, siz iqtisadi islahatların əsas hərəkətverici qüvvəsisiniz. Sizin Azərbaycanda, mənim isə Özbəkistanda indiki biznes nümayəndələrim çox böyük işlər görürlər. İlham Heydər oğlu, hər il avqustun 20-sində Sahibkarlar Günü qeyd olunur və Özbəkistan Prezidenti qaldırılan bütün məsələlərlə bağlı biznes ictimaiyyəti ilə görüşür. Bu tədbirlər bir ay ərzində davam edir və Prezident, Baş nazir, nazirlər və bütün əyalət rəhbərləri, bələdiyyə sədrləri də biznes-elita ilə görüşürlər. Beləliklə, onlar artıq daha həvəslidirlər. Hər görüşdə onlarla danışıqlar aparırıq. Çətin dövrdə bizneslərini davam etdirmələri, kapitallarını artırmaları, onların burada özlərini rahat hiss etmələri üçün hər cür şərait yaradırıq. Ona görə də onlar son qərarlardan həvəslənirlər. Düşünürəm ki, bayramaqədərki sonuncu iclasda onlara söz verdiyim bu sərəncamları imzalayacağıq. Biz bu görüşü Qaraqalpaqıstanda keçirdik, çünki Qaraqalpaqıstanda bizneslə məşğul olmaq üçün çox qeyri-adi şərait yaratmışıq. Hər kəs bütün vergilərdən azaddır. Torpaq bütün imtiyazlarla verilir və s. Orada şərait çox münbitdir. Odur ki, nümayəndələrimiz hazırdır ki, siz biznes nümayəndələri imkanınız varsa, daha iki-üç gün də bizdə qalıb, həmkarlarınızla görüşəsiniz. Onlar öz niyyətlərini, baxışlarını paylaşmağa hazırdırlar ki, şirkətlərimiz Azərbaycanda, sizinkilər isə Özbəkistanda təmsil olunsunlar. Biz İlham Heydər oğlu ilə razılaşdıq, mən təklif etdim ki, həm Bakıda, həm də Daşkənddə bizimki kimi bir məkan tikməyə başlayaq. Yəqin bilirsiniz ki, biz Səmərqənddə "əbədi şəhər"ə bənzər "əbədi şəhər" tikmişik. Hətta soruşdum ki, neçə hektar tələb olunur: bizə minimum 5 hektar lazımdır, 10 hektar varsa, ondan da yaxşı olar. Yaxud hər cür şərait yaradın. Bakıda özbək torpağı, Daşkənddə isə Azərbaycan torpağı olacaq. Ona görə düşünürəm ki, bu gün iş adamlarımız da öz təkliflərini verəcəklər. Artıq bunu etmək istəyən iş adamları var. Yəni, sizə lazım olan bütün şəraiti yaradacağıq.

Buna görə də Sizi Özbəkistanda görməyə bir daha şadam. Bir daha demək istəyirəm ki, mənim bütün komandam - Prezidentdən, Baş nazirdən tutmuş hər kəs istənilən vaxt sizinlə görüşəcək, Özbəkistanda qarşılıqlı faydalı şərait yaradacaq ki, özünüzü rahat hiss edəsiniz. Sizdən yalnız layihələr təklifi gəlməlidir. Bunu İlham Heydər oğlu da, mən də dəstəkləyəcəyik. Biz burada görüşürük və bu gün Özbəkistanda biznes mühitinin sizin üçün yaxşılaşdırılması ilə bağlı hər hansı təklifiniz olarsa, sizi dinləməkdən məmnun olaram.

Bir daha sizi görməyə şadam. Mən məmnuniyyətlə sözü İlham Heydər oğluna vermək istərdim.

Sonra Azərbaycan Prezidenti çıxış etdi.

(ardı 5-ci səhifədə)

# Daşkənddə Azərbaycan və Özbəkistan prezidentlərinin hər iki ölkənin işgüzar dairələrinin nümayəndələri ilə görüşü

(əvvəli 4-cü səhifədə)





### Prezident İlham Əliyevin çıxışı

– Hörmətli Şavkat Miromonoviç.

Hörmətli görüş iştirakçıları.

Əvvəlcə bu görüşün keçirilməsi təşəbbüsünə görə Özbəkistan Prezidentinə təşəkkür etmək istərdim. Qeyd edim ki, mənim praktikamda belə görüşlər heç vaxt olmayıb. Rəsmi səfərlər çərçivəsində biznes forumlarında iştirak etdiyim, yaxud xarici dövlət başçılarının səfərləri zamanı Bakıda biznes forumlarının keçirildiyi hallar olub, amma bir qayda olaraq onlar dövlət başçılarının hansısa qısa nitqlərlə müraciət etmələri ilə məhdudlaşıb, sonra çıxıb gediblər, biznes-forum isə öz axarı ilə davam edib. Prinsipcə, bu günlərdə Daşkənddə keçirilən biznes-forum layihələrlə çox zəngin olub. Amma nisbətən məhdud tərkibdə iki ölkənin işgüzar dairələrinin əsas nümayəndələrinin belə bir görüşü mənim praktikamda ilk dəfədir keçirilir. Ona görə də bundan başlamaq və Şavkat Miromonoviçə təşəkkürümü bildirmək istəyirəm.

Həmçinin bu gün imzalanan sənədlərin, ilk növbədə, müttəfiqlik münasibətlərinə dair Müqavilənin əhəmiyyətini bir daha qeyd etmək istərdim. Bu, Azərbaycanda həmin qəbildən olan üçüncü sənəddir. İndiyə qədər - bizə yaxın olan iki ölkə ilə 2021-ci və 2022-ci illərdə müttəfiqlik münasibətlərinə və ya müttəfiqlik qarşılıqlı fəaliyyətinə dair bəyannamələr imzalamışıq. İndiki halda söhbət müqavilədən gedir, yəni dünyada bu sənəddən daha yüksəyi yoxdur. Həm də bu, çox qısa müddət ərzində bizim birgə fəaliyyətimizin nəticəsidir. Biz Şavkat Miromonoviç ilə məsələləri dəfələrlə müzakirə etmişik və əldə etdiklərimizə sevinmişik, amma həmişə daha çox iş görə biləcəyimizlə bağlı həyəcan keçirmişik. Mən ikimizi deyil, bir çox illər əvvəl – 15 və ya 20 il öncə Özbəkistan və Azərbaycanı nəzərdə tuturam. İlk dəfə Prezident kimi Özbəkistana düz 20 il əvvəl - 2004-cü ildə gəlmişəm və həmin vaxt Özbəkistan hökumətinə az bir müddət əvvəl rəhbərlik edən Şavkat Miromonoviçlə tanış olmuşam. Onunla birlikdə Səmərqəndə getdik və beləliklə, həmin vaxt bizim dostluğumuz başladı. Amma özbək dostlarımız ozamankı vəziyyəti yaxşı bilirlər, həm siyasi dialoqu, həm də iqtisadi münasibətləri inkişaf etdirmək üçün imkanlar yox idi, onlar, demək olar ki, mövcud deyildi, sadəcə, onlar olmayıb. Bu gün bizim burada təqdim etdiyimiz 20 istiqamət üzrə yeni təşəbbüsləri, təbii ki, diqqətlə öyrənəcəyik. Bununla yanaşı deməliyəm ki, prezidentlər səviyyəsində təkcə biznes sahəsində deyil, iqtisadi-ticari sahədə qəbul edilən hər hansı bir qərarın yerinə yetirilmədiyi hal olmayıb.

Daha bir mühüm mövzuya toxunmaq istəyirəm. Bilirəm ki, biznes strukturları siyasi konyunktura çox həssas reaksiya verir, onlar belə də etməlidir. İndi Özbəkistanla Azərbaycan arasında mövcud olan ən yaxşı siyasi konyunktura, sadəcə, heç bir yerdə mövcud deyil. Ona görə də bu, iş adamlarımızı birlikdə işləməyə və o cümlədən, birgə investisiya qoymağa sövq edən ən vacib amillərdən biridir. Özbəkistan böyük potensiala malik ölkədir və indi bir növ çiyinlərini, qanadlarını yenicə açır və artıq uçur, amma hələ bir az vaxt, bir neçə il lazımdır ki, bu, sözün bütün mənalarında əsl uçuş olsun. Ölkə çox az dövlətlərdən biridir ki, siyasi sabitlik həm Prezidentin siyasətinə, həm də xalqın Prezidentə münasibətinə əsaslanır. Bu isə biznes üçün çox vacibdir. İrəlini görmək çox mühümdür, iş adamlarının, investorların onların investisiyalarının qorunacağını və məmnunluqla, sevinclə işləyəcəklərini, həmçinin gəlir əldə edəcəklərini bilmələri çox vacibdir. Həmçinin Özbəkistanda yaxşı investisiya mühiti var. Əks halda, qısa müddət ərzində bu qədər sərmayə olmazdı, onların bir çoxu xarici və yerlidir, yəni yerli investorlar sadəcə başqa ölkələrə yatırardılar, xaricilər isə gəlməzdilər. Ona görə də bütün bu amillər çox mühümdür. Prinsipcə, mən indiki halda Azərbaycan iş adamlarına müraciət edərək deyirəm, amma həmin sözləri Azərbaycan haqqında da söyləyə bilərəm. Bütün bu amillər Azərbaycanda da mövcuddur, ona görə də özbək investorları üçün Azərbaycanda işləmək, sərmayə qoymaq da əlverişli və faydalı olacaq. Əgər investisiyaların statistikasına nəzər salsaq, bütün bunlar, necə deyərlər, bizim sözlərimizi daha çox təsdiq edər.

Bizim artıq investisiya proqramlarını müəyyən etdiyimiz sahələr – sənaye (ağır, avtomobil, yüngül), kənd təsərrüfatı (pambıqçılıq, ipəkçilik, bağçılıq), turizm biznesi, mehmanxana biznesidir. Bunlar işlərin artıq davam etdiyi yeganə istiqamətlər deyil. Daha bir əhəmiyyətli məqamı qeyd etmək istərdim. Bu, investisiyaların iki tərəfdən gəlməsidir. Deyək ki, bu, həmçinin Azərbaycanın praktikasında elə də tez-tez rast gəlinmir. Bir qayda olaraq, xarici investorlar Azərbaycanın neft-qaz sahəsinə maraq göstərir, digər sahələrdə xarici şirkətlərə gəldikdə, onlar Azərbaycanda əsasən iş müqavilələri almaq istəyirlər. Başqa sözlə desək, podratçı qismində çıxış etmək. Bu da yaxşıdır. Bizə yaxşı, ixtisaslı və vicdanlı podratçılar lazımdır. Amma bu, bizim təcrübəmizdə heç də istədiyimiz deyil, investisiyalar elə bil ki, paralel kursla daxil olur və bizim daha çox inkişaf etmiş sahələrimizi əhatə edir. Ona görə də bu sahədə münasibətlərimizin unikallığı, düşünürəm ki, həmçinin ictimaiyyətin, o cümlədən iş adamlarının böyük diqqətinə layiqdir. Son məqamda mən konkret layihələrin sadalanması ilə vaxtı çox almaq istəmirəm. Bu barədə çox danışmışıq. Bizim razılığa gəldiyimiz son məqam biznes layihələrinin informasiya dəstəyidir. Məsələn, Azərbaycanda Özbəkistanda baş verənlərlə bağlı və hansı böyük layihələrin reallaşdığı, biznes üçün necə imkanların olması barədə daha çox informasiya olsun. Çünki bu gün biz bir növ aparıcı biznes strukturları ilə danışırıq, amma əminəm ki, öz müəssisələrini açmaq istəyən çoxlu sayda kiçik biznes, orta biznes nümayəndələri də olacaq. Ola bilər ki, onların sayı Xankəndidə tikiş fabrikində olduğu kimi min nəfərə çatmasın, cəmi 5 nəfər olsun. Əminəm ki, bu da, bugünkü səfər də, bizim danışdıqlarımız və imzaladıqlarımız da onlar üçün belə siqnal olacaq. Ona görə də nəyin baş verməsi, hansı imkanların olması, hansı iqtisadi sahələrin hökumət üçün prioritet təşkil etməsi haqqında informasiyalar nə qədər çox olarsa, iş adamları da bu istiqamətdə addımlayacaqlar. Birincisi, cəmiyyətlərimiz bir-biri haqqında daha çox informasiya alacaq, bu isə mütləq lazımdır, müttəfiqlər kimi buna nail olmalıyıq, həmçinin bu, biznes strukturları üçün də yaxşı oriyentir olacaq. Onlar biləcəklər ki, orada, məsələn, gəlir norması 20 faizdir, burada 15 faiz, başqa yerdə 25 faiz, yaxşı gəlir əldə etmək üçün bu sahə var. Ölkələrimizin potensialının çox böyük olduğunu və həmçinin investisiyaların qoyulması sahələrinin tamamilə geniş olduğunu nəzərə alaraq, əminəm, gəlir norması elə olacaq ki, onu başqa yerlərdə əldə etmək çətin ki, mümkün olsun.

Nəhayət, ən sonuncusu. Bakıya qayıdandan sonra, həmçinin şəhər meriyasına yaxşı bir yerdə 5-10 hektar ərazi ayırmağı tapşıracağam və Şavkat Miromonoviçin Bakıda Özbəkistan guşəsinin, Daşkənddə isə Azərbaycan guşəsinin yaradılması təklifini tam dəstəkləyirəm. Onlar həm bizim mədəniyyətimizi, həm adət-ənənələrimizi, həm də memarlığımızı təcəssüm etdirəcək. Beləliklə, biz də bu məsələnin üzərində fəal işləyəcəyik. Yaxın vaxtlarda belə bir yer seçəcəyik.

Diqqətinizə görə sağ olun.

*

Görüşdə çıxış edən şirkət rəhbərləri və iş adamları iki ölkə arasında neft-qaz, neft-kimya sənayesində, inşaat, inşaat materiallarının istehsalı, maşınqayırma, nəqliyyat, gəmiqayırma, sərmayə qoyuluşu və digər sahələrdə birgə layihələrdən danışdılar.

Dövlət başçıları çıxışlar barədə rəylərini bildirdilər.

*

**Prezident Şavkat Mirziyoyev:** İlham Heydər oğlu, hesab edirəm ki, bu, biznes dairələrimizin böyük birgə işinin başlanğıcıdır. Bir daha qeyd edirəm, İlham Heydər oğlunun dediyi kimi, siz əmin olmalısınız ki, biz hər cür rahat şərait yaradacağıq. Yetişdirdiyim şirkətlər artıq dedilər, - bu gün hər kəs çıxış etmək istərdi, amma təəssüf ki, vaxtımız məhduddur, - hamısı sizinlə əməkdaşlıq etmək istəyir. Bir daha deyirəm, biz yalnız qarşılıqlı faydalı əsasda bütün şəraiti yaradacağıq ki, bir ildən sonra sizin şirkətlərin nümayəndələri Özbəkistanda, bizim şirkətlər isə Azərbaycanda təmsil olunsun. Artıq başa çatdırdığımız iri layihələrin sayı bir deyil, iki deyil. Biz başlayanda heç kim bizə inanmırdı. Göründüyü kimi, əməkdaşlıq etmək olar. İkincisi, mən həmişə İlham Heydər oğluna bir məsələni deyirəm: əgər biz idxalı əvəzlədiyimizə baxsaq, görərik ki, başqa ölkələri təmin edirik. Biz əməkdaşlıq etsək, 2-3 ilə çox şeyə nail olacağıq və nəticələr də olacaq. “Global Textile” şirkətinin rəhbəri Müzəffər Razakov bu gün 2 min iş yerinin olduğunu bildirdi. Bu da real nəticədir - 2 min iş yeri. Mən ona tapşırdım ki, bu, Özbəkistanda ən nümunəvi klaster olmalıdır, çünki İlham Heydər oğlu, mən Sizə səmimi deyirəm, 3-4 ildir, rəqəmlərlə danışsaq, biz pambığın təxminən 15 faizini emal etmişik. Amma ümumi baxanda, 2016-cı ildən etibarən hazır lif satışı 700 milyon təşkil edib. Bu gün biz bu sənayeni tamamilə dəyişdirmişik. Biz ixrac edirik, yalnız ixraca yönəlmişik. 2,5 milyona yaxın vergi daxilolmaları ilə yanaşı, bütün respublika üzrə qadınları bu sahəyə cəlb etmişik. Bu sənayedə 4-4,5 milyardlıq ixracımız var. Yəni, bunlar bizim işimizin real nəticələridir. Ən əsası isə biz bunu sahibkarlara həvalə etdik. Klasterlər özəl mülkiyyətçilərdir, özləri əkir, emal edir və bazarda satırlar. Mən hər il onlara kömək edirəm. Toxuculuq üçün yaxşı bazar şəraiti olanda onlar özləri bacarıqlarını nümayiş etdirəcəklər. Amma onlar son üç-dörd ildir ki, fəaliyyət göstərirlər. Dövriyyə kapitalı olsun deyə, biz onları bir az dəstəkləyirik. Hər il onlarla görüşür, onlara dəstək oluram. İlham Heydər oğlu, odur ki, biz bu sahələrdə də yaxşı əməkdaşlıq edə bilərik.

**Prezident İlham Əliyev:** Şavkat Miromonoviçlə tamamilə razıyam. Eşidəndə ki, artıq iş başlayıb və planlar yetərincə genişmiqyaslıdır, çox sevindim. Qırx min ton pambıq, əgər biz indi 300 min ton istehsal ediriksə, bu, malik olduğumuzun təqribən 15 faizi deməkdir. Sahənin 5 mindən 11 min hektara qədər artırılması perspektivindən, - həm də orada torpaqların hamısı əkinə yararlıdır, - sizin texnologiyalarla biz düşünürəm ki, hektardan 4-5 ton pambıq yığacağıq, bu da tamamilə realdır. Yəni, biz 50 min ton həcminə çata bilərik, bu isə ciddi əlavə artım olacaq. Siz düzgün qeyd etdiniz ki, tekstil klasteri, ilk növbədə, qadınlar üçün iş yerləri deməkdir, yəni, bu, məşğulluqdur. Yəni, bu, çox faydalı layihədir. Həmçinin başqa yoldaşların məruzə etdikləri də birgə işimizin nəticəsidir.

Bizim nəqliyyatçılar da buradadırlar. Həmçinin nümayəndə heyətimizə, - mənimlə birlikdə gələn nümayəndə heyətini nəzərdə tuturam, - tövsiyə edərdim ki, Xəzər vasitəsilə daşımalar məsələsində bərələrin sifarişini təklif etsinlər. Bəlkə Siz nəqliyyat naziri ilə görüşəsiniz və elə bu mövzunu müzakirə edəsiniz. Çünki biz hazırda gəmiqayırma zavodumuzun gücünü artırırıq - hazırda burada 6 gəmi inşa edilir. Yəni, o, bizim sifarişlərimizi qəbul etmək üçün tam yüklənib. Yəqin ki, lazım olarsa, bununla kifayətlənməyəcəyik, çünki Çin–Qırğızıstan–Özbəkistan dəmir yolu tezliklə hazır olacaq. Deməli, əlavə yüklər gələcək. Bütün hallarda həm siz, həm də biz bu planda birgə işləməli olacağıq. Həmçinin keçən görüşlərin birində mən Şavkat Miromonoviçə məlumat verdim ki, biz indi Qara dəniz regionuna fəal şəkildə çıxırıq. Dörd ədəd “Afromaks” tankeri almışıq, həm də nəzərə almalıyıq ki, bizim Qara dənizdə əvvəllər də gəmilərimiz olub. Əgər perspektivdə Sizi maraqlandırarsa, biz Qara dənizdə yüklərin daşınması üzrə birgə işləyə bilərik, çünki orada sifarişlərin həcmi yetərincə böyükdür. Qara dəniz hövzəsinin çətinlikləri isə, necə deyərlər, məlumdur, buna görə də burada birgə işləyə biləcəyimiz müəyyən sahələr var.

Qarabağda işlərlə bağlı. Tikintiyə töhfənizə görə sağ olun. Həmçinin iqtisadiyyat nazirinə tapşırıram ki, sizin köməyinizlə daha hansı layihələrin reallaşdırıla biləcəyi nəzərdən keçirilsin. “Böyük Qayıdış” proqramı kifayət qədər genişmiqyaslıdır. Bu ilin sonunadək bizim 2021-ci ildən bəri yatırmağa başladığımız sərmayələrin ümumi həcmi yəqin ki, 10 milyard dollardan az olmayacaq. Praktik olaraq, elə bu yaxınlarda mənzillərin tikintisinə başlamışıq, yəni, hər şey əsasən infrastruktura yönəldilib. Mənzillərin tikintisi isə kütləvi şəkildə başlayıb. Biz artıq qayıtmaq istəyən 100 min nəfərdən 8 mindən bir qədər çoxunu yerləşdirmişik. Yəni, zənnimcə, mənzil tikintisi bütün infrastruktur başa çatdıqdan - 2026-cı ildən sonra olacaq, bu, əsas istiqamətə çevriləcək. Ona görə də bütün layihələr üzrə bizdə qərargah, təşkilat komitəsi var. İqtisadiyyat Nazirliyi investisiya layihələri ilə məşğul olur. Bu səbəbdən əlaqə saxlayın, düşünürəm ki, bizim növbəti görüşümüzdə siz hansı layihələrin həyata keçirildiyini deyə biləcəksiniz.

**Prezident Şavkat Mirziyoyev:** İlham Heydər oğlu, bir təklifim olacaq, hesab edirəm ki, bizim proqramımız zəngindir. Amma mən çox istərdim ki, hamını dinləyək. Lakin protokola əməl etməliyik. Amma mənim belə bir təklifim var, İlham Heydər oğlu, mən yenə də təklif edirəm, dediyim kimi, xahiş edirəm, bir gün də qalın ki, həmkarlarınızla danışasınız, sonra hər biriniz hansısa ortaq layihə ilə çıxış edəsiniz. Üstəlik, biz İlham Heydər oğlu ilə fondun məbləğinin artırılmasına dair razılığa gəldik. Yəni, işinizə başlamaq üçün dəstək verəcəyik. Daha müfəssəl danışın. Siz iş adamları, bir-birinizi dərhal başa düşürsünüz. Tərcüməçiyə ehtiyacınız yoxdur. Siz bir-birinizi çox tez başa düşürsünüz və biz prezidentlər - İlham Heydər oğlu və mən sizi dəstəkləyəcəyik. Daha sonra Yol xəritəsinə yeni layihələr daxil edəcəksiniz. Bir daha demək istəyirəm, əmin olmalısınız ki, bu, həm sizin, həm də bizim üçün daha rahat işləyə bilməyiniz baxımından qarşılıqlı faydalı olacaq. Qeyd etdiyim kimi, üçüncü ölkələr, məsələn, Əfqanıstan da var. Bizim Mərkəzi Asiyada 80 milyonluq bazarımız var, sərbəst şəkildə nəzərə ala bilərsiniz. Bunu diqqətdə saxlayın. Buna görə bir daha hamınızı Özbəkistanda görməyə şadam. Hesab edirəm ki, bu, Azərbaycanın və Özbəkistanın işgüzar dairələri arasında çox yaxşı qarşılıqlı əlaqələrin başlanğıcıdır.

**Prezident İlham Əliyev:** Tamamilə razıyam. Şavkat Miromonoviç, bu təşəbbüsə görə bir daha sağ olun. Həm bu təmas, həm də işgüzar dairələr üçün bizim tövsiyələrimiz düşünürəm ki, mühüm əhəmiyyətə malik olacaq. Sizinlə nazirlərimizin gördüyü işlərə nəzarət etdiyimiz kimi, beləcə onlara da nəzarət edəcəyik. Odur ki, qoy onlar buna hazır olsunlar.

**Prezident Şavkat Mirziyoyev:** Bəli. Odur ki, siz də nəzarətə hazır olun.

*

Sonra yeni Özbəkistan-Azərbaycan birgə layihələrinə start verilməsi mərasimi oldu.

Bildirildi ki, ümumi dəyəri 520 milyon dollar olan 7 layihə həyata keçirilməyə hazırdır. Bunlar aşağıdakılardır:

– Daşkənd şəhərində beşulduzlu mehmanxananın və “The Ritz-Carlton” brendi altında premium-sinif rezidensiyasının tikintisi. Layihənin dəyəri 200 milyon dollardır.

– Qaşqadərya vilayətinin Qamaşı rayonunda gips və gips-karton məmulatları istehsalı zavodunun tikintisi, istehsal gücü sutkada 350 ton. Layihənin dəyəri 20 milyon dollardır.

– Daşkənddə “Agalarov Development” tərəfindən yaşayış komplekslərinin tikintisi. Layihələr 133 milyon dollara başa gəlib.

– Azərbaycan Respublikasının Yevlax rayonunda tekstil klasterinin yaradılması. Layihənin dəyəri 104 milyon dollardır. Pambıq becərilməsinin başlanğıcından hazır məhsulun buraxılmasına qədər tam istehsal prosesini təmin edir. Bu layihə Özbəkistanın “Global Textile” şirkətinin iştirakı ilə həyata keçirilir.

– Azərbaycan Respublikasının Xankəndi şəhərində toxuculuq fabrikinin tikintisi. Layihənin dəyəri 6 milyon dollardır və Özbəkistanın “BUSINESS TEX” MMC şirkətinin iştirakı ilə həyata keçirilir.

– Azərbaycan Respublikasının İmişli rayonunda tekstil klasterinin yaradılması. Layihənin dəyəri 54 milyon dollardır və pambığın yığılmasından hazır məhsulun buraxılmasına qədər tam istehsal prosesini təmin edir. Layihə Özbəkistanın “TST GROUP” şirkətinin iştirakı ilə həyata keçirilir.

– Azərbaycan Respublikasının Füzuli rayonunda Özbəkistan–Azərbaycan dostluq bağının yaradılması. Layihənin dəyəri 3 milyon dollardır.

*

Sonra prezidentlər İlham Əliyev və Şavkat Mirziyoyev Azərbaycanda və Özbəkistanda birgə layihələrin başlanmasını bildirən rəmzi düyməni basdılar.

# Daşkənddə Azərbaycan və Özbəkistan incəsənət ustalarının birgə konserti

**Avqustun 23-də Daşkənddə Azərbaycan və Özbəkistan incəsənət ustalarının birgə qala konserti olub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, xanımı Ziroatxon Mirziyoyeva, qızları Saida Mirziyoyeva konsertdə iştirak ediblər.





# Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın şərəfinə dövlət ziyafəti



**Avqustun 23-də Daşkənddə Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin və xanımı Ziroatxon Mirziyoyevanın adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın şərəfinə dövlət ziyafəti verilib.**



# Birinci xanımlar "Mexrli" məktəbində





**Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva avqustun 23-də Daşkənddə "Mexrli" məktəbi ilə tanış olublar.**

Birinci xanımlara məktəb barədə məlumat verildi.

Bildirildi ki, Uşaq Hematologiya, Onkologiya və Kliniki İmmunologiya Mərkəzinin nəzdində fəaliyyət göstərən məktəbdə fasiləsiz və keyfiyyətli təhsili təmin etmək məqsədilə uzun müddət xəstəxanada müalicə alan və adi məktəbə və ya uşaq bağçasına gedə bilməyən uşaqlara məktəbəqədər, o cümlədən ümumi orta təhsil verilir. Məktəb həm də valideynlərin bu prosesə cəlb edilməsi ilə uşaqların tam reabilitasiyasına və sosiallaşmasına şərait yaradır. Tədris prosesində sırf rəqəmsallaşdırılmış dərslik və kitablardan istifadə olunur.

Qeyd edildi ki, Mərkəzdə müalicə alan 1-11-ci sinif şagirdləri üçün ümumi orta təhsil 12 fənn üzrə həyata keçirilir. Məktəbin yaradıcılıq studiyasında uşaqlara musiqi və təsviri incəsənət fənləri öyrədilir.

Sonra birinci xanımlar uşaqlarla görüşdülər və onların əl işləri ilə tanış oldular.

Sonda xatirə şəkli çəkdirildi.

# Azərbaycanın və Özbəkistanın birinci xanımlarının görüşü



**Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva avqustun 23-də Daşkənddə Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva ilə görüşüb.**

# Birinci xanımlar və qızları sərgidə



**Avqustun 23-də Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva və qızı Saida Mirziyoyeva ilə birgə Özbəkistanın Xalq rəssamı Akmal Nurun əsərlərindən ibarət sərgi ilə tanış olub, Özbəkistan milli geyimlərindən ibarət kolleksiyaya baxıblar.**



"Sevgi bağında" adlı sərgidə Özbəkistanın Xalq rəssamı Akmal Nurun son illərdə çəkdiyi əsərlər nümayiş olunur.

Xalq rəssamı Akmal Nur sərgidə yer alan əsərləri barədə məlumat verdi. Bildirdi ki, əsərlərdə ana sevgisi və kənd həyatının motivləri, ailə və ən əsası Tanrının insana bəxş etdiyi talelər canlandırılıb.

Sonra birinci xanımlar və qızları naxışçı Mədinə Kasımbayevanın kolleksiyası ilə tanış oldular. Hər bir məmulat ənənəvi özbək naxışvurmasının müxtəlif texnikalarından istifadə olunmaqla əllə yerinə yetirilib.

Qeyd olunub ki, "Süzane" naxışının vurulmasında pambıqdan və ipəkdən yalnız evdə hazırlanmış materiallardan istifadə olunur. Saplar əllə boyanır, sonra dağ kvarsı və duz əlavə olunmaqla qaynadılır ki, bu da saplarda boyanın uzunmüddətli qalmasından ötrüdür.

Birinci xanım Mehriban Əliyevaya Özbəkistan mədəniyyətinin təbliğ olunduğu xatirə hədiyyələri təqdim edildi.

# Prezident İlham Əliyevin Özbəkistana dövlət səfəri başa çatıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasına dövlət səfəri başa çatıb.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı İslam Kərimov adına Daşkənd Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Özbəkistanın Baş naziri Abdulla Aripov və digər rəsmi şəxslər yola saldılar.

**AZƏRTAC**

# Ermənistan geosiyasi dalandan çıxa bilmir

**Ermənistan hakimiyyətinin yol verdiyi siyasi naşılıqlar, korafəhmlilik, necə deyərlər, bir budaqda əyləşib min budağı silkələmək siyasətinin acı nəticələri son vaxtlar ölkə daxilində daha tez-tez müşahidə olunur. Daxildəki qüvvələr Nikol Paşinyan iqtidarının və şəxsən, baş nazirin özünün, əsasən, Rusiyaya münasibətdə strateji səhvlərə yol verdiyini bildirirlər. Bu düşüncədə olan siyasətçilərdən biri də Respublika partiyasının sədr müavini və icraiyyə komitəsinin üzvü Armen Aşotyandır.**



A.Aşotyan 2012-2016-cı illərdə Ermənistanın təhsil və elm naziri olub. İxtisasca həkimdir. Paşinyan hakimiyyətə gələndən sonra müxalifətə keçib. Bir ildən çoxdur ki, həbsdədir. O, qəyyumlar şurasının rəhbəri olduğu İrəvan Tibb Universitetində xüsusilə böyük məbləğdə mənimsəmə cinayətində ittiham olunur. Ancaq sabiq nazir dəfələrlə bildirib ki, ona qarşı iş siyasi fəaliyyətinə görə qaldırılıb. Hazırda korrupsiyaya qarşı mübarizə məhkəməsində məhkəmə prosesi davam etdirilən A.Aşotyan iclasların birində fasilə zamanı jurnalistlərin suallarını cavablandırıb. Onun səsləndirdiyi fikirlər diqqəti cəlb edir.

Aşotyan deyib ki, hazırda Hayastanla bağlı məsələlər dünyada Ermənistan nümayəndələrinin iştirakı olmadan müzakirə edilir. Onun sözlərinə görə, Ermənistanın strateji müttəfiqinin bu məsələləri Bakı ilə müzakirə etməsi pisdir. Amma daha pis olan odur ki, rəsmi İrəvanın özü vəziyyəti indiki həddə gətirib çatdırıb: "Ermənistan–Rusiya münasibətləri hazırda geridönməz şəkildə korlanıb və onu bərpa etmək mümkün deyil. Münasibətlər elə bir vəziyyətə gəlib çatıb ki, hər iki tərəfin rəsmiləri harada və nədən danışacaqlarını dərk edə bilmirlər".

Belarus Prezidenti Aleksandr Lukaşenkonun ermənilərin onlardan başqa heç kəsə lazım olmadığı ilə bağlı bəyanatına toxunan Aşotyan deyib: "Nikol bir vaxtlar Lukaşenkonun onu tərifləməsindən çox məmnun qalmışdı. Nikol Lukaşenkonun onu qəfildən tərifləməyə başlamasının bədəlini bir gün ödəyəcəyini də düşünməli idi..."

Ermənistanın təhlükəsizlik məsələlərinə gəldikdə isə A.Aşotyan bildirib: "Nikol Paşinyanın Ermənistanın təhlükəsizlik məsələlərinə heç bir aidiyyatı yoxdur".

Əlbəttə, A.Aşotyanın fikirlərini təhlil edərkən onun müxalifəti təmsil etdiyini nəzərdən qaçırmaq olmaz. Özü də Aşotyan Paşinyana qarşı radikal müxalifətçilik edən Qarabağ klanının iki əsas liderindən biri olan Serj Sarkisyanın partiyasında sədr müavinidir. Bununla belə, onun fikirlərində obyektivliyin payı da az deyil.

Ümumiyyətlə, Rusiya Prezidenti Vladimir Putinin avqustun 18-19-da Bakıya etdiyi dövlət səfəri, Belarus Prezidenti A. Lukaşenkonun səsləndirdiyi və gerçəkliyə uyğun fikirlər Ermənistan cəmiyyətində ciddi müzakirə olunmaqdadır. Məsələn, Respublika partiyasının icra orqanının üzvü, parlamentin sabiq sədr müavini Eduard Şarmazanov jurnalistlərlə söhbətində bildirib ki, N.Paşinyanın səriştəsiz siyasəti nəticəsində Ermənistan geosiyasi və regional oyunçular, dövlətlər arasında çəkişmə, sınaq meydanına, yaxud hərbi poliqona çevrilib.

Şarmazanov qeyd edib ki, Rusiya regionda özünün maraqlarına xidmət edən mühüm oyunçudur. Hazırda Bakı və Moskva arasında yaxşı münasibətlər formalaşıb. Bu mənada Vladimir Putinin Azərbaycan paytaxtına səfəri və burada Prezident İlham Əliyevlə görüşü tam təbiidir: "Amma Rusiya rəsmiləri Nikolla necə görüşə bilərlər? Ermənistan hakimiyyəti Roma statutunu ratifikasiya edib öyünür ki, gəlsə (Putin nəzərdə tutulur–S.H.), həbs olunacaq".

E.Şarmazanov bir qədər də irəli gedərək Azərbaycanın Ermənistana hücum etməsinin (?) nəzəri cəhətdən mümkün olduğunu bildirib, lakin əlavə edib ki, müharibə ehtimalını görmür: "Yalnız bərabər gücə malik olan qüvvələr döyüşə bilərlər. Paşinyan Ermənistanı kollektiv Qərbin əlində alətə çevirib. 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatdan sonra Nikol Brüssel platformasına keçdi və 2022-ci il oktyabrın 6-da Praqada "Artsax"ı Azərbaycanın bir hissəsi kimi tanıyan sənədə imza atdı. Bununla da Qarabağla bağlı bütün məsələlər bağlandı. Dünya Qarabağla bağlı məsələləri Azərbaycanın daxili işi kimi qəbul etməyə başladı".

Ermənistanın media orqanlarında da regiondakı son proseslərlə bağlı analitik yazılar dərc olunur. Bu yazılarda Rusiya Prezidenti Vladimir Putin, Xarici işlər naziri Sergey Lavrov, nazirliyin rəsmi nümayəndəsi Mariya Zaxarova, digər dövlət rəsmiləri hədəfə alınır. Onlar barədə tənqidi yazılarda aşağılayıcı sözlərdən istifadə olunur. Məsələn, "Armenian Report"da yerləşdirilmiş "Dəyişiklik küləyi: O, Qərbdən əsir" sərlövhəli analitik yazıda Ukraynanın Kursk vilayətinə hücumunun uğurlu olması Rusiyanın rüsvayçılığı adlandırılır. Qeyd edilir ki, "bu rüsvayçılığı" təkcə ruslar deyil, bütün dünya görür: "Və biz də görürük. Deməli, bu cür Rusiyadan mümkün qədər tez və uzağa qaçmaq lazımdır. Bu fikirləri "beşinci kolon" nümayəndələrinin Rusiyanın təhlükəsizliyimizin qarantı olaraq qalması ilə bağlı müzakirələrinin artması ilə əlaqədar yazıram. Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova da mütəmadi olaraq eyni şeydən danışır. Amma biz artıq hər şeyi görmüşük. Azərbaycan "Artsaxı işğal edəndə" (?) Rusiya Azərbaycanı dəstəklədi. Rusiya sülhməramlılarını geri çəkdi, Azərbaycana hərtərəfli əməliyyat həyata keçirməyə imkan verdi".

Müəllif Romella Mnatsakanyan yazıb ki, Putin bu günlərdə Bakıya gəlib, onu son dərəcə isti qarşılayıblar: "Bütün sirlər aşkara çıxdı və Ermənistandakı "rus dünyası"nın tərəfdarları axmaq vəziyyətə düşdülər. Nəhayət, bəlli oldu ki, Ermənistanı düşmənlərindən qorumağa, onun təhlükəsizliyinin qarantı olmağa yalnız kollektiv, demokratik Qərb qadirdir".

Jurnalist rusiyalı politoloq Sergey Markovu da hədəfə alıb. Qeyd edək ki, Markov bugünlərdə "Teleqram" kanalında V.Putinin Azərbaycana səfərinin tarixi hadisəyə çevrildiyini yazıb. Bildirib ki, səfər Rusiyanın Cənubi Qafqazdakı əsas müttəfiqinin dəyişməsi ilə əlamətdar oldu: "30 ildən artıqdır ki, Ermənistan belə bir müttəfiq idi, lakin indi o, Qərbin, o cümlədən Fransanın, Aİ-nin və ABŞ-nin tərəfinə keçmək qərarına gəlib. Bu kontekstdə Rusiya və Azərbaycan son üç il ərzində yaxınlaşmağa başlayıb və Putinin səfəri Rusiyanın əsas müttəfiqinin dəyişməsi ilə əlamətdar oldu – indi o, Azərbaycandır".

Erməni jurnalist dediyi sözlərə görə Markova təşəkkür edib və bu sözlərin ABŞ, Aİ və Ukraynada eşidiləcəyinə ümid etdiyini vurğulayıb.

Göründüyü kimi, Ermənistan mediası V.Putinin Bakıda yüksək səviyyədə qarşılanmasını da başqa cür yozmağa girişib. Əslində isə burada qeyri-adi heç nə yoxdur. Qonaqpərvərlik Azərbaycan xalqına xas nəcib keyfiyyətlərdəndir. Biz vaxtilə ermənilərə münasibətdə də çox qonaqpərvər olmuşuq. Onların Çar Rusiyası tərəfindən Gülüstan və Türkmənçay müqavilələrindən sonra tarixi torpaqlarımıza köçürülməsinə imkan vermişik. İrandan, Yaxın Şərqin müxtəlif yerlərindən bölgəmizə köçürülən erməni xalqı köçürülmədən 50-60 il sonra bizə qənim kəsilməyə başlayıb. Biz ermənilərə münasibətdə yol verdiyimiz qonaqpərvərliyin, həlimliyin, qayğıkeşliyin cəfasını uzun onilliklər boyu çəkməli olduq. Nəhayət, 2020-ci ildə torpaqlarımız erməni işğalçılarının tapdağından qurtuldu. Həmin günlərdə ermənilər yenə də Rusiyaya, ABŞ-yə, Fransaya və digər ölkələrə arxalanırdılar. Onların 27 il ərzində məsələni sülh yolu ilə həll etməkdən imtinası da bu arxayınlıqdan irəli gəlirdi. Ancaq bu arxayınlaşma onlara baha başa gəldi.

**Mövzu üzrə fikirlərini öyrəndiyimiz Dövlət İdarəçilik Akademiyasının müşaviri, politoloq Zaur Məmmədov** da bu fikirdədir ki, Azərbaycan rəhbərliyinin apardığı balanslı, uzaqgörən siyasət, o cümlədən Rusiya ilə münasibətlərin üstün səviyyəyə qaldırılması Vətən müharibəsi günlərində obrazlı desək, ölkəmizə doğru əsə biləcək "Şimal küləyi"ni mülayim mehə çevirdi. Ermənistann tutduğu anti-Rusiya siyasi xətti, Kremldən üz çevirərək Qərbin timsalında "təhlükəsizlik yastığı" axtarışları isə onun strateji səhvi



idi: "Praqa sammitində Ermənistan rəhbərliyinin Azərbaycanın ərazi bütövlüyünü Alma-Ata bəyannaməsinə əsasən tanıması bu istiqamətdə müzakirələrə son nöqtəni qoydu. Rusiya rəhbərliyi də bunu əsas gətirərək bildirdi ki, daha hər şey bitib. İndi yaxşı olar ki, Ermənistan rəsmiləri, o cümlədən media resursları məsələni doğru-dürüst şərh etsinlər. Onlar təqsiri özlərində görməlidirlər".

Z.Məmmədov onu da bildirdi ki, V.Putinin Bakı səfəri və A.Lukaşenkonun Ermənistanla bağlı fikirləri ətrafında kampaniya aparılır. Ancaq onlar nəzərə almırlar ki, Rusiya və Azərbaycan müttəfiq dövlətlərdir. Lukaşenkonun fikirləri isə reallığı dolğun əks etdirir.

***Səxavət HƏMİD***
***XQ***

# Uşaq nədir, fişəng nədir?

## ABŞ, Fransa, yoxsa Rusiya: Hansının atom enerjisi "şirindir"?

**Rusiya ilə bütün sahələrdə yolları ayırmağa çalışan Ermənistanın mövcud istiqamətdəki fəaliyyəti davam edir. Məlumdur ki, İrəvanın Moskvadan kəskin enerji asılılğı var. Bəs hazırda tərəfləri bir-birinə qarşı qoymaq niyyəti güdən Qərb bu asılılığı aradan qaldırmaq naminə hansı tədbirlər görür və ya görürmü? Yazımız bu barədədir.**



Ümumən, Ermənistanın iqtisadi asılığı aradan qalxmayınca, baş nazir Nikol Paşinyan hakimiyyətinin Qərbə yaxınlaşmaq cəhdi fırtınalı okeanı qayıqla keçməyə oxşayacaq. Əlbəttə, Qərbdə də haqqında söz açdığımız reallığı anlayırlar. Anlayır və hərəkətə keçirlər. Bu hərəkət barədə söz açmazdan əvvəl isə Ermənistanın Rusiya ilə yollarını ayırmaq istəkləri ilə bağlı bir məqamı xatırladaq.

Məlum olduğu kimi, rəsmi İrəvan çoxdandır üzvü olduğu və Kremlin başlıca rol oynadığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına qarşıdır. Guya, qurum Ermənistanın təhlükəsizliyini təmin edə bilmirmiş. Sən demə, Azərbaycan Ermənistan ərazilərinə təcavüz gerçəkləşdiribmiş və KTMT buna reaksiya vermirmiş. Aydındır ki, belə deyimlər bəhanədən başqa bir şey deyil. Ancaq sözügedən bəhanəni əlində bayraq edən erməni iqtidarı bəzən açıq formada KTMT-dən çıxacağını da bildirmək cəsarətində olur. Buna qarşı Rusiya rəsmilərinin də açıqlamaları var.

Əlbəttə, Rusiya tərəfi diplomatikdir. Ölkə hakimiyyətinin təmsilçiləri üstüörtülü fikirlərlə, subliminal mesajlarla kifayətlənirlər. Hər bir halda Ermənistanın Rusiyadan iqtisadi asılılığı amilini qabartdıqları diqqətdən yayınmır. Dolayısı ilə mesaj verirlər ki, Hayastanın hazırkı iqtisadi inkişaf tempi Rusiya hesabınadır. Yəni, bu o deməkdir ki, əgər Ermənistan KTMT-dən ayrılsa, digər iqtisadi imtiyazlarından da məhrum duruma düşəcək. Görünür, elə bu səbəbdən də rəsmi İrəvan qərar verməyə tələsmir.

İqtisadi imtiyazlardan söz düşmüşkən, Ermənistan hakimiyyəti həm də ona görə KTMT ilə əlaqədar qəti qərar vermir ki, Rusiyadan iqtisadi asılılığın digər xətti də var. Söhbət Avrasiya İqtisadi İttifaqından gedir. Heç şübhəsiz, KTMT-dən ayrılan Ermənistanı Aİİ-də də görmək istəyən tapılmayacaq.

Ancaq baş nazir Nikol Paşinyan həyasızlıq edir. O, hazırda rotasiya qaydasında Aİİ-nin sədridir. Nikol sədrlik səlahiyyətlərinin icrasına başlar-başlamaz bildirmişdi ki, qurumu siyasətə qatmaq yolverilməzdir. Onun fikri təxminən belə idi: Siyasi sferada istədiyimizi reallaşdıracağıq, amma iqtisadi planda bizə qarşı heç nə edilməsin. Əlbəttə, Paşinyanın təsvir etdiyi kimi, dünya yoxdur. Varsa da, yalnız onun yuxusudur. Bəs nəyə görə Ermənistanın Aİİ və KTMT müstəvisindəki fəaliyyətindən söz açdıq? Buna izah verəcəyik. Hələlik isə keçək mətləbə.

Qeyd edək ki, uzun müddətdir Ermənistan rəsmiləri, guya, nüvə enerjisi sahəsində rəqabət aparan təklifləri qiymətləndirdiklərini iddia edirdilər. Baxmayaraq ki, böyük ölçüdə yalnız Rusiya və Çin bu istiqamətdə rəqabət apara bilər. Onlar dünyada kiçik və modul tipli atom elektrik stansiyalarının dizaynını real həyata keçirmək qabiliyyət və potensialına malikdirlər. Ancaq rəsmi İrəvan fərqli yol seçdi və bu, haradasa gözlənilən idi.

Əlqərəz, ABŞ Ermənistanda yeni atom elektrik stansiyası tikəcək. Dövlət Departamenti bir neçə gün əvvəl bu sirri açıqlamalı oldu. Sən demə, Ermənistan "123-cü saziş"ə – ABŞ Atom Enerjisi Agentliyinin aktının 123-cü maddəsinə qoşulmaq üçün ərizə təqdim edibmiş. Özü də iki il əvvəl. Bildirilir ki, rəsmi İrəvan bu sayaq ilk baxışdan qondarma mahiyyətə malik sazişə qoşulduqdan sonra amerikalılar mülki nüvə texnologiyalarını Ermənistana ötürə biləcəklər.

Əslində, bəzi siyasi ekspertlər yeni atom elektrik stansiyasının mövcud "Metsamor"un əvəzinə tikiləcəyini iddia edərkən yanılırlar. "Metsamor", bir qayda olaraq, "Rosatom" tərəfindən təkmilləşdirilir. Problem ondadır ki, orada yeni enerji blokunun tikintisi ətrafında münaqişə var. Tikinti ilə "Rosatom"un məşğul olacağı güman edilsə də, rusların sıxışdırıldığı barədə məlumatlar diqqət çəkməkdədir. Bildirilir ki, rəsmi İrəvan həmin işi Fransanın "Framatome" şirkətinə həvalə etmək istəyir.

Əlbəttə, atom enerjisi ilə bağlı məsələnin Ermənistana faydası barədə bir şey deyə bilmərik. Necə deyərlər, uşaq nədir, fişəng nədir? Ancaq burada rəsmi İrəvanın KTMT müstəvisindəki fəaliyyəti ilə oxşarlıq amilinə nəzər salmalıyıq. Hesab edirik ki, Rusiya ilə "enerji boşanması" Kremli kəskin sualla qarşı-qarşıya qoyacaq: Niyə dost olmayan ölkənin iqtisadiyyatını dəstəkləmək lazımdır? Deməli, indiki durumda KTMT-dən ayrılmaq yox, məhz bu amil ölkənin Rusiyadan asılı iqtisadi sisteminin çökməsi kimi qiymətləndirilə bilər. Hər halda atom elektrik stansiyası adi məsələ sayıla bilməz.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Baş prokuror Səbaildə qəbul keçirib



**Avqustun 23-də Baş prokuror Kamran Əliyev Səbail Rayon Prokurorluğunun inzibati binasında vətəndaşları qəbul edib.**

Baş Prokurorluğun mətbuat xidmətindən verilən məlumata görə, qəbul zamanı Bakı şəhərinin Səbail rayonu və digər ərazilərdən olan 49 vətəndaşın müraciətlərinə baxılıb. Konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra Kamran Əliyev prokurorluq əməkdaşlarına konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb, eləcə də prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair təklifləri dinləyib.

***XQ***

# Azərbaycan–Qazaxıstan hərbi təlimləri

**Avqustun 20-dən 23-dək Qazaxıstanın Almatı vilayətinin Jetısu rayonundakı Koktal poliqonunda keçirilən "Altın kıran - 2024" ("Qızıl qartal-2024") Azərbaycan–Qazaxıstan taktiki-xüsusi təlimləri başa çatıb.**



Qazaxıstan MN-nin yaydığı məlumata görə, bu ölkənin Hava Desant-Hücum Qoşunlarının və Azərbaycan Ordusunun taktiki-xüsusi təlimləri ilk dəfə baş tutub.

Məlumatda qeyd edilir ki, təlimlərdə 50-dən artıq Azərbaycan, 250-dən çox Qazaxıstan hərbçisi iştirak edib. Təlimlər zamanı dağlıq ərazilərdə kəşfiyyat əməliyyatlarının aparılması, qeyri-qanuni hərbi birləşmələrin aşkar edilməsi həyata keçirilib. Azərbaycan ordusunun hərbçiləri Vətən müharibəsində və başqa uğurlu əməliyyatlarda qazandıqları təcrübəni qazaxıstanlı hərbçilərlə bölüşüblər.

**Qulu KƏNGƏRLİ,**
**XQ-nin xüsusi müxbiri**
**Almatı**

# Daşkənddən müttəfiqlik mesajları

## Yeni müqavilə Azərbaycan ilə Özbəkistan arasında ən yüksək əməkdaşlığın təcəssümüdür

**XXI əsrin Türk əsri olacağının bütün əlamətləri göz önündədir. Bunun ən bariz nümunəsi Mərkəzi Asiya respublikalarının sürətli tərəqqisidir. Bir çox analitik və ekspertlərin iqtisadi inkişaf tempinə görə "Mərkəzi Asiyanın möcüzəsi" adlandırdıqları Özbəkistan öz inkişafının əsl intibah dövrünü yaşamaqdadır, – desək, səhvə yol vermərik.**



Bu gün Özbəkistan və Azərbaycan arasındakı münasibətlərin heç vaxt olmadığı səviyyəyə qalxdığını da əminliklə söyləyə bilərik. Xüsusilə, Qarabağı işğaldan azad etdiyimizdən sonrakı dörd il ərzində iki ölkənin dövlət və hökumət nümayəndələri arasında əməkdaşlığın bütün sahələrini əhatə edən qarşılıqlı səfərlərin sayı onlarcadır. Dövlət başçılarının – Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin səmimi dostluq və qardaşlıq atmosferində keçən rəsmi görüşləri də intensiv xarakter daşıyır. Bu da səbəbsiz deyil. İki qardaş ölkəni və xalqları birləşdirən ortaq dəyərlər var.

Dünən Daşkənddə Prezident İlham Əliyev və Prezident Şavkat Mirziyoyev "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə" imzaladılar. Bu müqavilənin imzalanmasını tarixi məqam saydığını deyən Prezident İlham Əliyev onu iki ölkənin imzalaya biləcəyi ali səviyyəli beynəlxalq sənəd kimi dəyərləndirdi. Bununla Azərbaycan–Özbəkistan münasibətlərinin yeni fəslinin deyil, yeni kitabının yazıldığını bəyan edən Prezident İlham Əliyev bu gün iki qardaş xalqın, iki müstəqil, suveren, qüdrətli dövlətin həm də rəsmi müttəfiqə çevrilmələrini məmnunluqla qeyd etdi: "Bu, çox mühüm xarici siyasət addımıdır və gələcək illərdə münasibətlərimizi, həmçinin bir çox hallarda, regional siyasəti müəyyən edəcək".

Çıxışında Azərbaycanla Özbəkistan arasında son illər genişlənən əməkdaşlıqdan söz açan dövlətimizn başçısı işğaldan azad edilimiş Füzuli rayonunda Özbəkistanın maliyyəsi ilə Mirzə Uluqbəy adına orta məktəbin inşasını qardaşlıq rəmzi, özbək xalqının töhfəsi kimi yüksək qiymətləndirdi. Bu məktəbdə 500-ə yaxın şagirdin təhsil alacağını nəzərə çatdıran Azərbaycan Prezidenti iki ölkə arasında imzalanan yeni sənədlərin əməkdaşlığın daha geniş üfüqlərini müəyyənləşdirdiyini söylədi.

### Bir-birimizin uğurlarına sevinirik

Mətbuat üçün açıqlamasında Prezident İlham Əliyev bu gün Özbəkistanın təkcə bölgədə deyil, həm də dünya miqyasında yüksək siyasi nüfuza malik ölkəyə çevrildiyini və buna səmimi-qəlbdən sevindiyini vurğulayaraq, Şavkat Miromonoviçin müdrik siyasətinin son təzahürü kimi özbək idmançılarının Yay Olimpiadasında tarixi uğurunu diqqətə çatdırdı.

"Onlar çoxlu medal qazandılar, onlardan 8-i qızıldır. Həmçinin müsəlman ölkələri arasında birinci, dünyada 13-cü yeri tutdular. Bu, tarixi nailiyyətdir"– deyən İlham Əliyev bundan bütün Türk dünyasının sevindiyini və qürur duyduğunu xüsusi vurğuladı.

Həqiqətən də, Mərkəzi Asiyanın yüksək templə irəliyə doğru addımlayan respublikasına çevrilmiş Özbəkistan bütün sahələrdə, o cümlədən idmanda da rekord nailiyyətlərə imza atır. Bir həqiqəti də demək lazımdır ki, Özbəkistanın dünyada gündən-günə artan nüfuzu həm də onun üzvü olduğu Türk Dövlətləri Təşkilatının regionda və beynəlxalq arenada güclənməsini şərtləndirən amillərdəndir. Burada Azərbaycanın da oynadığı önəmli rolu unutmaq olmaz. Özbəkistan və Azərbaycan rəhbərlərinin imzalarını atdıqları müttəfiqlik münasibətləri haqqında müqaviləni sanbalına və miqyasına görə Azərbaycanla Türkiyə arasında imzalanmış Şuşa Bəyannaməsi ilə müqayisə edə bilərik.

### "Qarabağın dirçəldilməsində biz də iştirak edəcəyik"

"Özbəkistan Qarabağın yenidən qurulmasında iştirak etməyə hazırdır". Bu sözləri Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Prezidenti İlham Əliyevlə birgə mətbuata bəyanatında bildirib.

Özbəkistan Prezidenti bu mesajları ilə həm də bəzi incə məsələləri "dünya gücləri"nin nəzərinə çatdırdı: "Sizin səylərinizlə qədim Qarabağ torpağı inkişaf və tərəqqi diyarına çevrilir. Burada sosial infrastruktur, istehsal obyektləri fəal şəkildə qurulur, iş yerləri açılır, insanları dinc, xoşbəxt həyata qaytarmaq üçün hər şey edilir... Bütün bu insanlar illərdir geri qayıdacaqları günü gözləyiblər. Özbəkistan bu nəcib işdə Azərbaycana bundan sonra da dəstək verməyə hazırdır. Bu gün Qarabağda geniş miqyaslı yenidənqurma işləri aparılır, əgər özbək inşaatçılar üçün hansısa sahə və ya ərazi ayrılsa, biz bu işdə iştirak edəcəyik",

Xoş məramlı qardaşlıq jestinə müsbət yanaşdığını bildirən dövlətimizn başçısı bu sahədə də əməkdaşlığın gücləndirilməsinin hər iki tərəf üçün səmərəli olacağına inandığını söylədi. Yeri gəlmişkən, onu da qeyd edək ki, Özbəkistanın müttəfiqlik münasibətləri saxladığı ölkələrin sayı çox deyil. Prezident Şavkat Mirziyoyevin dediyi kimi, indiyədək heç bir ölkə ilə bu cür qısa müddətdə belə müqavilə imzalanmayıb. Özbəkistanın dövlət başçısı bu gün tarix yazdıqlarını və bu tarixin öz təcəssümünü Azərbaycan və Özbəkistan xalqlarının rifahında tapacağına əmin olduğunu bildirib.

### 2025-ci il – iqtisadi əməkdaşlıq ili

Azərbaycan liderinin Özbəkistana səfərini tarixi adlandıran Şavkat Mirziyoyev xüsusi məmnunluqla qeyd etdi ki, İlham Əliyevin Daşkəndə dövlət səfəri çoxəsrlik dostluq münasibətlərimizin inkişafı baxımından tarixi hadisədir: "Bu gün biz müttəfiqlik münasibətləri haqqında müqavilə imzaladıq. Bu sənəd dövlətlərarası qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsində yeni fəslin başlanğıcını simvolizə edir". Onun sözlərinə görə, bununla da iki ölkə arasında çoxplanlı tərəfdaşlığın hərtərəfli inkişaf etdirilməsi kursuna qəti sadiqlik təsdiqlənib. Özbəkistan Prezidenti çıxışında 2025-ci ili iqtisadi əməkdaşlıq ili elan etdiklərini və Azərbaycanla Özbəkistan arasında ticarət dövriyyəsinin həcmini iki dəfə artırmaq üçün əsasların olduğunu dedi. Ş.Mirziyoyev bu istiqamətdə də müsbət dinamikanın güclənəcəyinə əminliyini bildirdi. Dövlətimizin başçısı özbəkistanlı həmkarının sözünə qüvvət olaraq bunları dedi: "İkitərəfli gündəliyi və üçüncü ölkələrə investisiyalarla çıxışı artıracağıq. Qardaş ölkələr, müttəfiqlər kimi inamla, layiqincə, çiyin-çiyinə addımlayırıq və irəliləməyə davam edəcəyik".

### Yolumuz bir, hədəflərimiz eynidir

Bəli, bütün Türk dövlətləri inamla, çiyin-çiyinə addımlamalıdır. Yuxarıda qeyd etdiyimiz kimi, iki qardaş xalqı bir-birinə bağlayan, doğmalaşdıran dəyərlər mövcuddur. Özbəkistan və Azərbaycanın oxşar cəhətlərindən danışanda, qardaş və artıq müttəfiq ölkələrin çağdaş dövrün çağırışlarına cavab verən sivil və demokratik quruluşa malik, dünyaya açıq və inkişafa meyilli ölkələr olmalarını qeyd etməliyik.

Bu gün Mərkəzi Asiya, Cənubi Qafqaz, Xəzərətrafı ölkələr vahid geosiyasi regiona çevrilir. Cənubi Qafqazın intizarında olduğu müsbət proseslər Özbəkistan ilə Azərbaycan arasında səmərəli əməkdaşlıqdan da asılıdır. İnanırıq ki, möhkəm tellərə malik qardaşlıq ittifaqı bu missiyanın öhdəsindən uğurla gələcək. Elə yaxın tarixə nəzər salanda görürük ki, özbək xalqı və mədəniyyəti ilə Azərbaycan xalqını və mədəniyyətini birləşdirən cəhətlər, bir-birinə bağlayan tellər az deyil. Hələ Sovet dövründə Özbəkistan və Azərbaycanın elm, mədəniyyət, ədəbiyyat və incəsənət adamları arasında yaradıcılıq, dostluq, qardaşlıq əlaqələri geniş idi.

İndi iki müstəqil, suveren Türk dövləti böyük fərəh və doğmalıq hissi ilə bir-birinə qucaq açır, arxa-dayaq olur. Çünki biz bir yolun yolçularıyıq, hədəflərimiz də eynidir. Gözlərimiz önündə rəngarəng özbək ipəyinə bürünmüş müjdəli səhərlər canlanır. Sarsılmaz qardaşlıq birliyi və möhkəm müttəfiqlik üzərində inşa edəcəyimiz xoşbəxt gələcəyi təkcə oğuz türkləri – özbəklər və azərbaycanlılar deyil, Turan elləri, bütün Türk dünyası haqq edir.

*İmran BƏDİRXANLI*
*XQ*

---

(əvvəli 1-ci səhifədə)

BAXIŞ

# Borcu qaytarmaq

Baş nazir Nikol Paşinyan heç də elə-belədən demir ki, Ermənistan üçün sərhədləri müəyyənləşdirmək lazımdır. O, keçən il ölkəyə "doğum şəhadətnaməsi" almaqdan də danışırdı. Nikol çox yaxşı bilir ki, ölkəsinin sərhədi yoxdur. Deməli, faktiki olaraq, dövlətin özü də yoxdur.

Azərbaycan bir yana, Türkiyə və İran istiqamətində rus sərhədçiləri keşik çəkirlər. Belə dövlət olar? Əlbəttə ki, yox! Deməli, Paşinyan həqiqəti deyir. Maraqlıdır ki, Ermənistanda və xaricdə bu reallığı görməyib onu satqın və xain adlandıranlar, eramızdan əvvəlki dövrə baş vurub erməni miflərini ortaya atan ucuz populistlər var.

Digər tərəfdən, nəzərə alaq ki, Cənubi Qafqaza gəldikləri iki yüz ildə ermənilər ilk dəfədir itirirlər. Yəni, onlara məxsus olmaya-olmaya qazandıqlarını əldən verirlər. Söhbət Qarabağ itkisindən gedir. Paşinyan hələ hakimiyyətə gəlməzdən əvvəl bildirirdi ki, Qarabağ Ermənistanın çiynindən asılmış ağır yükdür və o yükü atıb rahatlaşmaq lazımdır. O, bu məsələdə haqlı idi. Ancaq müəyyən qədər.

Nikolun əvvəlki düşüncəsinə görə, Qarabağ Rusiyanın ermənilər üçün qondardığı problem idi. Əgər ərazi olmasa, ölkə rahatlaşacaq. Amma Ermənistan dörd ildir ki, nəinki narahatdır, eyni zamanda, yeni bəlalar qarşısındadır. Axı Qarabağla iş bitmir. Bugünkü Rusiyanın sələfi olan keçmiş SSRİ deyildimi Ermənistana Zəngəzuru peşkəş edən? Görəsən, 1918-ci ildə Ermənistan dövləti necə yaranmışdı? Sual ritorikdir. O zaman qədim türk yurdu olan İrəvan paytaxt olmaqla, Ermənistan dövlətinin yaranmasına qol qoyanlar olmuşdu. Elə ruslar da, həmçinin.

Amma görünür, ruslar ermənilərə torpağı necə verməyin lazım olduğunu bilirlərmiş. Yəqin, xislətlərinə bələd imişlər. Ona görə də ərazilərimizin Ermənistana sonrakı bəxşiş prosesi təxminən belə oldu: Verdik, gedin götürün. Yalandan bir sənəd də yazıblar, kiməsə tez-bazar imza atdırıblar, vəssalam! Qarabağı da həmin qaydada Ermənistan torpağı etmək cəhdləri yaşanıb. Ulu öndər Heydər Əliyev belə mənfur niyyətlərin qarşısına sədd çəkib.

Nə qədər ki, Heydər Əliyev hakimiyyət olimpində idi, sanki qurbağa gölünə daş atılmışdı. Ulu öndər tutduğu yüksək vəzifədən uzaqlaşdırıldıqdan sonra ermənilər vaxt itirmədən hərəkətə keçdilər. Yenə SSRİ-nin ali rəhbərliyində təmsil olunanlar onların fitnə-fəsadlarına göz yumdular, Qarabağa sahiblənmələri üçün şərait yaratdılar. Daha sonra torpaqlarımızın işğalı yaşandı. Nəhayət, otuz ilə yaxın müddətdə gözlədilər ki, Qarabağı unudaq. Özlərini Zəngəzur, Göyçə itkisi ilə barışanların bununla da barışacaqlarına inandırdılar. Əlbəttə, yanıldılar.



Belə bir suala cavab verək: İndi nəyə görə Cənubi Qafqaz qarışır? Cavab aydındır: Sırf erməni məsələsi səbəbindən. Hazırda bu məsələ Qərblə Rusiya arasında ziddiyyət predmetidir. 2018-ci ildə Qərb Rusiyaya əbədi borcu olan Ermənistanı onun əlindən alıb. Əlbəttə, birincinin öz oyunu və haqqı var. Qərbdə düşünürlər ki, erməni məsələsinin onlara dəxli çoxdur. Nə olsun ki, Rusiya erməniləri himayə edib? Axı, Qərbə də yaşadığımız coğrafiyada erməni dövləti lazım olub. Türk dünyasını parçalamaqla bağlı hər iki qütbün planları üst-üstə düşüb.

Bəli, Qərbdə hesab ediblər ki, erməni məsələsi onlarındır. Amma belə düşüncə də olub: Bir halda ki, rusların erməni həssasiyyəti var, qoy, onlar Ermənistanı bəsləsinlər. Diqqət yetirək, ruspərəst Koçaryan–Sarkisyan tandemi də Qərblə yaxşı əlaqələrə malik idi. O zaman heç deyilmirdi ki, onlar Rusiyanın avtoritar üsul idarəsinin canişinləridir. Avropada və ABŞ-də Koçaryana da, Sarkisyana da qucaq açılıb. Ancaq sonra vəziyyət dəyişdi – erməni inqilabı baş verdi. Nəticədə dediyimiz kimi, 2018-ci ildə Ermənistanla bağlı Qərb–Rusiya ziddiyyəti yarandı. Əslində, bu ziddiyyətin kökü bir qədər dərindir və bu, Qarabağ məsələsinə də təsir göstərmişdi.

Baxın, 1991-ci ildə SSRİ dağıldı. Ermənistan müstəqil dövlətə çevrilərək Azərbaycan torpaqlarına qənim kəsildi və istəyini əldə etdi. Amma beynəlxalq birlik, böyük ölçüdə, Qarabağın Ermənistan olmasına rəsmi qaydada razılıq vermədi. Niyə? Çünki Qərb müstəqil Ermənistanın Rusiyanın peykinə çevrildiyini gördü. Beynəlxalq birlik birincinin məhz bu ampluada Qarabağa sahiblənməsini istəmədi. Azərbaycan dövləti isə belə ziddiyyətli məqamlardan yararlanaraq öz siyasətini qurdu. Bir çoxları düşündü ki, ölkəmiz və xalqımız Qarabağ itkisi ilə barışacaq. Amma zaman göstərdi ki, gözləmək və səbr etmək siyasətin tərkib hissəsi idi. Nəhayət, vaxt yetişdi.

Sual olunur: Nəyə görə Nikol Paşinyan "Qarabağ Ermənistandır və nöqtə!" bəyanatını səsləndirmişdi? Necə ola bilərdi ki, hakimiyyətə gəlməzdən əvvəl Qarabağın Ermənistanın üzərindən asılmış daş olduğunu söyləyən adam sonradan belə bir sərsəm fikir bildirsin? Hər halda, ilk baxışdan düşünülür ki, Nikol "ağır daşı" müharibə edərək atmaq istəməzdi.

Paşinyan Qarabağ mövzusunda Qərbdəki ağaları ilə məsləhətləşməli idi. Ona görə Azərbaycandan işləri qaydasına qoymaq adı ilə vaxt istədi. Elə təəssürat yaratdı ki, danışıqlarda konstruktiv mövqe tutacaq. Qərb öz növbəsində Nikola Qarabağ məsələsinin mahiyyətini anlatdı. Elə erməni missiyasını da. Hansı yolla olursa-olsun Rusiyadan uzaqlaşmaq xəttinə köklənmiş, mövcud istiqamətdə qəti təlimatlar almış baş nazir isə tipik erməni xislətini işə saldı. Daha pis erməni olmaqda da liderliyə can atdı. Yəni, düşüncəsi belə oldu: Koçaryan və Sarkisyan bacarmayıb, mən bacaracam. Demokratiya bütün qapıları üzümüzə açacaq.

Nikol ardınca haqqında söz açdığımız sərsəm bəyanatı səsləndirdi. Nəinki səsləndirdi, eyni zamanda, Azərbaycan xalqının heysiyyatı ilə oynadı – Şuşada, Cıdır düzündə şərab içib sərxoş olaraq yerdə eşələndi. Belə elədi, çünki Qərbdəki ağalarının Azərbaycandan alınmış Qarabağın Ermənistanda qalmasına kömək edəcəklərinə əmin idi. Hesab edirdi ki, İrəvanın, Zəngəzurun ardınca Qarabağ da Ermənistanın olacaq. Beləliklə, Rusiyadan ayrılma qazanc gətirəcək. Paşinyan hakimiyyəti və onun xaricdəki havadarları Azərbaycanın gücünü hesaba almadılar...

Bəli, borc məsələsi. 44 günlük müharibə başlananda və Azərbaycan Ordusu əks-hücuma keçəndə, Qərb mediası bunu əbəs yerə işğalçılıq kimi dəyərləndirməmişdi. Öz ağılları ilə düşünürdülər ki, adamları olan Paşinyana Rusiyaya borcu qaytarmamaqda kömək göstərirlər. Habelə, Qarabağ məsələsini Kremlin kurasiyasından almaq xəttini müdafiə edirdilər. Həmin media üçün beynəlxalq hüquq, ərazi bütövlüyü, suverenlik kimi məsələlər yerin dibində idi. Yeri gəlmişkən, Rusiya mediası da eyni cür davrandı. Ruslar hesab etdilər ki, öz varlıqlarını göstərməklə, Ermənistanın Kremlin orbitinə qayıtmasına şərait yaradacaqlar. Xeyri olmadı. İndi yaşananlar təsdiqləyir ki, Rusiyanın 44 günlük müharibəyə son qoyan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatdakı rolunun, Ermənistanı Azərbaycanın əlində parçalanmaqdan xilasının da rəsmi İrəvana dərs mahiyyəti istisnadır.

Qərbdə Qarabağı Ermənistanın Rusiyayönümlü kursunun dəyişməsinin mükafatı qismində görürdülər. Eyni zamanda, bu qənaətdə idilər ki, Rusiya da hər bir halda Ermənistanı müdafiə yolu tutacaq və yanılmadılar. Böyük ölçüdə götürsək, yanıldıqları ölkəmizi hesabdan silmək oldu. Nəticədə hərə öz oyununu oynadı. Qalib Azərbaycan oldu.

Rəsmi Bakı özünün yüksək səriştəyə malik siyasi xətti ilə bu gün də Qərb-Rusiya ziddiyyətinin qalib tərəfidir. Qalib tərəfidir ki, iki yüz illik erməni layihəsi sıradan çıxıb və çıxmaqdadır. Ona görə də bu gün Paşinyan sərhəd dirəklərinin maketi ilə oynayır. Çalışır ki, vəlvələdən və ya zəlzələdən yaranmış Ermənistan adlı dövlət mövcudiyyətini Rusiyaya borcunu qaytarmadan sürsün.

Ancaq əvvəldə vurğuladığımız məqama qayıdaraq deyək ki, erməni düşüncə tərzi çox kasaddır. Bu kasad təfəkkür sahibləri XXI əsrdə yaşadıqlarının fərqində deyillər. Anlamırlar ki, "rus pisdir, avropalılar və amerikalılar yaxşıdır" təfəkkürü ilə yaşamaq doğru deyil. Belə yaşayırsansa, borc xatırlatmaları ilə üzləşmək mütləqdir və indiki durumda Ermənistanın təhlükəsizliyinə ən böyük təhdid də, dövlətçiliyin mövcudluğu üçün risk də elə budur.

Bəli, oyunbazlıq edirsənsə, avantürist planlar qurursansa, bu planları həyata keçirənlərin yanında borclanırsan və nəticədə təkcə borc xatırlatmaları, minnətlər olmur, eyni zamanda, onu qaytarmaq tələbləri də meydana çıxır. Axı borc borcdur. Heç kəs ermənilərin qara qaşlarına, qara gözlərinə aşiq deyil. Nəzərə alaq ki, hazırkı Ermənistan dövləti Paşinyan iqtidarının üz döndərdiyi Rusiyanın da layihəsidir. Görünür, Moskvaya olan borcu qaytarmağın yeganə yolu həmin dövlətin yox olmasıdır.

*Əvəz CAHANGİROĞLU*
*XQ*

# Heydər Əliyev Fondunun Gəncə nümunəsi

**Bizim ən böyük sərvətimiz bizim mədəni irsimizdir. Bizim ədəbiyyatımız, poeziyamız, musiqimiz, təkrarsız, nadir xalçaçılıq məktəbimiz, təsviri sənətimiz memarlıq abidələrimizdir. Bu mədəni irs bizi millət kimi qoruyub saxlayır. Bu gün bu mədəniyyəti qorumaq, saxlamaq, təbliğ etmək hər birimizin mənəvi borcudur.**

**Mehriban ƏLİYEVA**
**Azərbaycan Respublikasının**
**Birinci vitse-prezidenti**



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva haqqında yazmaq və fikir söyləmək böyük məsuliyyət tələb edir. Bu gün ölkənin ictimai həyatında adı bütün sahələrə nüfuz etmiş birinci xanım barəsində, ölkə daxilində və xaricində onun geniş fəaliyyətini əks etdirən çoxsaylı kitablar və məqalələr nəşr olunub. Mehriban Əliyevanın milli-mənəvi dəyərlərin qorunması istiqamətində ölkəmizin hər yerində, o cümlədən Gəncədə həyata keçirdiyi genişmiqyaslı layihələri, Birinci xanımın fəlsəfi fikirlərini və onun gələcək dəyərlərini başa düşmək üçün daha ətraflı məlumatların verilməsi vacibdir.

Bir insan ömrü dahi şəxsiyyətlərin həyata keçirmək istədiyi xeyirxah işlərin başa çatdırılmasına bəs etmir, nə qədər




çalışsan da vaxtın azlığı qalib gəlir. Bu baxımdan yaradılan Heydər Əliyev Fondu bu dahi şəxsiyyətin həyata keçirmək istədiyi layihələri realizə etmək məqsədi ilə yaradılmışdı.

Fonda rəhbərlik edən Mehriban xanımın 20 il ərzində həyata keçirdiyi layihələr dahi rəhbərin tövsiyələrinin bir qismini yerinə yetirmək, xalqının milli-mənəvi dəyərlərinin araşdırılması, dünya mədəniyyətində əvəzsiz yerini, millətinin onurğa sütunu olan elm və təhsilin inkişaf etdirilməsi, torpağını, suyunu, havasını qorumaq naminə gördüyü işlər hər birimizə məlumdur və bunların izahlı formada təhlil edilməsi biz alimlərin borcudur.

Milli-mənəvi dəyərlərin tədqiq edilməsi hər bir xalqın mədəniyyətinin inkişafında, onun milli şüurunun formalaşmasında mühüm rol oynayır. Tarixən xalqın milli-mənəvi irsini, mədəni dəyərlərini qoruyub saxlamaq və gələcək nəsillərə ötürmək görkəmli şəxsiyyətlərin adı ilə bağlı olmuşdur.

Heydər Əliyev ikinci dəfə hakimiyyətə gələrkən dövlət dilinin elmi əsaslarla tədqiq edilməsini Elmlər Akademiyasında çıxış edərkən dilçi alimlərə ünvanladı və bir il möhlət verərək, bu haqda fikirlərini bildirdi: “Xalqın, millətin ana dili olmazsa, onun haqqı yoxdur ki, Vətən, nə də dövlət haqqında qərarlar və müzakirələr həyata keçirsin”.

Mehriban xanım fonda rəhbərlik etdiyi dövrdə Azərbaycan dilinin müqayisəli tədqiqi və tarixi köklərinin araşdırılması sahəsində böyük layihələr həyata keçirmişdir.

Müasir dövlətimizin Azərbaycan dilimiz kimi möhkəm mənəvi əsaslar üzərində qurulduğunu söyləyən Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətinə nəzər salsaq, onun bu dəyərlərin qorunub saxlanılmasına göstərdiyi böyük diqqət və qayğının şahidi olarıq.

Mehriban xanım əsrlər boyu xalqımızın milli varlığının və özünəməxsusluğunun ifadəsi kimi formalaşmış zəngin mənəvi irsini, milli düşüncə və dəyərlər sistemini, intellektual mülkiyyətini yad təsirlərdən qorumaq, zəngin mədəniyyətini başər miqyasında təbliğ etmək kimi çətin və şərəfli vəzifənin öhdəsindən layiqincə gəlir. Onun təşəbbüsü və dəstəyi sayəsində Azərbaycanın bir çox qədim tarixi, dini və mədəni abidələrin qorunması və bərpa edilməsi sahəsində mühüm işlər həyata keçirilmişdir.

Milli-mənəvi dəyərlərimizin xaricdə, eləcə də ölkəmizdə mütəmadi təbliğ olunması onun dünyaya bəyan etdiyi yüksək tolerantlıq mədəniyyətinin nümunəsidir. Onun fəaliyyəti nəticəsində milli-mədəni incilərimiz muğam, kələğayı, aşıq musiqisi və s. bir-birinin ardınca bəşəriyyətin qeyri-maddi mədəni irsi siyahısına salınır.

Qədim tarixə malik xalqımızın milli-mənəvi dəyərlərinin mənimsənilməsi və özününküləşdirilməsi ermənilər tərəfindən uzun illərdi ki, həyata keçirilir. Fondun ən önəmli fəaliyyətindən biri də ermənilərin bu niyyətlərinin ifşa olunması və digər mühüm layihələrdir.

Azərbaycanın birinci xanımı Gəncə və gəncəlilərdən də qayğısını əsirgəməyib. Fondun təşəbbüsü ilə şəhərimizdə milli-mənəvi dəyərlərin qorunması sahəsində böyük layihələr həyata keçirilib, qədim məscidlərimizin bərpası, yeni məscid komplekslərinin inşası bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

Gəncə abidələri xalqımızın uzaq və qaranlıq keçmişinin öyrənilməsində müstəsna əhəmiyyətə malikdir. Heydər Əliyev Fondu Gəncə şəhərində yerləşən tarixi mədəniyyət abidələrinin bərpasına xüsusi önəm verir. Şəhərimizdəki Cavad xan və Comərd qəssab türbələri, Gəncə memarlığının incilərindən hesab edilən Şah Abbas məscidinin təmir olunması fondun həyata keçirdiyi xeyirxah layihələrdəndir.







1804-cü ildə Gəncə qalasını tutmaq istəyən rus işğalçı qoşunları ilə son nəfəslərinədək qəhrəmancasına vuruşan Cavad xan oğlu Hüseynqulu xan ilə birgə şəhidlik zirvəsinə yüksəlirlər. Döyüşdən sonra Cavad xan və oğlu Cümə məscidinin həyətində yerləşən Xan qəbiristanlığında dəfn edilirlər. Sovet hakimiyyətinin sonrakı illərində Cavad xanın məzarını itirmək məqsədilə qəbiristanlıq ərazisində müxtəlif təyinatlı tikililər inşa edilir. 1962-ci ildə aparılan qazıntılar zamanı təsadüfən Cavad xanın baş daşı və məzar yeri tapılır. Xanın nəşi Səbzikar qəbiristanlığına aparılaraq, orada qorunub saxlanılır, 1990-cı ildə Cavad xanın nəşinin qalıqları Gəncə əhalisinin tələbi əsasında öz əvvəlki yerində dəfn edilir və üzərində qranitdən abidə qoyulur.

Prezident İlham Əliyevin sərəncamı əsasında, 2005-ci ildə Heydər Əliyev Fondunun dəstəyi ilə Gəncə memarlıq üslubuna uyğun olaraq xanın qəbri üzərində türbə ucaldılır. Əsrlər boyu Cavad xan haqqında məlumatlar təhrif olunmuşdur. Mehriban xanımın xalqına olan qayğısının nəticəsidir ki, Cavad xan tarixdə layiq olduğu yeri almış və şəhərimizə gələn qonaqlar ilk növbədə xanın türbəsini ziyarət edirlər. Bütün buna görə gəncəlilər Mehriban xanıma daim minnətdarlıq hissi bəsləyirlər.

Nizami yurdu qədim Gəncə tarixi abidələrlə öz qədimiliyini və möhtəşəmliyini əsrlərdir ki, qoruyub saxlamaqdadır. Tarixə şahid olan bu abidələr sırasında yan-yana yerləşən, qədim Gəncə memarlığı üslubunda Şərqin böyük memarı və riyaziyyatçısı olan Şeyx Bahəddinin layihəsi ilə inşa olunmuş Şah Abbas və Uğurlu xan karvansaralarının xüsusi yeri var.

Şərqin əsas ticarət yolu (İpək yolu) üstündə yerləşən Gəncə öz karvansaraları ilə səyyah və tacirləri hər zaman heyran qoyub. Tarixçilər də onu qibtə hissi ilə xatırlayıblar. Bu baxımdan Gəncənin maddi-mədəni abidələri içərisində Şah Abbas karvansarayı hər zaman gözəlliyi ilə seçilib.

Şah Abbas karvansarayı XVII-XVIII əsrlərdə Gəncədə ən nüfuzlu karvansaray hesab edilib. Bişmiş qırmızı kərpicdən yaradılan karvansaraydan Çökək hamama və Şah Abbas məscidinə yeraltı yol olub.

Şah Abbas karvansarayı bazara yaxın ərazidə inşa edildiyindən tacirlərin gətirdiyi malları bazarlara daşınmasını asanlaşdırırdı.

Memarlıq quruluşuna görə diqqətçəkən daha bir məkan yaxınlıqdakı Çökək hamamdır. Hamamın əsas təyinatı məscidə namaz qılmağa gələn müsəlmanların dəstəmaz almaqları üçün şərait yaratmaq olub.

Şah Abbasın əmri ilə tikildiyi üçün el arasında ona Şah Abbas hamamı da deyirlər. Çökək hamam adlandırılması isə onun çökəkdə yerləşməsindən irəli gəlir. Belə ki, suyun təzyiqini təmin etmək üçün hamam çökəkdə inşa edilib. Şəhərə gələn qonaqlar, dindarlar bu hamamdan yararlanıblar.

2002-ci ildən “Çökək hamam” beynəlxalq əhəmiyyətli mədəniyyət abidəsi statusu alıb və Mehriban xanım Əliyevanın təşəbbüsü ilə UNESCO tərəfindən mühafizə olunur.

2013-cü ildə Heydər Əliyev Fondunun dəstəyi ilə abidə təmir olunub. Yenidənbərpa zamanı tarixi orijinallığı saxlanılmış, əvvəlki tikinti materiallarının oxşarından istifadə edilmişdir.

Şah Abbas karvansarayının yaxınlığında Uğurlu xan karvansarayı yerləşir. Mənbələrdə deyilir ki, Gəncə bəylərbəyi Murtuza Qulu xan Ziyad oğlunun qardaşı oğlu Uğurlu xanın vəsaiti ilə memar Şeyx Bahəddin Məhəmməd Amilinin planı üzrə nisbətən kiçik həcmli karvansaray tikilmiş və xan nəslinə məxsus olmuşdur.

Uğurlu xan bir siyasi xadim və sərkərdə olmaqla yanaşı, istedadlı şair və Divan sahibi kimi də şöhrət qazanmışdır. Şeirlərinin əksəriyyəti fars dilindədir. Müsahib Gəncəvinin Azərbaycan türkcəsində yazdığı cəmi iki qəzəli bu günümüzə gəlib çatmışdır. Hazırda dünyada ona məxsus Divanın üç nüsxəsi mövcuddur.

Prezident İlham Əliyevin müvafiq göstərişlərinə əsasən, Şah Abbas və Uğurlu xan karvansarayları əsaslı şəkildə əvvəlki görkəminə uyğun və müasir infrastrukturla təmin edilməklə yenidən bərpa olunub, ətraf ərazi abadlaşdırılıb.

Tarixi mənbələr göstərir ki, çoxəsrlik tarixə, ulu ənənələrə və zəngin bədii təsvir vasitələrinə malik olan Azərbaycan memarlığının özünəməxsus səciyyəvi xüsusiyyətlərini özündə əks etdirən bu karvansaray ən nüfuzlu qonaqların qəbulu üçün nəzərdə tutulub. Gəncə şəhərinin tarixi karvansaraylarının bərpasından sonra bu məkanlar yenə qonaqpərvərlik irsimizin təbliğində, turizm məqsədləri üçün istifadədə mühüm rol oynayır.

Gəncənin ən qədim abidələrindən olan VIII-IX əsrlərə (bəzi mənbələrdə VII əsrin 30-40-cı illərinə) aid edilən Comərd qəssab türbəsi özünəməxsus memarlıq üslubu ilə fərqlənən abidələrdəndir.

Gəncə sakinlərinin yaddaşında əfsanə şəklində qorunub saxlanan Comərd qəssab barədə müxtəlif məlumatlar mövcuddur. Comərd haqqında çoxlu sayda əfsanə və rəvayətlər bu gün də Gəncənin yerli sakinləri arasında dolaşmaqdadır və hörmət əlaməti olaraq müsəlmanlar onun qəbri üzərində səkkizguşəli türbə də ucaltmışlar.

Hazırda Comərd qəssabın məzarı Gəncə çayının sağ sahilində, İmamzadə kompleksinin cənub istiqamətindən 1500 metr aralıda yerləşir. Baxımsız vəziyyətdə qalan türbədə tikinti işləri 2004-cü ildə Heydər Əliyev Fondu tərəfindən həyata keçirilib. Comərd qəssabın qəbri üzərində əvvəlki türbənin bənzəri olaraq qırmızı bişmiş kərpicdən 8 tağlı, üzəri günbəzlə tamamlanan məqbərə inşa edilərək şəhər sakinlərinin ixtiyarına verilib. Bu gün Comərd qəssab türbəsi yerli əhali tərəfindən mübarək məkan kimi ziyarət olunur.

Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Gəncə şəhərində yerləşən Həzrəti-Zeynəb məscidi də əsaslı şəkildə yenidən təmir və bərpa olunaraq istifadəyə verilmişdir. Azərbaycan Prezidenti və birinci xanım 2006-cı ildə Gəncəyə səfərləri çərçivəsində Həzrəti Zeynəb məscidini ziyarət etmişlər.

**(ardı var)**

***Fud ƏLİYEV,***
***akademik,***
***Sna ƏZİZOVA,***
***kimya üzrə fəlsəfə doktoru***



# Milli Məclisə seçkilərə 7 gün qaldı

SEÇKİYƏ GƏL, SƏS VER, SEÇİLMİŞLƏRDƏN OL!



# Məntəqələr seçkilərə hazırdır

## 17 saylı Yasamal 3-cü seçki dairəsində 41 mindən çox seçici var

**Paytaxtın Yasamal rayonu üzrə 17 saylı üçüncü seçki dairəsində seçkilərə hazırlıq yekunlaşıb.**



Bunu "Seçki 2024" Müstəqil Media Mərkəzinə açıqlamasında 17 saylı Yasamal üçüncü DSK-nın sədri Qədir Kərimov deyib. Özündə 40 seçki məntəqəsini və 41 min 167 nəfər seçicini birləşdirən DSK sədri bildirib ki, məntəqə seçki komissiyalarının üzvləri MSK tərəfindən təşkil olunan maarifləndirici treninqlərdə iştirak ediblər: "Onların seçki prosesində rolları və vəzifələri, seçki günü prosedurları və müstəsna hallarda davranış qaydaları, səslərin hesablanmasına hazırlıq, seçki bülletenlərinin təsnifatı, səslərin hesablanması və yekun protokolun doldurulması mövzuları izah olunub".




Q.Kərimovun sözlərinə görə, DSK-ya müraciət edən 15 nəfərdən doqquzunun namizədliyi qeydə alınıb. Beynəlxalq müşahidələrlə DSK-da görüşlərin keçirildiyini diqqətə çatdıqan sədr bütün seçki məntəqələrində seçkilərə hazırlıq işlərinin qanunvericiliyin tələblərinə uyğun şəkildə aparıldığını söylədi: "Dairənin hüdudları daxilində məntəqələr texniki cəhətdən tam hazır vəziyyətə gətirilib və gözlənilməz hallar nəzərə alınaraq, elektrik generatorları da quraşdırılıb. Dəqiqləşdirilmiş son seçici siyahılarına görə, dairə üzrə yaşı 80 -100 arasında olan 1083 seçimiz var. İlk dəfə səsvermə hüququ qazanan gənclərin sayı isə 219 nəfərdir".

**XQ**

---

## *Güngör Yavuzaslan:*

# Azərbaycan xalqı Zəfəri demokratiya ilə taclandırır

**Bu fikirləri "Seçki 2024" Müstəqil Media Mərkəzinə açıqlamasında Türkdilli Ölkələrin Jurnalistlər Dərnəyinin sədri Güngör Yavuzaslan deyib.**



O bildirib ki, Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi etməklə əlaqədar seçkilərin tarixinin dəyişdirilməsi iradə nümayişidir. Azərbaycanın işğaldan azad olunmuş ərazilərində seçki məntəqələrinin qurulması isə ümumilikdə, regional proseslərə əlavə rəng qatır: "Bu seçkilərdə Qarabağdan da deputatlar seçiləcək. Doğma yurdlarına qayıtmış vətəndaşların səsvermədə iştirakı demokratiya və regional sülh üçün mühüm bir mərhələdir. Bununla Azərbaycan xalqı əldə etdiyi Zəfərini demokratiya ilə taclandırır".

Güngör Yavuzaslan Azərbaycanın bu siyasətini "Güclü Azərbaycan uğrunda yeni strategiya" kimi dəyərləndirib: "Azərbaycan son dövrdə iki seçki keçirərək, bölgədə Türkiyə ilə birlikdə sabitlik adasına çevrilir. Bu, Ermənistanla danışıqlar masasında Bakının mövqeyini gücləndirir, bölgədə sülh və təhlükəsizlik qapısını açır. Azərbaycanın sosial-iqtisadi müstəvidə güclənməsi, demokratiya yolu ilə irəliləməsi daxili və xarici siyasətdə tarazlıq yaradır".

**XQ**

---



## "Seçki könüllüləri" iş başındadır

**"Seçkilərdə könüllülər və gənclər təşkilatları ittifaqları 1500-dən çox müşahidəçi ilə təmsil olanacaq. Azərbaycan Könüllü Təşkilatları İttifaqı Mərkəzi Seçki Komissiyası ilə əməkdaşlıq çərçivəsində "Seçki könüllüləri" qrupunu yaradıb. Bu qrup vasitəsilə ilk dəfə səs verəcək gənc seçiciləri seçki hüquqları barədə məlumatlandırırıq".**

Bunu "Seçki 2024" Müstəqil Media Mərkəzinə açıqlamasında Azərbaycan Könüllü Təşkilatları İttifaqının sədri Yusif Vəliyev bildirib.

Təşkilat sədri qeyd edib ki, seçki könüllüləri Bakı şəhərinin müxtəlif ərazilərində, Naxçıvan Muxtar Respublikası, Gəncə, Mingəçevir və Sumqayıt şəhərlərində aktiv fəaliyyət göstərirlər.

**XQ**

# Seçki xəbərləri



### DSK-nın tərkibində dəyişiklik

**Bu barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası qərar qəbul edib.**

MSK-dan verilən məlumatda bildirilir ki, komissiya Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq qərar qəbul edib. Qərarda deyilir: "Gülnarə Rza qızı Mustafayeva 7 saylı Səbail seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsin".

### Tarixi və siyasi ədalətin bərpası



**"Milli Məclisə seçkilərin işğaldan azad olunmuş əraziləri də əhatə etməsi hər birimizdə xoş əhval yaradır. Beynəlxalq hüquqla tanınan ərazilərimizdə baş tutacaq bu seçkilər həm də tarixi və siyasi ədalətin bərpasıdır".**

Bu fikirləri "Seçki 2024" Müstəqil Media Mərkəzinə "Beynəlxalq Hüquq sahəsində Maarifləndirmə və Tədqiqatlar" İctimai Birliyi İdarə Heyətinin üzvü Heydər Rəhimli bildirib. O qeyd edib ki, biz özümüz beynəlxalq hüququ bərpa etdik və indi Laçında, Şuşada, Füzulidə, Xankəndidə və azad olunmuş digər ərazilərimizdə seçki məntəqələri yaradılıb.

### Rəqiblərimizə tutarlı cavab

**"Azərbaycanda keçiriləcək parlament seçkiləri çox önəmli hadisədir. Ölkəmizin ərazi bütövlüyü tam təmin olunduqdan sonra keçirilən ilk parlament seçkiləri, eyni zamanda, Vətənimizə qarşı qərəzli mövqe tutan qüvvələrə xalqımızın tutarlı cavabı olacaq".**




Bu fikirləri "Seçki 2024" Müstəqil Media Mərkəzinə açıqlamasında Yeni Zelandiyada fəaliyyət göstərən Azərbaycan diasporunun nümayəndəsi Qalib Mahmudov deyib.

**XQ**

## Sənətkarın vətəndaşlıq borcu



**Bu sözləri "Seçki 2024" Müstəqil Media Mərkəzinə açıqlamasında 95 yaşlı Xalq artisti Roza Cəlilova deyib.**

Onun fikrincə, peşəkar rəqqaslara, ümumiyyətlə, sənətkarlara qiymət verilməsi Azərbaycanın zəngin mədəni irsinin qorunub saxlanılması üçün vacibdir: "Əminəm ki, yeni seçiləcək deputatların iştirakı ilə xoreoqrafiya sahəsində yeni layihələr həyata keçiriləcək. Bu da ölkəmizin sosial və mədəni həyatının inkişafına böyük töhfə verəcək. 95 yaşımın olmasına baxmayaraq, parlament seçkilərində səsvermədə iştirak edib, layiqli namizədə səs verəcəyəm".

**Hazırladı: İ.HƏSƏNQALA**
**XQ**

---

# Strateji mühafizə əməkdaşlarının peşə bayramı

**Avqustun 23-də Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin əməkdaşları peşə bayramlarını qeyd ediblər.**

Agentliyin rəisi general-mayor İlqar Abbasov, kollegiya üzvləri və rəhbər heyəti peşə bayramı ilə əlaqədar Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ehtiramla ziyatət ediblər. Şəhidlər xiyabanında isə Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş oğul və qızlarımızın unudulmaz xatirəsi anılıb.

Dövlət Agentliyinin akt zalında keçirilən təntənəli toplantıda general-mayor İlqar Abbasov şəxsi heyəti peşə bayramı münasibətilə təbrik edərək, xüsusi dövlət mühafizə orqanlarının yaranma tarixi və zəruri bir qurum kimi öz inkişafını davam etdirməyindən söz açıb. Ulu öndər Heydər Əliyevin xüsusi dövlət mühafizə xidmətinin fəaliyyətinə verdiyi əvəzolunmaz töhfələrdən danışan Agentlik rəisi qeyd edib ki, Mühafizə Xidmətinin müasir tarixinin ən unudulmaz səhifələri Ümummilli liderin adı ilə bağlıdır.

1993-cü il avqustun 23-də Ali Dövlət Hakimiyyət və İdarəetmə Orqanlarını Baş Mühafizə İdarəsi yaradılıb, 2002-ci il mayın 6-da Baş Mühafizə İdarəsi Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti adlandırılıb. Ölkəmizdə həyata keçirilən irimiqyaslı enerji layihələrinin təhlükəsizliyinin təmin edilməsi zərurəti ilə əlaqədar 2003-cü il mayın 31-də Xüsusi Dövlət Mühafizə Xidmətinin nəzdində İxrac Neft və Qaz Boru Kəmərlərinin Təhlükəsizliyi İdarəsi yaradılıb.

Qeyd edilib ki, 31 illik dövr ərzində xüsusi dövlət mühafizə xidməti orqanlarının əməkdaşları üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetiriblər. Həmçinin Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə xüsusi dövlət mühafizə xidmətinin hərbi qulluqçuları şərəflə iştirak edib, qəhrəmanlıqlar göstəriblər. Ölkəmizdə ictimai-siyasi sabitliyin qorunması, baş verə biləcək terror-təxribat aktlarının qarşısının qətiyyətlə alınması kimi ən mühüm sahələrdə Xidmətin hərbi qulluqçularının daim nümunəvi fəaliyyəti və fədakarlığı diqqəti cəlb edib.

Xüsusi mühafizə sahəsində dövlət siyasətinin daha da təkmilləşdirilməsi məqsədilə Prezident İlham Əliyevin 2020-ci il 16 mart tarixli fərmanı ilə Xüsusi Dövlət Mühafizə Xidməti ləğv edilib və yeni 3 qurum yaradılıb. Həmin qurumlardan biri kimi Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi neft və qaz ixrac boru kəmərlərinin mühafizəsini, o cümlədən mühafizə olunan şəxslərin və əksər strateji obyektlərin təhlükəsizliyinin təmin edilməsi, mühafizə olunan şəxslər və obyektlərə qarşı yönələ biləcək təhlükələrin qarşısının alınması sahəsində qanunamüvafiq qaydada fəaliyyət göstərir. Beynəlxalq terrorizmin və sui-qəsdlərin geniş vüsət aldığı bir vaxtda mühafizə işinin təkmilləşdirilməsi, elm və texnikanın nailiyyətlərindən istifadə olunması, yüksək peşəkarlığa malik kadrların hazırlanması agentliyin qarşısında duran əsas vəzifələrdir.



Milli dövlətçiliyimizin qorunması işində mühüm yer tutan agentliyin hərbi qulluqçularının fədakar və nümunəvi fəaliyyəti Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən yüksək qiymətləndirilib. Keçən il yubiley medalının təsis edilməsi, hər il əməkdaşların dövlət mükafatları ilə təltif olunması dövlət tərəfindən göstərilən diqqət və qayğının bariz nümunəsidir. Həmin diqqət və qayğının davamı kimi Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 22 avqust tarixli sərəncamı ilə agentliyin 12 hərbi qulluqçusu dövlət təltifləri ilə mükafatlandırılıb, ali zabit heyəti vəzifəsinə yeni təyinat edilib.

Agentliyin rəisi çıxışının sonunda vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla həyata keçirilən islahatların və əldə olunan sabitliyin qorunub saxlanılmasının mühafizəsi sahəsində qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin şəxsi heyəti döyüş tapşırıqlarının icrasında daha fəal mövqe tutmalı, dövlətə və dövlətçilik ideyalarına daha sədaqətlə xidmət göstərməlidir.

Mərasimin sonunda agentliyin xidmətdə fərqlənən və öz vəzifələrini layiqincə yerinə yetirən hərbi qulluqçuları medal və digər mükafatlarla təltif ediliblər.

**XQ**

# Azərbaycanın xarici borcu 1,1 milyard dollar azalıb

## 2025-ci ilədək kənar kreditlərin ÜDM-in 15 faizinə endirilməsi nəzərdə tutulur

**“Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də uzunmüddətli dövrdə iqtisadiyyatın daxili və xarici təsirlərə dayanıqlığının gücləndirilməsi, makroiqtisadi sabitliyin daha da möhkəmləndirilməsi üçün qarşıya bir sıra mühüm vəzifələr qoyulub. Həmin məqsədlər sırasında yeni reallıqlara uyğun büdcə qaydasına əsaslanan fiskal çərçivə formalaşdırılmasına xüsusi yer verilib.**

Bundan başqa sənəddə şaxələnmiş iqtisadiyyatın dayanıqlılığı üçün qeyri-neft sektorunun payının, eləcə də dövlətin valyuta ehtiyatlarının artırılması, intizamlı borclanmanın təşkil edilməsi kimi mühüm əhəmiyyətli istiqamətlər vurğulanıb. Milli Prioritetlərdə bütün bunların reallaşdırılması üçün xarici valyuta ehtiyatlarının dayanıqlı səviyyədə saxlanılması məqsədilə Dövlət Neft Fondundan transfertin dövlət büdcəsində payının tədricən azaldılması, məcmu borcun makroiqtisadi sabitliyə, o cümlədən dövlət büdcəsinin sabitliyinin gerçəkləşdirilməsi zəruriliyi bildirilib.

Milli Prioritetlərdə olduğu kimi, digər sənədlərdə də bildirilir ki, daxili borcun idarə edilməsi ölkədə maliyyə bazarlarının inkişafını dəstəkləməli, xarici dövlət borcunun dayanıqlı səviyyəsi qorunmalı, dövlət şirkətlərinin borclanmalarına nəzarət gücləndirilməli və bu əsaslarda dövlət və kvazi–dövlət borcunun idarəedilməsi təşkil olunmalıdır.

Bütün bunlar nəzərə alınaraq ölkədə son illərdə istər daxili, istərsə də xarici borcun qarşılanması üçün makroiqtisadi sabitliyin qorunması, qiymətlərin aşağı və sabit olması məqsədilə bir sıra tədbirlər həyata keçirilib. Bu sahədə idarəetmənin institusional çərçivəsi təkmilləşdirilib və maliyyə bazarlarının səmərəli fəaliyyəti təmin edilib. Belə bir şəraitdə isə iqtisadi proqnozlar özünü doğruldub, ən başlıcası isə əhalinin yığımları dəyərsizləşmədən xilas olunub və investisiya arımı reallaşıb.

Hazırda da daxili və xarici borcların qarşılanmasına prioritet istiqamət kimi yanaşılır. Məsələn, kapital və sığorta bazarının inkişafının sürətləndirilməsi, milli bank sektorunun dayanıqlığının təmin olunması, ona olan etimadın daha da yüksəlməsi, real iqtisadiyyatın maliyyələşdirilməsində bankların payının artırılması və sahibkarlıq fəaliyyətinin inkişafının diqqətdə saxlanılması kimi layihələrə xüsusi önəm verilir.

Qeyd edək ki, son illərdə bank kreditlərinin sahibkarlıq fəaliyyəti üçün əlçatanlığını təmin edəcək real işlək mexanizmlər hərəkətə gətirilib, bank kreditlərinin təminatı məsələlərində bürokratik əngəllər aradan qaldırılıb. Bütün bunlarla yanaşı, ölkə iqtisadiyyatına birbaşa xarici investisiyaların, o cümlədən infrastruktur sahələrinə strateji investorların cəlb olunması sahəsində bir sıra uğurlar əldə edilib. Eyni zamanda, dövlət investisiyalarının və dövlət şirkətlərinin fəaliyyətinin iqtisadi səmərəsi yüksəldilib, bu sahədə şəffaflıq səviyyəsi artırılıb.

Ölkədə daxili və xarici borcların qarşılanmasından bəhs edərkən, bir məsələni də xatırlatmaq istərdik. Belə ki, son illər respublikamızın daxili və xarici dövlət borcunun idarə edilməsi istiqamətində ölkə başçısının rəhbərliyi ilə davamlı tədbirlər həyata keçirilib. “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” və “Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya”da qarşıya qoyulan vəzifələr uğurla reallaşdırılıb.

Bu sənədlərdə dövlət borcalmaları üzrə müəyyənləşdirilən strateji hədəflərə çatmaq üçün bir sıra prioritet layihələrin gerçəkləşdirilməsi nəzərdə tutulub. Prezident İlham Əliyevin 4 avqust 2023-cü il tarixli sərəncamı ilə “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda bir sıra dəyişikliklər edilməsi də məhz bu məqsəddən irəli gəlib. Həmin strategiyanın “Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat üzrə strateji çərçivə” bəndi üzrə 2026-cı ilin sonuna ümumi dövlət borcunun ÜDM-də payının 30 faiz, o cümlədən xarici dövlət borcunun 10 milyard ABŞ dollarını üstələməməsi qərara alınıb.



Yeni dəyişikliyə əsasən, 2025-ci ilin sonuna xarici dövlət borcunun 7,1 milyard ABŞ dolları məbləğində, yəni ÜDM-in 10,7 faizi həcmində olması gözlənir. Bununla belə, mövcud xarici dövlət borcunun qaytarılması, eləcə də ölkənin sosial-iqtisadi inkişaf templərinə əlavə təkan verilməsi məqsədilə prioritet sahələrdə investisiya layihələrinin maliyyələşdirilməsi səbəbindən bu göstəricilərin dəyişəcəyi də istisna edilmir.

Cari il iyulun 1-nə olan məlumata görə, Azərbaycan Respublikasının dövlət borcu (daxili və xarici dövlət borcu) 25 milyard 686 milyon manat və ya 2024-cü il üzrə 121 milyard 343 milyon manat məbləğində proqnozlaşdırılan Ümumi Daxili Məhsulun (ÜDM) 21,2 faizini təşkil edib. Maliyyə Nazirliyinin açıqladığı “2024-cü ilin I yarımili üzrə dövlət borcuna dair statistik bülleten”də bildirilir ki, ümumi dövlət borcunun 9 milyard 114 milyon manatı (5 milyard 361 milyon dollar) və ya 35,5 faizi xarici dövlət borcunun, 16 milyard 572 milyon manatı və ya 64,5 faizi daxili dövlət borcunun payına düşür.

Bu ilin 1 iyul tarixinə xarici dövlət borcu ilin əvvəli ilə müqayisədə mütləq ifadədə 1 milyard 100 milyon dollar və ya 17 faiz azalıb. Bunun da əsas səbəbi imzalanmış kredit sazişləri çərçivəsində 2024-cü ilin ilk 6 ayı ərzində xarici dövlət borcu üzrə vaxtı çatmış əsas borc ödənişlərinin, o cümlədən beynəlxalq maliyyə bazarlarında 2014-cü ildə yerləşdirilmiş istiqrazlar (avrobond) üzrə 900 milyon dollar məbləğində ödənişlərin həyata keçirilməsi olub. 2024-cü ilin 1 iyul tarixinə xarici dövlət borcunun ÜDM-ə nisbəti ilin əvvəli ilə müqayisədə 1,4 faiz bəndi azalıb.

“2024-cü ilin I yarımili üzrə dövlət borcuna dair statistik bülleten”dən aydın olur ki, cari il 1 iyul tarixinə dövlət zəmanətli borcun məbləği (daxili və xarici borc) 11 milyard 407,1 milyon manat və ya 2024-cü il üzrə proqnozlaşdırılan ÜDM-in 9,4 faizini təşkil edib. Dövlət zəmanətinin 9 milyard 599 milyon manatı (5 milyard 647 milyon dollar) və ya 84,2 faizi xarici kreditlərin, 1 milyard 808 milyon manatı və ya 15,8 faizi isə daxili kreditlərin payına düşür.

Xarici dövlət zəmanətli borcun 4 milyard 329,7 milyon dollarını və ya 76,7 faizini (7 milyard 361milyon manatı) “Cənub Qaz Dəhlizi” QSC-nin öhdəlikləri üzrə verilmiş dövlət zəmanəti təşkil edir. Dövlət zəmanətli borc portfelinin valyuta tərkibi belə olub: ABŞ dolları– 62,6 faiz, avro – 19,4 faiz, manat – 12,4 faiz, yapon yeni – 3,6 faiz, digər valyutalar – 2 faiz. Dövlət zəmanətli borcun 63,4 faizi 5 ilə qədər, 24,3 faizi 5 ildən 10 ilə qədər, 12,3 faizi isə 10 ildən yuxarı olan müddətlərdə kreditorlara qaytarılmalıdır.

Bu kreditlərin 29,8 faizi müxtəlif investorların, 5,4 faizi Dünya Bankının, 9,4 faizi Asiya İnkişaf Bankının, 1,2 faizi İslam İnkişaf Bankının, 5,7 faizi Avropa Yenidənqurma və İnkişaf Bankının, 3,6 faizi Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin, 8 faizi Asiya İnfrastruktur İnvestisiya Bankının, 15,9 faizi daxili kreditorların, 21 faizi isə digər kreditorların payına düşüb.

Azərbaycanın xarici dövlət borcunun azalması bir sıra amillərlə bağlıdır. Bu, ilk növbədə, düşünülmüş uzunmüddətli strategiyanın uğurla həyata keçirilməsinin məntiqi nəticəsidir. Prezident İlham Əliyev tərəfindən imzalanan sərəncam – “Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya” da bunun bariz ifadəsidir.

Yeri gəlmişkən, 2022–2025-ci illər üzrə yenilənən strategiyada ortamüddətli dövr ərzində dövlət büdcəsi qarşısında makroiqtisadi sabitliyə xələl gətirilməməsi, büdcənin gəlir və xərclərinin ahəngdarlığının təmin edilməsi, habelə tədiyə balansının tarazlığının pozulmasının qarşısının alınması, Dövlət Neft Fondunun aktivlərinin iqtisadi təhlükəsizliyinin qorunması, işğaldan azad edilmiş ərazilərdə yenidənqurma işlərinin, habelə dövlətin əsas funksiyalarının (sosial təminat, səhiyyə, müdafiə, dövlət borcuna xidmət və s.) maliyyələşdirilməsi kimi bir sıra çağırışlar meydana gəlib.

Onu da qeyd edək ki, yenilənən strategiya çərçivəsində xarici dövlət borcunun ÜDM-də payının 2025-ci ilin sonuna 15 faizdən aşağı səviyyədə saxlanılması, növbəti dövrdə (2025–2030) isə 10 faizə çatdırılması qarşıya mühüm vəzifə kimi qoyulub.

# Horadizdən çəkilən polad magistral Ağbəndə doğru irəliləyir

**Ölkəmizin işğaldan azad edilmiş ərazilərinin yenidən qurulması, bərpası, eləcə də məskunlaşmanın təmin olunması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Bu məqsədlə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında ən müasir infrastruktur yaradılır, yeni avtomobil və dəmir yolları çəkilir. Ölkə Prezidentinin tapşırıqlarına uyğun olaraq Qarabağda başlanılan quruculuq işləri çərçivəsində reallaşdırılan dəmir yolu layihələri də bu baxımdan diqqət çəkir.**



“Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyəti (QSC) tərəfindən həyata keçirilən Horadiz–Ağbənd dəmir yolu xəttinin tikintisi üzrə işlərin artıq 57 faizi tamamlanıb. Səhmdar cəmiyyətindən verilən məlumata görə, sözügedən dəmir yolu xəttinin layihələndirilməsi işləri 83 faiz yerinə yetirilib. Bu ilin sonuna qədər isə Horadiz–Ağbənd dəmir yolu xəttində tikinti işlərinin 60 faizindən çoxu, layihələndirmə işlərinin isə 90 faizinin tamamlanması gözlənilir.

Tikinti-quraşdırma işləri çərçivəsində ilin sonunadək dəmir yolunda bir sıra vacib işlərin tamamlanması nəzərdə tutulur. Artıq ox üzrə uzunluğu 110,4 kilometr olan dəmir yolu xəttinin təhkim zolağı və xüsusi mühafizə zonası boyunca 60 metr enində ərazilərin minadan təmizlənməsi başa çatdırılıb, əlavə genişləndirilmələrin tələb olunduğu hissələrdə isə proses davam etdilir. Bununla yanaşı, dəmir yolu xəttinin 72-82-ci kilometrlik hissəsində yol oxunun dəyişdirilməsi səbəbindən minatəmizləmə işləri təkrar yerinə yetirilib.

“Horadiz–Ağbənd dəmir yolu xəttinin ox üzrə 72 kilometr, yan yollarla birlikdə isə 83,4 kilometr hissəsində rels-şpal çərçivələri qoyulub, 65,6 kilometr hissəsində uzunölçülü relslərin quraşdırılması işləri tam şəkildə başa çatdırılıb. Hazırda xəttin 72–89-cu kilometr aralığında olan hissəsində torpaq və mühəndis qurğularının tikintisi işləri davam etdirilir. Ümumilikdə isə, tikinti-quraşdırma işləri üç mərhələdə həyata keçirilir”, – deyə məlumatda bildirilib.

Layihənin detallarına, həmçinin yolun 106-cı kilometrində inşa edilən uzunluğu 1071 metr olan tunel də daxildir. Tunelin qabariti gələcəkdə dəmir yolu xəttinin elektrikləşdirilməsinə də imkan yaradacaq. “Azərbaycan Dəmir Yolları” QSC-nin məlumatına görə, yeni Avstriya üsulu əsasında tikilən tunelin ətrafında yerləşən qaya qruntunun yükgötürmə qabiliyyətindən asılı olaraq tunelin konstruksiyasına dəyişikliklər edilir ki, bu da inşaat xərclərinin optimallaşdırılmasına imkan yaradır. Tuneldə qazma işləri qazma-partlatma üsulu ilə həyata keçirilir. Bu işlər isə həm tunelin giriş, həm də çıxış tərəfindən aparılır.

Horadiz–Ağbənd layihəsi çərçivəsində dəmir yolunun 79-cu kilometrində 23 aşırımdan ibarət olan 771 metr uzunluğunda körpünün tikintisi də nəzərdə tutulur. Bunun da səbəbi dəmir yolunun bu həssədə Xudafərin su anbarına yaxın yerləşməsidir. Sözügedən körpünün dayaqları diametri 1200 millimetr olan monolit dəmir-beton qazma-doldurma svayların üzərində layihələndirilib. Artıq körpünün dəmir-beton işləri tamamlanıb, yaxın vaxtlarda isə hərəkət tavasının izolyasiya işlərinin başlanması planlaşdırılır. Ümumilikdə isə, Horadiz–Ağbənd dəmir yolu xəttində işlərin 2025-ci ildə tamamlanması gözlənilir.

Yeri gəlmişkən, hazırda Ağbənddə dəmir yolu qalereyası da inşa edilir. “Azərbaycan Dəmir Yolları” QSC-dən verilən məlumata əsasən, Horadiz–Ağbənd dəmir yolu xəttinin 75-ci kilometrində inşa edilən qalereya, dəmir yolunu dağlardan düşə biləcək qaya parçalarından mühafizəsi üçün layihələndirilib. “Qalereyanın uzunluğu 144 metrdir. Tikilən qalereyanın qabariti gələcəkdə dəmir yolu xəttinin elektrikləşdirilməsinə də imkan verir. Qalereya svaylar üzərində layihələndirilib və onun konstruksiyası monolit dəmir-betondur. Bu, Azərbaycanın müstəqilliyi dövründə inşa olunan ilk dəmir yolu qalereyasıdır, – deyə məlumatda bildirilib.

Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2021-ci il fevralın 14-də təməli qoyulmuş Horadiz–Ağbənd birxətli dəmir yolu 8 stansiyadan ibarət olacaq. Həmçinin layihə çərçivəsində, ümumilikdə, 300-ə yaxın süni mühəndis qurğusunun tikintisi planlaşdırılır. Horadiz stansiyası ilə yanaşı, Mərcanlı, Mahmudlu, Soltanlı, Qumlaq, Mincivan, Bartaz və Ağbənd stansiyaları da tamamilə yenidən tikiləcək.

“Azərbaycan Dəmir Yolları” QSC-nin şöbə müdiri Fəryaz Rüstəmov bildirib ki, beynəlxalq kommunikasiya xətləri və daxili logistika baxımından strateji əhəmiyyətə malik olan Horadiz–Ağbənd dəmir yolu layihəsi ölkəmizdə istehsal olunan məhsulların sürətli və etibarlı şəkildə dünya bazarlarına çıxışını təmin etmək baxımından olduqca əhəmiyyətlidir. Onun sözlərinə görə, ölkəmizin tranzit rolunun daha da gücləndirilməsinə xidmət edəcək bu layihə fiziki olaraq Azərbaycanı Naxçıvana birləşdirmək, eləcə də respublikamızın Avropa və Asiya arasındakı əsas yollardan birinə çevrilmək üçün böyük potensiala malikdir.

# Qarabağda 840 yeni iş yeri açılıb

**İşğaldan azad edilmiş rayonlarda I yarımildə 840 yeni iş yeri açılıb. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 42 faiz yüksəlib. Belə ki, 2023-cü ilin I yarımilində Qarabağda 593 yeni iş yeri yaradılmışdı.**

Yanvar–iyun ayları ərzində ən çox iş yeri Laçın və Şuşada açılıb. Bu dövrdə Laçında 299, Şuşada isə 232 yeni məşğulluq qeydə alınıb.

Xatırladaq ki, hesabat dövründə azad edilmiş rayonlarda 159 yeni müəssisə və təşkilat, 1726 yeni fərdi sahibkarlıq subyekti dövlət qeydiyyatından keçib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə yeni yaradılmış müəssisə və təşkilatların sayı 90, fərdi sahibkarların sayı isə 488 vahid artıb.



# 7 ayda 1,8 milyard manatlıq mühərrik yanacağı satılıb

**Cari ilin yanvar-iyul aylarında Azərbaycanda yanacaq istehlakçıları 1 milyard 821 milyon manat məbləğində avtomobil benzini və dizel yanacağı alıblar.**



Dövlət Statistika Komitəsindən bildirilib ki, ötən ilin müvafiq ayları ilə müqayisədə istehlakçılara avtomobil benzini və dizel yanacağı satışından əldə edilən gəlir 6,8 faiz artıb.

Hesabat dövründə Azərbaycanda pərakəndə ticarət dövriyyəsinin ümumi həcmində avtomobil benzini və dizel yanacağı satışından 5,6 faiz gəlir əldə edilib.

# Sığorta bazarı 9 faiz böyüyüb




**Azərbaycan Mərkəzi Bankının məlumatına əsasən, cari ilin yanvar-iyul aylarında Azərbaycandakı 17 sığorta şirkətinin xətti ilə 834 milyon manat sığorta haqqı toplanılıb. Bu, ötən ilin eyni dövrünə nisbətən 9,4 faiz çoxdur.**

Hesabat dövründə sığorta şirkətlərinin həyata keçirdikləri ödənişlərin məbləği isə 440 milyon manat təşkil edib. Bu isə illik müqayisədə 55,6 faiz çoxdur.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*




## “Yaşıl dünya” naminə həmrəylik



# “Yaşıl” enerji – “yaşıl” texnologiyalar

## Bu yol iqlim sabitliyinə, ekoloji tarazlığa aparır



**COP29-a məxsusi hazırlıqlar Yer üzündə iqlim şəraitinin pisləşməsinin qarşısının alınması, dünyanın eloloji təhlükəsizliyi, planetin özəlliyinin qorunması, insan sağlamlığı və ərzaq məhsulları ilə bol təminata kimi taleyüklü hədəflərə yönəlib. Ona görə də atılan bu addımlar gələcək nəsillər üçün regional siyasi münaqişələrdən, bir sıra siyasi problemlərdən daha artıq önəm daşıyır.**

“İqlim fəaliyyətinin gücləndirilməsinə həsr ediləcək nüfuzlu konfrans Azərbaycan cəmiyyətində iqlim dəyişikliyi və ekoloji problemlər haqqında maarifləndirmə səviyyəsini artıracaq. Bu da təbii ki, vətəndaşların ekoloji problemlərə qarşı daha məsuliyyətli davranış sərgiləməsinə səbəb olacaq. Əminəm ki, COP29 sammitinin keçirilməsi Yer kürəsinin gələcək nəsilləri üçün qlobal əhəmiyyətli dirçəliş prosesinə gedən yolda önəmli cığır açacaq. Bir sözlə, konfransın faydaları dünyada həm ekoloji dayanıqlılığı artıracaq, həm də iqtisadi inkişafa əhəmiyyətli töhfələr verəcək”.

**Azərbaycan Milli Elmlər Akademiyası Coğrafiya İnstitutunun şöbə müdiri, coğrafiya elmləri doktoru Səid Səfərov yuxarıdakı açıqlamasının davamında bildirdi ki,** COP29 konfransı zamanı, ölkəmiz sahib olduğu zəngin mədəni irsini və gözəlliklərini, eləcə də ekoloji dayanıqlılıq və “yaşıl” texnologiyaların inkişafı istiqamətində uğurlarını da dünya ictimaiyyətinə nümayiş etdirəcək: “Konfransın keçirilməsi Azərbaycanın qlobal iqlim siyasətində mühüm rol oynamaq və öz öhdəliklərini yerinə yetirmək üçün əhəmiyyətli bir fürsət olacaq. Bu tədbir zamanı iqlim dəyişikliyi ilə mübarizə sahəsində qabaqcıl təcrübələr və yeni texnologiyalar haqqında ətraflı söhbət açılacaq, eyni zamanda, yerli icmaların və qeyri-hökumət təşkilatlarının iştirakı təşviq ediləcək. Bu, şübhəsiz ki, son nəticədə respublikamızın “yaşıl” enerjiyə keçidi sahəsindəki uğurlu nəticələrdə dəyişikliklərə gətirib çıxaracaq. “Yaşıl” enerjinin geniş istifadəsi birbaşa Yer kürəsinə təsir edəcək”.

İqlimşünas alimin sözlərinə görə, qobal istiləşmə ötən əsrin 90-cı illərindən sonra özünü daha çox büruzə verməyə başlayıb. Bunun da əsas səbəblərindən biri dünyada, xüsusilə də Çin və Hindistanda iqtisadiyyatın sürətli inkişafı, habelə bununla əlaqədar atmosferə atılan karbon və digər istixana qazlarının miqdarının həddindən artıq dərəcədə artmasıdır. Bundan əlavə, kənd təsərrüfatı istehsalındakı artımlar da iqlimə təsirsiz ötüşmür. İllərlə istifadəsiz torpaqların əkin məqsədilə şumlanması yerin albedosunu azaltmaqla, Günəşdən gələn şüaların daha çox udulmasına və temperaturun artmasına səbəb olur. Atmosferdə aerozolların konsentrasiyasının azalması və meşələrin qırılması da problemi daha da kəskinləşdirir.

Xatırladaq ki, hazırda dünyada enerji istehlakının 17,9 faizi bərpaolunan enerji mənbələrinin payına düşüb. 2018-ci ildə dünya üzrə alternativ enerji texnologiyalarına 296 milyard ABŞ dolları sərmayə yatırılıb. Bu sahə neft, qaz və ya kömür kimi təbii sərvətlərlə zəngin ölkələr arasında da trendə çevrilib, necə deyərlər, dövlət siyasətinin tərkib hissəsi olub.

**S.Səfərov onu da vurğuladı ki,** istixana qazlarının emissiyasını 35 faiz azaltmaqla “yaşıl” enerjidən istifadəni genişləndirmək yeni texnologiyalar tələb edir. Ənənəvi yanacağı birbaşa “yaşıl” enerji ilə əvəzləmək mümkünsüzdür. Belə edilsə, iqtisadiyyat çökər. Kompensasiya üçün “yaşıl” enerjidən istifadə etmək lazım gəlir. Alternativ enerjinin ənənəvi yanacağın yerini tutması üçün böyük texnoloji güc tələb olunur.

**İqtisadçı-ekspert Samir Heydərov isə qeyd etdi ki,** indiyədək keçirilən COP tədbirlərinin başlıca məqsədi atmosferdə karbon qazının ($CO_2$) miqdarını azaltmaqla qlobal istiləşməni məhdudlaşdırmaq və sənayeləşmədən əvvəlki dövrə nisbətən 1,5 dərəcə Selsi artım həddində saxlamaq olub. Bu COP29-da müzakirə ediləcək əsas mövzulardan biri kimi nəzərdə tutulub.

Atmosferdə karbon qazının miqdarını azaltmaqla karbon neytrallığına nail olmağın zəruriliyinə artıq heç kimin şübhə ilə yanaşmadığını vurğulayan S.Heydərovun söhbətində bu gün iki qütbün toqquşmasının göz önündə olduğunu bildirdi: “Birinci tərəf, ilk növbədə, Avropa İttifaqı 2050-ci ilə qədər sürətləndirilmiş enerji keçidinə və karbon neytrallığına nail olmaqda israrlıdır. Bu təşkilat istixana qazları emissiyalarının karbohidrogenlərin hasilatı və istifadəsi sahəsində “keçid” layihələri hesabına azaldılmasına nail olmağı yolverilməz hesab edir.

İkinci qütbdə dayanan dövlətlər– inkişaf etməkdə olan ölkələr isə karbon neytrallığına nail olmaq şərtilə iqtisadiyyatın inkişafının xüsusiyyətini nəzərə alan daha yumşaq keçidin tərəfdarıdırlar. Çünki bu yol inkişafda olan ölkələrə enerji və resurs səmərəliliyi istiqamətdə hərəkət edərək iqtisadiyyatı yenidən qurmağa imkan verir, eləcə də düşünülmədən sürətləndirilən enerji keçidini şərtləndirəcək sosial-iqtisadi risklərin səviyyəsini azaldır”.

İqtisadçı-ekspert əlavə etdi ki, respublikamızın bərpaolunan enerji potensialı əsasında istehsal edilən “yaşıl” sərvətin tezliklə ixracının həyata keçirilməsi, ölkəmizin bu sahədə genişmiqyaslı uğurlu layihələr reallaşdırması Azərbaycanın enerji strategiyasında yeni eranın başlanmasından xəbər verir. Bu eranın əvvəlində Azərbaycanın COP29-a evsahibliyi hüququ qazanması həm ölkəmizə etimad göstəricisi kimi diqqət çəkir, həm də qarşıya qoyulan vəzifənin – 2030-cu ilədək elektrik enerjisinin qoyuluş gücündə bərpaolunan enerji payının respublikamızda 30 faizə çatdırılmasının gerçəkləşdiriləcəyi əminliyini ifadə edir.

**S.Heydərov sonda bildirdi:** “Belə bir tədbir Azərbaycanın iqlim dəyişikliklərinə qarşı mübarizədə həyata keçirdiyi layihələrin beynəlxalq aləmdə tanınmağına və bu sahənin sürətli inkişafına yeni investisiyaların cəlb olunmasına əlverişli imkan yaradır. Respublikamız neft-qaz ölkəsi olmaqla yanaşı, iqlim dəyişiklikləri ilə bağlı çağırışlara da yüksək səviyyədə reaksiya verir. Belə ki, 2030-cu ilə qədər istilik effekti yaradan qazların həcminin ölkəmizdə 35 faizə qədər azaldılması nəzərdə tutulur. O cümlədən, sürətlə bərpaolunan enerji sahələri yaradılır və 2030-cu ilə qədər istehsal edilən elektrik enerjisinin 30 faizinin “yaşıl” enerji üzərinə keçirilməsi ilə bağlı könüllü öhdəlik diqqətdə saxlanılır. Bu məqsədlə günəş və külək elektrik stansiyalarının yaradılması ilə bağlı layihələr davamlı olaraq reallaşdırılır. Ölkəmizdə “yaşıl” enerji sahələrinin genişləndirilməsi ilə əlaqədar təcrübəsi olan dünyanın aparıcı şirkətləri ilə sazişlər imzalanır”.

Qeyd edək ki, Azərbaycanda qlobal istiləşmə ilə mübarizədə respublikamızın etibarlı enerji tərəfdaşı və beynəlxalq birliyin məsul üzvü kimi rolunu nümayiş etdirən “yaşıl” enerji layihələri uğurla həyata keçirilir. 2024-cü ilin noyabrında Bakıda keçiriləcək BMT-nin İqlim Sammitinə sədrlik edəcək ölkəmiz bu nüfuzlu tədbiri iqlim dəyişikliyinə qarşı birgə mübarizədə beynəlxalq əməkdaşlığın reallaşdırılması üçün mühüm platforma olaraq dəyərləndirir.

Göründüyü kimi, neft-qaz ölkəsi olan Azərbaycan “yaşıl” enerji növlərinin yaradılmasını və onun dünya bazarlarına nəqlini hazırda enerji siyasətinin yeni prioritet istiqaməti kimi müəyyənləşdirib. COP29-un Bakıda keçirilməsi qərarının verilməsi, habelə beynəlxalq aləmdə razılıqla qarşılanması da məhz vurğulanan siyasətdən qaynaqlanıb. Şübhəsiz ki, bu zaman Prezident İlham Əliyevin bu sahədə – bərpaolunan enerji potensialının gerçəkləşdirilməsi ilə bağlı məqsədyönlü fəaliyyəti də əsaslı rol oynayıb.

# COP29 – fəlakətdən xilas yolu axtarışının önəmli platforması

**Nədənsə, son zamanlar ötən əsrin 70-80-ci illərinin bir “xalq proqnozu”nu tez-tez xatırlayıram. O zaman deyirdilər ki, XXI əsrin 20-ci illərində Yer kürəsində çox böyük fəlakətlər gözlənilir. Bu, müharibələr də ola bilər, təbii fəlakətlər də. Həmin dövrdə bu tarix bizə yaxın görünmədiyindən onu heç də ciddi qəbul etmirdik. Tale elə gətirib ki, bu illəri yaşamaq qismətimizə düşüb və indi biz o dövrün təxminlərinin gerçəkləşməsinin birbaşa iştirakçısıyıq.**



Çox uzağa getməyəcəyəm, bu il iyunun 6-da, axşam saat 10-11 radələrində rayonumuzda baş vermiş qasırğa və leysan yağışının yaşatdığı dəhşətli qorxu hissindən söhbət açacağam. Həmin vaxt düz iki saat ərzində göy aramsız olaraq guruldadı, şimşək çaxdı. Olduqca qorxunc idi. Ardından dolu qarışıq leysan yağışı başladı. Leysan özü ilə fəlakətlər gətirdi, sel-suları hər yanı basdı. Küləyin şiddətindən isə saysız-hesabsız ağac qırıldı, bəziləri kökündən qopdu. Bu hadisədən cəmi on gün əvvəl baş verən göy gurultusu zamanı isə ildırım vurmasından 4 nəfər dünyasını dəyişmiş, bəzi evlərdə yanğın baş vermişdi. Xatırlatdığım bu məqam təkcə bizi əhatə edən aləmdə baş verənlərin kiçicik bir təsviridir.

Hazırda bütün dünya iqlim dəyişikliklərinin mənfi təzahürlərindən əziyyət çəkir. Artıq belə fəlakətlər planetimizin hər yerini bürüdüyü üçün onun həlli yolları axtarılır. İndi iqlim dəyişikliklərinə səbəb olan fəaliyyətlərin azaldılması üçün ciddi tədbirlərin görülməsinin vacibliyini hər kəs yaxşı bilir.

Azərbaycan da qlobal iqlim dəyişikliklərinə qarşı mübarizəyə qoşulub və bu məsələyə öz töhfələrini verməkdə davam edir. Belə ki, ölkəmiz 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz azaldılmasını hədəfləyir. Həmin ildən sonra isə daha iddialı hədəf müəyyən edilib ki, bu da 2050-ci ilə qədər istixana qazlarının miqdarının 40 faiz azaldılmasından ibarətdir. Eyni zamanda, Azərbaycan Respublikasının Prezidenti ölkəmizin işğaldan azad edilmiş torpaqlarını “Yaşıl enerji” zonası elan edib. Bu ərazilərin 2050-ci ilədək “Netto sıfır emissiya” zonasına çevrilməsi nəzərdə tutulur.

2024-cü ilin payızında Azərbaycan dünyanın ən böyük və mühüm iqlim tədbirlərindən biri olan COP29-a evsahibliyi edəcək. Bu, Qoşulmama Hərəkatına sədrliyimiz və Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük uğurudur. Noyabr ayında dünyanın hər yerindən hökumət nümayəndələri Bakıda toplaşaraq iqlim dəyişmələrinin qarşısının alınması və fəsadlarının aradan qaldırılması istiqamətində birgə səylər göstərmək üçün çağırışlar edəcəklər. Yeri gəlmişkən, Bakıda keçiriləcək mühüm iqlim tədbiri zamanı ən böyük fəlakətlərə səbəb olan müharibələr belə, müvəqqəti də olsa, dayandırıla bilər. Dünyanın əksər ölkələri Yay və Qış Olimpiya Oyunları zamanı atəşkəs barədə razılığa gəlirlər. Azərbaycan da COP29-un iqlim dəyişikliyinə qarşı mübarizə ilə yanaşı, sülh sahəsində növbəti uğur hekayəsinə, əmin-amanlıq və anlaşma konfransına çevrilməsi üçün mühüm səylər göstərir.

COP kimi mühüm bir iqlim tədbirindən söhbət açdığım zaman bir vacib məsələni də diqqətə çatdırmaq istəyirəm. Yaşadığımız bölgə təbii bitki örtüyü ilə zəngindir. Bu zənginliyi insanlar da hər zaman artırmağa çalışır, təbiətə qayğı ilə yanaşırlar. İllər öncə bu yerlərin brendi sayılan qoz və şabalıd ağacları kütləvi surətdə qurumağa bağladı. Bu yaxınlarda rayonumuzun giriş kəndlərindən olan Bəhmədlidən başlayaraq yol boyu qurumuş qoz ağaclarını saydım. Onların sayı 79 idi. Bununla yanaşı, ərazidə yalnız bir budağı qurumayan və ya gövdəsində təkəm-seyrək yaşıl yarpaqları olan ağaclara da rast gəlmək mümkündür. Qoz ağaclarının arxasında salınmış şam xiyabanlıqlarında da mənzərə eyni idi. Eyni zamanda, Qax–Zaqatala yolunun rayonumuzun ərazisindən keçən hissəsində 53 qurumuş ağac var.

Təklif edirəm ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi qurumuş ağacların müəyyənləşdirilib aktlaşdırılması üçün xüsusi komissiya yaratsın. Daha sonra həmin ağaclar kəsilərək yerində yeniləri əkilsin. Ağaclar da əbədi deyil, onların da bir ömrü var. Elə COP29-un da əsas çağırışı “yaşıl” dünyadır. Qoy hər birimiz dünyamıza bir ağac əkməklə töhfə verək.

*Elmira MEHDİYEVA,*
*“Zaqatala” qəzetinin redaktor müavini*

## Liderlər ABŞ-də “yaşıl” maliyyələşdirməyə qoşulacaqlar



**Amerika–Azərbaycan Ticarət Palatasının (USACC) “X” sosial şəbəkəsində dərc olunmuş məlumatda “yaşıl” maliyyələşdirmə üzrə Liderlər Sammitinin oktyabrın 11-də Vaşinqtonda keçiriləcəyi bildirilib.**

Paylaşımda palatanın USACC, ABŞ Ticarət Nazirliyi və Cons Hopkins Universitetinin “Bloomberg” Mərkəzi ilə “yaşıl” maliyyələşdirmə üzrə Liderlər Sammitinin iştirakçısı olmağa dair çağırış var. Qeyd olunur ki, Cons Hopkins Universitetinin “Bloomberg” Mərkəzində keçiriləcək tədbir COP29 ərəfəsində təşkil olunacaq və nüfuzlu ekspertlər və rəsmi şəxslərlə birlikdə dayanıqlı gələcək üçün maliyyə mexanizmlərinin araşdırılmasına həsr olunacaq.

## “İqlim mübarizəsi” üçün “ianə mənbələri”



**COP29 sədrliyi iqlim fəaliyyəti üçün investisiyaların cəlb olunmasını müzakirə edib. İcraçı direktor Elnur Soltanov və İqlim üzrə yüksək səviyyəli çempion Nigar Arpadarai Dünya İqtisadi Forumunun “İqlim fəaliyyətinin gücləndirilməsi üçün ianə” təşəbbüsünün nümayəndələri ilə görüşüblər.**

Bu barədə COP29-un “X” sosial şəbəkəsinin hesabındakı paylaşımda bildirilir: “Bu gün Dünya İqtisadi Forumunun iqlim fəaliyyətinin gücləndirilməsi iqlim ianəsi təşəbbüsünün nümayəndələri ilə ətraflı müzakirə edildi. Həmçinin iqlim fəaliyyətinə daha çox investisiya cəlb etmək üçün xeyriyyəçilikdən necə istifadə oluna biləcəyi barədə fikir mübadiləsi aparıldı”.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# “Xalq qəzeti” demokratik mətbuatımızın varisidir

**Demokratik düşüncə məfkurəsinin öncüllərindən olmuş böyük Həsən bəy Zərdabinin XIX əsrin son rübündə milli oyanış zəmisinin “Əkinçi”si kimi səpdiyi saf toxumlar XX əsrin əvvəllərində milli istiqlal mübarizəsini cücərtdi. Anadilli mətbuatımızın ayaq tutub yeriməsi xalqın taleyüklü problemlərini ictimai müzakirəyə çıxarmaqla əvvəlcə milli idealı, bunun ardınca dövlətçiliyin bərpası məfkurəsini gündəmə gətirdi.**


Xalq qəzeti
Azərbaycan–Rusiya çoxyönlü strateji tərəfdaşlığının yeni hədəfləri
Azərbaycan və Rusiya liderləri Bakıda ikitərəfli gündəliyi və regional təhlükəsizlik məsələlərini müzakirə etdilər.
Xalq qəzeti
Azərbaycanın beynəlxalq aləmə inteqrasiyasında növbəti ünvan: BRICS
Qatarlar Naxçıvana gedəcək!
Erməni XİN-in anti-Lavrov mövqeyinə sözardı

Tarixinin ilk qərinəsində maarifçilik və ictimai tərəqqi ideyasının yayıcısı kimi formalaşıb inkişaf edən Azərbaycan mətbuatı Rusiya imperiyasında baş verən inqilablar gedişində demokratik məzmunla zənginləşib şəbəkəsini genişləndirdi. Çar monarxiyasının iflası gedişində xalqımız milli dövlətçiliyini bərpa etməyə nail oldu. Milli dövlət quruculuğu demokratik mətbuatın inkişafını yeni mərhələyə yüksəltdi, çoxsaylı müstəqil dövri nəşrlərlə yanaşı, dövrün tələbi ilə ilk milli rəsmi dövlət qəzeti də yarandı. Azərbaycan Xalq Cümhuriyyəti çoxpartiyalı parlamentinin Azərbaycan və rus dillərində nəşr edilən “Azərbaycan” qəzeti dövlətlə xalqın ortam təşkil edən informasiya mənbəyi olmaqla ictimai rəyin obyektiv ifadəçisi mövqeyinə yüksəldi. AXC-nin 2 illik mövcudluğu dövründə milli mətbuatın maarifçi-demokratik ənənələri sürətlə dövlətçilik xarakteri aldı.

Media tarixçiləri və nəzəriyyəçiləri də təsdiq edirlər ki, Azərbaycan mətbuatı Rusiya imperiyası dövründə milli maraqlara xidmət və ictimai tərəqqiyə çağırış ideyalarını yaymağa nail olmuşlar. XX əsrin əvvəllərində fəaliyyət göstərən qəzet və jurnallar ictimai ədəbi fikrin istiqamətini, məslək, əqidə mübarizəsini əks etdirməklə tərəqqi, təkamül amilinə çevrilmişdir. Maarifçi mətbuatın yetişdirdiyi ictimai məsləkli, demokratik ədib, pedaqoq və məmurlar dövri mətbuatın köməyi ilə meydana atılan "türkçülük, islamçılıq, müasirlik" prinsiplərinə söykənərək azərbaycançılıq düşüncəsinin əsasını qoymuşlar.

AXC dönəmində isə demokratik mətbuat milli dövlət quruculuğu prosesinin önündə getmişdir. Bu dövrdə milli mətbuat təkcə xalqımızın söz tribunası olmamış, həm də məmləkətin dil, din və mədəniyyəti ilə bağlı olan müqəddəs tarixi dəyərlərin salnaməsi və qoruyucusu olmuşdur. AXC-nin iflasından sonra sovet ağalığı zamanı da milli mətbuatımız kommunist ideologiyasının basqısı altında milli varlığa sədaqətini qoruyub saxlamışdır. Beləliklə, gündəlik informasiya mənbəyi, ictimai rəy tribunası və zaman keçdikcə tarixi salnaməyə çevrilən mətbuat bütünlüklə xidmət etdiyi xalqın taleyini yaşamışdır.

Bugünlərdə 105 yaşı tamam olan “Xalq qəzeti”nin əvvəlki 71 ildə “Kommunist” adı ilə fəaliyyətinin nəzərdən keçirilməsi göstərir ki, ilk iki dövrdə maarifçi və istiqlalçı ziyalılara arxalanaraq tarixi reallıqlara işıq tutan milli mətbuatımız sovet epoxasının ilk onilliklərində qadağa və təqiblərə də məruz qaldı. Milli jurnalistikamız “partiya-sovet mətbuatı” libası geydirilsə də, köksündə xalqımıza sədaqətini qoruyub saxladı.

Buna görə də taleyinə yazılan ağır repressiyalar ilə üz-üzə dayandı, bu qırğına ayna tutan mətbu vasitə olmaqla yanaşı, həm də özü onun qurbanlarından oldu. Təsadüfi deyil ki, ölkənin baş mətbuat orqanı olan “Kommunist” qəzetinə 1937-ci ildək rəhbərlik etmiş redaktorların hamısı, məslək və əqidəsindən asılı olmayaraq, millətçilik damğası ilə repressiyaya məruz qalmışdır. Onların ən ağır işgəncələr vermıəklə ölümə məhkum olunmaları milli mətbuatın xalq işinə sədaqət müqabilində hansı tale yaşamasının parlaq göstəricisidir.

Mətbuat tədqiqatçılarından olan mərhum professor Famil Mehdinin sovet dövründə yazdığı kimi, Azərbaycan jurnalistikası xalqımızın zülm, istismar, dini fanatizm, istibdad, tamahkarlıq, rüşvətxorluq, nadanlıq, yaltaqlıq, laqeydlik və s. qarşı mübarizənin canlı salnaməsi olmuşdur. Xalqımızın ictimai tərəqqi, mədəni inkişaf, milli-mənəvi dəyərləri qoruyub inkişaf etdirməklə bağlı tarixi mübarizəsində mətbuatın rolunu dəyərləndirməkdə bir əsrdən artıq dövrdə, fərqli ictimai gerçəkliklərdə fəaliyyət göstərmiş “Kommunist” – “Xalq qəzeti”nin mətbu irsi ən zəngin, eləcə də misilsiz bir məxəzdir.

Təəssüf ki, ötən dövrlərdə “Xalq qəzeti”nin timsalında milli mətbuatımızın tarixi inkişafda mütərəqqi mövqe və rolu birtərəfli dəyərləndirilmişdir. Sovet dövrünün əvvəllərində “Kommunist” qəzetinin AXC rəsmi nəşri olmuş “Azərbaycan” qəzetinin bazasında onun davamı olması gizlədilmişdir. Müstəqilliyin bərpasından sonra isə “Kommunist”in hüquqi varisi kimi fəaliyyətini davam etdirən “Xalq qəzeti” isə yeni bir qəzet kimi qəbul edilmişdir. Bu keçidlərdə ən acınacaqlısı odur ki, 71 illik “Kommunist” qəzeti sovet rejiminin törəməsi kimi qələmə verilir.

Həqiqət isə budur ki, “Xalq qəzeti” milli mətbuatımızın doğma platformasında “Azərbaycan” qəzetini əvəz etmiş, heç bir yabançı törəmə sayıla bilməyən “Kommunist” qəzetinin davamı olaraq fəaliyyət göstərən ümummilli səciyyəli avanqard nəşrdir.

Ola bilsin ki, “kommunist” adının cəmiyyətdə doğurduğu ağrılı təəssürat, rejimin qadağa və dəhşətlərinin tarixçəsi ictimai rəydə əvvəllər bu barədə obyektiv fikirləri sıxışdırmış, eyni zamanda, bu sahədə yaranan fikir plüralizminin ortaya atılmasının qarşısı alınmışdır. Amma əslində, redaksiyanın nə bugünkü kollektivi, nə də vaxtilə “Kommunist” qəzetində çalışan əməkdaşları da bu fikrin tərəfdarı olmamışlar. Ən azı ona görə ki, “Xalq qəzeti” 1991-ci il kommunist rejiminin son günlərində yenidən və bütünlüklə xalqa xidmət amalına qovuşmaqla nəşrini davam etdirəndə tarixi ənənələrinə sədaqətini zaman qarşısında bir daha sübut etmişdi. Bu proses zamanın sifarişi, yaddaşın bərpası kimi baş vermişdi.

Yaddaş isə xatırladır ki, 1919-cu il avqustun 29-da “Kommunist” adı ilə dərc olunmuş bir bülletenlə başlayan 105 illik tarixin izləri sənəd və mənbələrdə qorunub saxlanır. Bu gerçəyi tədqiqatçıların qənaətləri əsasında izləyək. O dövrdə Azərbaycanın birinci müstəqilliyi Rusiya bolşevik-kommunist hakimiyyəti tərəfindən devriləndə “Azərbaycan” qəzetinin də binası tutulmuş, dərhal giriş qapısındakı lövhə və qəzetin loqosu dəyişdirilmişdir. Türkcə "Azərbaycan" və rusca "Azerbaydjan" qəzetlərinin nəşri dayandırılmış, onların davamı olaraq “Kommunist” və “Bakinski raboçiy” qəzetləri nəşr edilmişdir.

Əslində, dəyişən qəzetin redaktoru Üzeyir Hacıbəyli, qəzetin adı və kommunist təbliğatına səfərbər edilən ideya istiqaməti idi. Hətta arxiv nüsxələrini belə müqayisə edəndə nə tərtibat işində, nə də texniki amillərdə fərqlər belə görünmür. “Azərbaycan” qəzetinin o vaxtkı həm yaradıcı, həm də texniki heyəti “Kommunist” qəzetinin “yeni” heyəti olmuş, “köhnə redaksiya”nın əməkdaşları yerində qalmışdı. Vaxtilə “Azərbaycan”ın əməkdaşları olan bir çox müəlliflər də fəaliyyətlərini “Kommunist”də davam etdirmiş və sonralar tədricən vəzifələrindən ya könüllü, ya da məcburən azad edilmişlər.

“Kommunist” adlı bir nömrəlik bülleten 1919-cu il avqustun 29-da, cümə günü bolşeviklər partiyasının gizli mətbəəsində 4 səhifədə (bəzi mənbələrdə 2 səhifə) çap olunmuşdur. Kommunist rəhbərlər “Kommunist”in “Azərbaycan” qəzetinin davamı olduğunu xalqdan gizlətmək üçün sonralar onun tarixini bu bir nömrəlik bülletenlə bağlamış, 1929-cu ildə isə həmin tarixi rəsmiləşdirərək “Kommunist” adlı qəzetin 10 illik yubileyini təntənə ilə qeyd etməklə öz “xidmətlərini” tarixə yazmışlar.

Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi nəşri “Azərbaycan” qəzetini “Kommunist”ləşdirməkdə müstəsna rol oynamış “Əliheydər Qarayev – Ruhulla Axundov” tandemi sonrakı illərdə qəzetin ilk dövlət qəzetimizə bağlılığını unutdurmaq üçün onun tarixini Azərbaycan Xalq Cümhuriyyətinin yaratdığı demokratik şəraitdə və mətbuat azadlığına verdiyi təminat zəminində 1919-cu il avqustun 29-da “Kommunist” adı ilə dərc olunmuş 1 nömrəlik bülletenlə bağlamışdır. Həqiqətdə isə rəsmi dövlət qəzeti kimi “Kommunist”in ilk nömrəsi 1920-ci il aprelin 30-da çıxmışdı.

Tarixi araşdırmalarda “Kommunist” qəzetinin ilk nömrəsinin kimin tərəfindən imzalandığı və redaktorunun kimliyi barəsində bəzi fikir ayrılıqları da var. Tədqiqatçı E.Məhərrəmov və A.Məhərrəmli “Kommunist” qəzetinin – (indiki “Xalq qəzeti”) yaranması və erkən fəaliyyəti dövrünə, xüsusilə də onun ərəb əlifbası ilə nəşr olunduğu dövrün (1919–1929-cu il yanvarın 1-nə kimi) tədqiqinə həsr olunmuş “Xalq qəzeti”nin (“Kommunist”) yaranması və inkişafı tarixindən. Nəşrin 90 illiyi münasibətilə” kitabında (2009) yazır ki, “Kommunist” qəzetinin tədqiqatçısı C.Məhərrəmliyə görə, qəzetin ilk redaktoru Ə.Qarayev olmuşdur, amma bu fikri təsdiqləyən hər hansı bir dəlilə istinad edilmir.

Azərbaycan Sovet Ensiklopediyasının I və III cildlərində, 1985-ci ildə nəşr edilmiş “Azərbaycan Kommunist Partiyasının tarixi oçerkləri”ndə, Ruhulla Axundovun “Seçilmiş əsərləri”inin 1977-ci il nəşrində, “Kommunist” qəzetinin 1969-cu ildə işıq üzü görmüş “Kommunist-50” yubiley nəşrində, AMEA-nın müxbir üzvü Qaraş Mədətovun 1983-cü ildə nəşr edilmiş “Ruhulla Axundov” kitabında və s. əsərlərdə göstərilir ki, “Kommunist” qəzetinin həmin sayının redaktoru Ruhulla Axundov olmuşdur. Tədqiqatçı E.Məhərrəmov da təsdiqləyir: ilk və sonrakı nömrələri müqayisə etdikdə, redaktə stilinə diqqət yetirdikdə, bu nəticəyə gəlmək olur ki, qəzetin ilk redaktoru Ruhulla Axundov olmuşdur. Bu faktı təsdiqləyən mənbələr sırasına birini də əlavə etmək istərdik. Qəzetin 10 illiyi münasibətilə hazırlanmış 29 avqust 1929-cu il 201-ci (2767)) sayda 1-ci səhifədə Ruhulla Axundovun fotosu verilir və həmin fotonun altında yazılır: “Kommunist”in 1-ci müdiri Ruhulla Axundov yoldaş. 1929-cu ilin avqustunda nəşr olunan qəzetdə gedən bu məlumata sonralar kiminsə etirazı və ya hansısa bir düzəliş tələbi olduğunu görmədik.

Nəhayət, 1929-cu ildə qəzetin əvvəlki əməkdaşları ilə yanaşı, Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsində böyük “əməyi” olan Əliheydər Qarayev, Həmid Sultanov, Ruhulla Axundov da sağ idilər. Ən azı, onlardan biri ölkənin bir nömrəli rəsmi qəzetində belə bir məlumatın getməsinə etiraz edərdilər.

Elmar Məhərrəmovun yazdığı kimi, “Kommunist” qəzetinin o vaxtkı redaktoru Ruhulla Axundovun imzası ilə Azərbaycan K(b)P MK-nın təbliğat-təşviqat şöbəsinə göndərilən geniş məlumatda onun “Kommunist” qəzetində işləməsi və hər hansı xidmət göstərməsi barədə cüzi eyhamın belə olmaması onun redaktor olmadığını da təsdiqləmir. Hər halda 10 il sonra nəşr edilən yubiley səhifəsində yer alan təqdimat Ruhulla Axundovun “Kommunist”in ilk redaktoru olmasının təsdiqi sayıla bilər.

Əsas məsələ odur ki, qəzetin rəsmi qəzet kimi müntəzəm nəşrinə 1920-ci il aprelin 30-dan başlanılıb. Qəzetin “Azərbaycan” qəzetinin Kolyubakinski, 37 (indiki N.Rəfibəyli küçəsi) ünvanda yerləşən redaksiyasında hazırlanıb və onun mətbəəsində çap edilib. Mətbəəni İnqilab Komitəsinin mətbəəsi adlandırıblar. Həmin mətbəəni 1921-ci il mayın 22-dən 4 №-li mətbəə, 1924-cü ilin avqustundan isə "III İnternasional mətbəəsi" adlandırıblar.

“Azərbaycan”ın yaradıcı heyətində çalışan Əbdürrəhim bəy Haqverdiyev, Cəfər Cabbarlı, Məmməd Səid Ordubadi, Böyükağa Talıblı, Hənifə Zeynallı, Vəli Xuluflu, Salman Mümtaz, Almaz İldırım, Əziz Şərif, Əfrasiyab Bədəlbəyli, Xudadad bəy Əzizbəyov və başqaları artıq “Kommunist” qəzetinin əməkdaşları idilər.

“Kommunist”in səhifələrində tanınmış şair və yazıçıların, publisistlərin yazılarının dərc olunması, eləcə də qəzetin əməkdaşı olan milli ruhlu jurnalist və publisistlərin fəaliyyətlərini də nəzərə alsaq, istər-istəməz belə bir nəticəyə gələ bilərik ki, Azərbaycan ədəbiyyatının və ziyalılarının ən yaxşı və tanınmış xadimləri, hər cür qadağa və təqiblərə baxmayaraq, bu qəzetin ətrafında birləşərək, onu Cənubi Qafqazın ən tanınmış nəşri kimi tanıda bildilər.

Qəzetlə yaxından əməkdaşlıq edən Nəriman Nərimanov, Qəzənfər Musabəyov, Həmid Sultanov, Tağı Şahbazi (Simurğ), Əliəkbər Heydərli, Zinətulla Nuşirəvanov, Hacıbaba Nəzərli, Əli Nazim, Cahangir Nağıyev, Mahmud Xanbudaqov, Əyyub Xanbudaqov, Mustafa Quliyev, Rzaqulu Nəcəfov, Müseyib Şahbazov, Ənvər Qasımzadə və başqaları dövrlərinin məşhur və mötəbər dövlət xadimləri idilər.

Azərbaycan ziyalılarının görkəmli nümayəndələri – Hüseyn Cavid, Üzeyir bəy Hacıbəyli, Cəlil Məmmədquluzadə, Bəkir Çobanzadə, Salman Mümtaz, Əhməd Rəcəbli, Ömər Faiq Nemanzadə, Əliağa Vahid, Əliabbas Müznib Mütəllibzadə həmişə çox ciddi təqiblərə məruz qalsalar da, “Kommunist” qəzeti ilə əməkdaşlıqdan çəkinməmişlər.

Heç şübhəsiz, bunun nəticəsi idi ki, qəzetin fəaliyyəti dəfələrlə kommunist rəhbərlərin mötəbər iclaslarında müzakirə edilmiş, hətta “qəzetdəki millətçilik yuvası”nın dağıdılması partiya sənədlərində və yekdilliklə qəbul edilmiş qərarlarda birmənalı olaraq əksini tapmışdır. Bir faktı xüsusi vurğulamağa ehtiyac var ki, 20-ci illərin əvvəllərində “Kommunist” qəzetinin redaktorları çox tez-tez vəzifələrindən uzaqlaşdırılmış, təkcə fəaliyyətinin ilk 2 ilində 8 dəfə redaktor dəyişikliyi edilmişdir. Bunun bir səbəbi yüksək dairələrdə mövcud olan intriqalarla bağlı idisə, digər önəmli bir səbəbi qəzetin kommunist ideallarının təbliğatçısı olduğu kimi, həm də uzun illərdən bəri formalaşmış milli təmayüldən də uzaq dayanmamaqla bağlı olmuşdur.

Yalançı milli suverenlik şüarları altında dövlət müstəqilliyinə son qoyulması, passiv də olsa, qəzetdə etirazla qarşılanmış, kommunist rəhbərlik isə belə müəllifləri sərt cəzalandırmışdır. İlk illərdə “qəzetdə millətçilik yuvası”nın mövcudluğu ilə bağlı bir neçə dəfə partiya qərarı da qəbul edilmişdir. Göründüyü kimi, redaktorlar tez-tez dəyişdirilsə də, milli təmayülü yox etmək mümkün olmamışdır.


آذربایجان


قومونیست

Təkcə sovet dövrünün tədqiqatlarında yox, həm də müstəqillik dövrünün elmi araşdırmalarında göstərilir ki, 1921-1928-ci illərdə ölkəmizin xalq təsərrüfatının bərpası üzrə bir çox məsələlərin həllində, iqtisadiyyat məsələlərinin təbliğində AK(b)P MK və BK-nın orqanı olan “Kommunist” qəzeti az rol oynamamışdır. Yarandığı ilk gündən gərgin vəziyyətdə ölkədə qalmış vətənpərvər əhval-ruhiyyəli ziyalıları ətrafında cəmləşdirən “Kommunist” vətənimizin xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsi, dövlət orqanlarının və mətbuatın nüfuzunun yüksəldilməsi uğrunda yorulmadan çalışmışdır.

Təbii ki, öz dövrü üçün birinci rəsmi partiya və dövlət qəzeti olan “Kommunist” kütlənin siyasi və mənəvi tərbiyəçisi kimi fəaliyyət göstərmişdir. Bu qəzet həmişə tarixi hadisələrin mərkəzində olmuş, xalq kütlələrinə müsbət təsir göstərmiş, respublikanın gündəlik həyatında baş verən bütün məsələlərin həllində siyasi rəhbərliyin mühüm təbliğat vasitəsi olmuşdur. Bir məsələni unutmaq olmaz ki, bu qəzet orqanı olduğu rəhbər təşkilatın siyasətini yerinə yetirməyə borclu idi, onun vəsaiti ilə nəşr olunurdu. Lakin qəzet kollektivi milli təəssübkeşliyini heç vaxt unutmamış və həmişə bunun cəzasını çəkmişdir.

Kommunist rejiminin süqutundan sonra ifrat millətçi təmayüllər bu sistemin Azərbaycanda ən böyük dayağının “Kommunist” qəzeti olduğunu gündəmə gətirməyə çalışmış, lakin qəzetin tarixinə kölgə sala bilməmişlər. Nə yaxşı ki, Azərbaycanın dövlət müstəqilliyini məhv olmaqdan qurtaran ulu öndər Heydər Əliyevin “Xalq qəzeti” haqqında dedikləri özlərini “xalqın milli dəyərlərinin qoruyucusu adlandıran”ların ağzını yummuşdur.

“Kommunist”in varisi olan “Xalq qəzeti” 1994-cü il avqustun 29-da 75 yaşını bayram edirdi və Prezident Heydər Əliyev “Xalq qəzeti”nin redaksiyasına göndərdiyi rəsmi məktubla redaksiya əməkdaşlarını və qəzetin yubileyini təbrik etdi. Bu məktubda kommunist rejimi dövründə nəşr edilən bir mətbuat orqanının fəaliyyəti olduqca obyektiv və ədalətli şəkildə dəyərləndirilir, bu mətbu orqanın tariximizin önəmli bir parçası olduğu vurğulanırdı. Ulu öndər kollektivə gələcək fəaliyyətində uğurlar arzulayırdı.

Heydər Əliyevin "Xalq qəzeti"nin 75 illiyi münasibətilə redaksiya kollektivinə göndərdiyi məktubda deyilirdi: “Respublikada qəzetçilik ənənələrinin formalaşmasında, jurnalistikamızın inkişafında "Xalq qəzeti"nin xidmətləri xüsusi qeyd olunmalıdır. Bugünkü çoxsəsli, rəngarəng Azərbaycan mətbuatının bir çox görkəmli nümayəndələri bu qəzetin yaradıcılıq məktəbini keçmişlər. Müstəqilliyimizin qazanılmasından sonra da "Xalq qəzeti" respublikamızın ictimai həyatında baş verən hadisələrə cəsarətlə müdaxilə etmiş, bir çox problemlərin aşkarlanmasında mühüm rol oynamışdır”.

Müstəqil dövlətimizin memarı və qurucusu bu dəyərlə ölkənin ən yaşlı gündəlik anadilli nəşrinin keçid dövründə zədələnmiş yüksək statusunu bərpa etdi. Ötən 30 ildə “Xalq qəzeti” Ulu öndərin verdiyi önəm və dəstəklə müstəqilliyimizin möhkəmlənməsinə, ölkəmizdə misilsiz uğurlar qazanılmasına mötəbər informasiya dəstəyi vermiş, xalq işinə sadiqliyini yeni dövrdə də sübuta yetirmişdir. 105 yaşlı avanqard qəzet Heydər Əliyev ideyalarına sədaqətlə xidmətini bu gün davam etdirir.

**Namiq ƏHMƏDOV**
**XQ**

# Vətən müharibəsinin fəlsəfəsi

**II MƏQALƏ**

**İstənilən müharibəyə qələbə əzmi olmadan başlamaq fəlakətdir.**

**Duqlas MAKARTUR**
**ABŞ generalı**

## Orta əsrlər və müasir təsəvvürlər

XII-XIII əsrlərdə yaşamış Raymund de Pentiforta ədalətli müharibənin beş şərtini irəli sürmüşdür (o, həm də Dominikan ordeninin generalı olmuşdur): müharibənin məqsədi nailiyyətin qorunması olmalıdır; müharibə elan edən insan sülhə necə nail olmaq üzərində daim düşünməlidir; müharibə elan edən insan dünyəvi olmalıdır (müasir düşüncəli və hüquqa tam əməl edən); müharibə dövlət başçısı tərəfindən elan edilməlidir; müharibə nifrətsiz və intiqam almağa uymadan aparılmalıdır.

S.Lazar Stenford Universitetinin ensiklopediyasında müharibə haqqında fəlsəfi təsəvvürləri lakonik ifadə etmişdir. O yazır ki, müasir mərhələdə müharibənin qiymətləndirilməsinə ikili yanaşma vardır. Bir qrup filosof, ümumiyyətlə, müharibəni etik, mənəvi-əxlaqi kontekstdə izah etməyin anlamı olmadığı qənaətindədir. Onların mövqeyinə görə, hər bir müharibə ədalətsizdir. Bu mövqedə olanları "realistlər" adlandırırlar.

Başqa mövqedə olanlara isə "pasifistlər" deyirlər. "Pasifizm" latınca "pacificus" sözündən olub, "sülhyaradan" deməkdir. Pasifizm zorakılığın hər növünə qarşı müqavimət ideologiyasıdır. Pasifistlər müharibəyə mənəvi-əxlaqi və etik qiymətin verilməsini mümkün hesab edirlər. Lakin onlar da müharibəni ümumilikdə antimənəvi fenomen adlandırırlar.

Bunlarla yanaşı, indi "ədalətli müharibə nəzəriyyəsi" adlı istiqamət də intensiv inkişaf etdirilir. Bu təlim çərçivəsində müharibənin bir sıra növlərinə mənəvi haqq qazandırmağı doğru sayırlar. Beynəlxalq hüquqda buna uyğun maddələr vardır. Cenevrə Konvensiyasında da onlar mövcuddur. Yuxarıda vurğuladığımız kimi, Aristotel, Siseron, Avqustin, Akvinski və digər filosoflar da bu və ya digər anlamda "ədalətli müharibə" anlayışını qəbul etmişlər.

Müasir filosoflardan amerikan Con Roulz (2002-ci ildə dünyasını dəyişmişdir) ədalətli müharibənin iki əsas şərtini açıqlayır: 1) dövlət və ya millət özünü müdafiə edir; 2) insan haqlarının kobudcasına və kütləvi pozulmasının qarşısı alınır.

Beləliklə, müharibə haqqında qədimdən formalaşmağa başlayan fəlsəfi fikirlər tarixi təkamülə uğrayaraq, müasir mərhələdə bir neçə anlam kəsb etmişdir. Onların sırasında ədalətli və ədalətsiz müharibə ifadələri hazırda çox aktualdır. Fəlsəfi yanaşmada ədalətliliyin müharibə kontekstində mənəvi, əxlaqi, sosial, ideoloji, siyasi aspektləri ilə yanaşı, hüquqi tərəfi də ciddi yer tutmuşdur.

Deməli, indi ədalətli müharibəni sosial, mənəvi-əxlaqi məqsəd, həyata keçirilmə mexanizmləri və üsulları ilə yanaşı, hüquqi məqamlara görə də müəyyən etmək mümkündür. Və bu məqamda qarşıya üç mühüm faktor çıxır. Onların üçü də ədalətli müharibənin müasir anlamı üçün zəruri olan kriteriyalarla bağlıdır. Biz həmin kriteriyaları aşağıdakı kimi müəyyən edirik:

Birincisi, müharibənin ədalətliliyi ölkədaxili inklüziv legitimliklə sıx bağlıdır.

İkincisi, müharibənin ölkədaxili şərtlər əsasında ədalətliliyinin müəyyən edilməsi mütləq şəkildə beynəlxalq miqyasda humanitarlıq və hüquqiliklə məzmun və mahiyyətcə ziddiyyət olmamalı, yəni, uyğunluq təşkil etməlidir.

Üçüncüsü, ədalətli müharibə kütləvi surətdə insan hüquqlarının pozulmasının qarşısını almalı və cəmiyyətin ləyaqətini bərpa etməlidir.

II Qarabağ savaşına bu üç kriteriyanın işığında baxanda çox maraqlı və əhəmiyyətli fəlsəfi qənaətlər əldə etmək imkanı yaranır. Lakin öncə "Vətən müharibəsi" anlayışına fəlsəfi nəzər salaq.

## Vətən müharibəsi

Elmi ədəbiyyatda "Vətən müharibəsi" ifadəsini, adətən, Rusiyada işlənən termin kimi təqdim edirlər. Burada müəyyən dərəcədə həqiqət payı vardır. Çünki SSRİ-nin Almaniya üzərində qələbəsi ilə nəticələnən savaş, həqiqətən də, Böyük Vətən müharibəsi adlandırıla bilər. Həmin savaşda sovetlərin müharibədə əsas məqsədi torpaqları işğalçılardan azad etməkdən ibarət idi. Bütün xalq işğalçıya qarşı vuruşurdu. Bu mənada 1941-1945-ci illər müharibəsi həm də azadlıq uğrunda savaş kimi qəbul edilir.

Bundan başqa, Vətən müharibəsi kateqoriyasına 1812-ci ildə Napoleon ordusuna qarşı Rusiyanın savaşını, 1950-1953-cü il Koreya azadlıq savaşını, 1991-1995-ci il Xorvatiyanın müstəqillik uğrunda apardığı müharibəni və II Qarabağ savaşını aid edirlər. Bu müharibələrin hamısını birləşdirən xüsusiyyətlər – öz torpaqlarını işğaldan azad etmək, müstəqilliyi təmin etmək, suverenliyi tam təmin etmək, ərazi bütövlüyünü bərpa etmək və insan haqlarının kütləvi şəkildə pozulması prosesinin qarşısını almaq... Vurğulanan bu faktorları müasir mərhələdə Vətən müharibəsinin ümumi xüsusiyyətləri kimi qəbul etmək olar.

Lakin bu tərifin kifayətedici olmadığını da deməliyik. Çünki ümumi anlamda Vətən müharibəsinin hər bir konkret halda özünəxas əlamətləri olur. Onlar müharibənin səbəblərinə, aparılma üsulları və mexanizmlərinə, hərbi-ideoloji özəlliklərinə, qarşıya qoyulan məqsədə və alınan nəticələrə aiddirlər. Buna görə də Vətən müharibəsini "xalqın öz Vətəni uğrunda yadelli işğalçılara qarşı fədakar mübarizəsi kimi" qəbul etməklə bərabər, savaşın müxtəlif aspektlərinin dərindən və əhatəli araşdırılması da zəruridir.

Məsələn, II Qarabağ savaşında Azərbaycan cəmiyyəti, hakimiyyəti və ordusu arasında özünü göstərən monolitlik tarixi nümunədir. Bu istiqamət araşdırılmalıdır. Azərbaycan Prezidentinin Vətən müharibəsində dövlət başçısı–lider–Ali Baş Komandan keyfiyyətlərini bir-biri ilə tam uyğunlaşdıraraq qalib gəlməsi xüsusi fəlsəfi aktuallıq kəsb edir. Bu nümunə bütün dünya üçün siyasi-nəzəri əhəmiyyət daşıyır.

Azərbaycanlıların vətənpərvərliyi, vətən sevgisi və həmrəyliyinin Vətən müharibəsində təzahürünün konkret məzmunu aydınlaşmalıdır. II Qarabağ müharibəsində şəhidlik və qaziliyin fəlsəfəsi araşdırılmalıdır. Vətən müharibəsində xalq–hakimiyyət birliyinin bəhrələri fəlsəfi tədqiq edilməlidir. Vətən müharibəsində əsrlərdir



türklərin haqlarının pozulması prosesinin qarşısının alınmasının tarixi, hüquqi, siyasi, mənəvi və hərbi hadisə olması fəlsəfi əsaslandırılmalıdır və s.

Deməli, II Qarabağ savaşı Vətən müharibəsi olaraq özəl xüsusiyyətlərə malikdir ki, onların aydınlaşdırılması cəmiyyət üçün çox aktualdır. Həmin xüsusiyyətlər sistemli xarakter daşıyır. Onların fəlsəfi təhlili təşkiledici elementlərin qarşılıqlı əlaqəsində araşdırıla bilər. Eyni zamanda, ayrılıqda tədqiqləri mümkündür. Biz əvvəlcə, yuxarıda vurğuladığımız iki prinsipin işığında Vətən müharibəsinin ədalətli müharibə kimi bir sıra məqamlarına nəzər yetirək.

## Ölkədaxili inklüziv legitimlik

Vətən müharibəsi kontekstində "inklüziv legitimlik" dedikdə aşağıdakıları nəzərdə tuturuq. İnklüziv legitimlik liderin, hakimiyyətin və cəmiyyətin aparılan müharibəyə eyni yanaşmasını özündə ifadə edir. Lider-hakimiyyət (dövlət başçısının komandası kimi) - cəmiyyətin bütün kəsimlərinin aparılan müharibəni ədalətli, müstəqillik, suverenlik, ərazi bütövlüyünün təmini, milli ləyaqətin bərpası və hüquqa uyğun mübarizə kimi qəbul etməsi inklüziv legitimlikdir.

Onun üç aspektini ayırırıq. Birincisi, Lider–dövlət başçısı–Ali Baş Komandanın ədalətli savaş apardığına tam əminliyi. İkincisi, cəmiyyətin bütün kəsimlərinin aparılan savaşa eyni mövqedən baxması, yəni onu ədalətli hesab etməsi. Üçüncüsü, müharibəyə münasibətdə dövlət başçısı, onun komandası, ordu və xalqın eyni mövqedə olması və vahid məqsədə – qələbəyə nail olmağı pozulan ədalətin bərpası kimi qəbul etməsi.

Vətən müharibəsinin fəlsəfəsi konkekstində bu, çox vacib məsələdir. Xüsusilə, II Qarabağ savaşının Vətən uğrunda mübarizə kimi fəlsəfəsi baxımından inklüziv legitimlik aparıcı yer tutur. Onun bir neçə səbəbi üzərində dayanmağa çalışacağıq. Məsələ Azərbaycanın XX əsrin son onilliyində qazandığı müstəqilliyə müxtəlif qüvvələrin və onların ölkədə olan əlaltılarının dağıdıcı reaksiyası ilə bağlıdır. Çünki həmin qüvvələr birləşib Azərbaycan cəmiyyətinin bütövlüyünü altı isitiqamətdə pozmağa başladılar.

Birincisi, mənəvi-əxlaqi dayanıqlığa "tektonik zərbələr" vurdular. Onun əlamətləri azərbaycanlıların malik olduqları mənəvi-əxlaqi dəyərləri köhnəliyin, geridəqalmışlığın və savadsızlığın əlamətləri kimi qələmə vermələri ilə bağlı idi. Bunun fonunda Azərbaycanın dilinə, dininə, mədəniyyət ənənəsinə aşağılayıcı münasibət getdikcə artırdı. Bu, cəmiyyətin müəyyən kəsimlərinə mənəvi ziyan verdi.

İkincisi, siyasi-ideoloji bütövlüyü pozmağa çalışdılar. Çox təhlükəli istiqamət idi. O dövrdə (1991-1992-ci illər) siyasi idarəetmədə özünü göstərən naşılıq həmin prosesin dağıdıcı və bölücü təsirini artırdı. Cəmiyyətdə vahid siyasi mövqe seçimi və birləşdirici ideoloji konsept meydana gəlmədi.

Üçüncüsü, azərbaycanlıların ordu yaratmaq qabiliyyətlərinə şübhələr oyatdılar. Bu prosesə o zamankı rəhbərliyin "sovet ordusu kufayətdir" özünüaldatma məntiqi də neqativ təsir etməkdə idi. Ermənistanın havadarlarının yardımı ilə davamlı hərbi təcavüzü qarşısında hərbi qruplar birləşmək əvəzinə bir-biri ilə intriqalara və ixtilaflara girdilər. Bu, ümumiyyətlə, azərbaycanlıların nizami, müasir və döyüşkən ordu yarada bilmək qabiliyyətinin olmadığı kimi çox təhlükəli bir sindrom yaratmışdı.

Dördüncüsü, birləşdirici ideologiyanın yoxluğu ilə bərabər, cəmiyyətdə həmrəyliyi təmin etmənin konkret konsepti yox idi. Bunun fonunda kənardan cəmiyyətdə qarşıdurma yaratmaq və müxtəlif sferalar üzrə ayrı-seçkiliyi gücləndirmək cəhdləri ara vermirdi.

Beşincisi, Azərbaycanda legitim idarəetmə institutlarının yaradılmasının əlamətləri görünmürdü. İşləyən dövlət institutlarının vahid və konkret məqsədi görünmürdü.

Altıncısı, ölkənin milli ideyası müəyyən edilməmişdi və sistemli strateji inkşaf konsepsiyası hazırlanmamışdı.

1993-cü ilin ikinci yarısına qədər vüsət alan həmin altı dağıdıcı istiqamət, bütövlükdə, dövlətin və cəmiyyətin mentalitetini korlamaq kimi olduqca təhlükəli tendensiya meydana gətirmişdi. Dünyanın tarixi təcrübəi göstərir ki, bu kimi neqativ prosesləri müsbət məcraya yönəldən proseslərlə əvəz etmək çox çətin məsələdir.

Beləliklə, xarici hərbi, ideoloji və mənəvi təcavüz nəticəsində Azərbaycan toplumunda əsrlərlə bütövləşdirici rol oynayan dəyərləri tədricən gözdən salır, onların real birləşdirici funksiya yerinə yetirməsinə çoxsaylı əngəllər törədirdilər. Bütün bunlar dövlət üçün çox aktual olan bütövlüyü və məqsədyönlülüyü saxlamaqla inkişaf etmək imkanlarını çox məhdudlaşdırırdı. O dövrdə kimsə Qarabağ savaşında qalib gələ biləcəyimizin və bunu necə etməyin formulunu bilmirdi, bəlkə də təsəvvür etmirdi. Müəyyən mənada bədbinlik və psixoloji-siyasi apatiya yaranmışdı.

Bu vəziyyətdən qurtulmadan işğal altında olan torpaqları azad etməkdən danışmaq absurd məsələ idi. Deməli, öncə bu dağıdıcı prosesi dayandırmaq, sonra cəmiyyəti müstəqilliyin tələblərinə uyğun toparlamaq və nəhayət, sarsıdıcı zərbə ilə düşməni məğlub etmək lazım idi. Qurtuluş yolu bundan ibarət idi.

Ancaq əsas məsələ də ondan ibarətdir ki, bütün bu çətin məsələləri inklüziv və sistemli olaraq necə həll etmək olardı? Cəmiyyət bütövləşmədən, hakimiyyət-xalq birliyi yaradılmadan, vətəndaşlarda Vətən sevgisini stimullaşdırmadan Vətən müharibəsindən danışmaq tamamilə yersiz idi.

Bizcə, II Qarabağ savaşını Vətən müharibəsi edən, bu prosesin təməlində bərqərar olmuş və illərlə vurğulanan dağıdıcı tendensiyaların önünü kəsərək, əvəzində dövlətçilik və milli maraqlar üçün müsbət rol oynayan yeni dəyərlər yaratmaq kursu dayanır. Bizim Vətən müharibəmizin fəlsəfəsinin bünövrəsini həmin kursun həm konsepsiya kimi hazırlanması, həm də sürətlə həyata keçirilməsi təşkil edir!

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Erməni millətçiliyinin təməl prinsipləri

**(əvvəli qəzetin 16, 17, 18, 21, 22 avqust saylarında)**

Tsexakronutyun yalnız ermənilərin torpaq üçün vuruşmağa hazır olmasını tələb etmir, həm də daha irəli gedərək, ermənilərdən türklərə qarşı mərhəmətsiz intiqam tələb edir. Njde belə yazır: "Bizim aramızdakı düşmənçilik tarixi deyil, daha çox biolojidir və biz bu xalqı (türkləri – red.) hansı üsulla olursa-olsun, yox etməliyik". Bunun artıq faşizm olduğunu Njde özü də danmır. Təlimin bu nöqtələrini şərh edərkən deyir: "İtalyanların faşizmi var, almanların nasizmi, yəhudilərin isə sionizmi... Ermənilərin isə tsexakronu var ..."

Tsexakron təlimi aşağıdakı kimi ifadə edilir: "Mən öz soyumu (tsex) bilirəm, mən öz nəslimə güvənirəm, mənim soyum Allaha daha yaxındır, ari irqdir, mən cismimdə Tsexakronu daşıyıram".

Bu cəhətdən Tsexakron faşizmlə eyniləşir. Maraqlıdır ki, eyni illərdə İtaliyada faşizm, Almaniyada isə milli sosializm düşüncəsi kütləyə sirayət etməyə başlamışdı. Başqa cür desək, Ermənistan o dövrdə müstəqil dövlət kimi qalsaydı, bu gün bir erməni faşist quruluşundan bəhs edəcəkdik.

Bəli, bugünkü erməni dövləti XXI əsrin diqtə etdiyi meyarlara əməl etmək, ona uyğunlaşmaq istəmir. Çünki bir çox məsələlərə münasibətdə yenə faşist yanaşmanı açıq görmək mümkündür. Əgər ermənilərin dövləti bu gün də Njdenin məlum təlimi ilə yönləndirilirsə, deməli, onlar nasional sosializmdən uzaqlaşa bilməyiblər. Ermənistan Respublikaçılar Partiyasının ermənicə və rusca çap etdirdiyi "Garegin Njde və onun təlimi" (İrəvan-2004) kitabında yazılır ki, II Dünya müharibəsi başlanarkən Njde bilirdi ki, Avropa ölkələrində antierməni ovqat güclənib və almanlarda belə bir qənaət vardı ki, ermənilər Almaniyanın düşmənlərinə yardım edərlər.



Ermənilərin də yəhudilərin aqibətini təkrarlayacağından ehtiyatlanan Njde hərəkətə keçərək almanlarla əlaqə yaradır və ermənilərin Bolqarıstan və Rumıniyadan qovulub çıxarılmasının qarşısını alır. Rumıniya baş naziri Antoneskunun erməniləri toplu halında yaşadıqları yerlərdən çıxarılmasına dair əmri vardı. 1942-ci ildə Berlinə gedən Njde özü ilə ermənilərin almanlara sədaqətli olacaqlarını "sübut edən" materiallar aparmışdı. Həmin materiallar sonradan onun həbsinə və 25 il cəza almasına səbəb oldu.

Njde Berlində Dro ilə də görüşmüşdü. Onlar SSRİ-yə qarşı vuruşmaq üçün Erməni Hərbi Legionunu birlikdə yaratmışdılar. Dro da almanlarla əməkdaşlıq edən erməni hərbçilərdən biri idi. Həbsxanadan çıxandan sonra isə Njde SSRİ rəhbərliyinə məktub yazır. 1947-ci ildə, o, sovet hökumətinin Türkiyəyə soyuq münasibətindən yararlanır və təklif edir ki, "xaricdə yaşayan ermənilərin hərbi-siyasi təşkilatı" yaradılsın və o, Türkiyənin şərqindəki vilayətləri SSRİ-yə (Sovet Ermənistanına–red.) birləşdirsin. Amma Njdenin avantürist təklifi qəbul olunmur. Sovet hökuməti ona qarşı vuruşmuş cinayətkarla əməkdaşlıq etmir. "Qaregin Njde və KQB" adlı kitabının müəllifi Ustyan qeyd edir ki, "Njdenin məramı Sovetlərin məqsədi ilə üst-üstə düşmür".

Njdenin Tsexakron təliminə görə, hər bir erməni bütün həyatı boyunca "Qərbi Ermənistan"ın (Şərqi Anadolu torpaqları) türklərin əlindən alınmasına çalışmalıdır. Onun 1933-cü ildə yaratdığı "Tsexakron Uxter" adlı qurum, guya, bu ideyanın həyata keçməsi üçün çalışacaqdı. "Tsexakron Uxter" erməni gənclər təşkilatının nüvəsi olmalıydı. Onun özünün nizamnaməsi və proqramı hazırlanmışdı. "Tsexakron Uxter"in devizi belə idi: "Ermənistan ermənilərə!" Bu şüar sonralar həyata keçirilərək Ermənistanı monoetnik dövlətə çevirdi. Hazırda ölkədə başqa xalqa mənsub bir nəfərin belə yaşamaması dediyimizin sübutudur. Qətiyyətlə deyə bilərik ki, hazırda Ermənistanın monoetnik bir dövlətə çevrilməsinin əsas səbəblərindən biri məhz Njdenin irqçi təlimidir.

Njde "Mən Yer kürəsindəki ilahi izləri öz soyumda oxudum, gördüm, öpdüm, təzim etdim və Tsexakrona çevrildim" deyərkən ermənilərin ilahi soydan gəldiyini iddia edir. Hətta, daha böyük iddia irəli sürür: "Soy Allah kimi birincidir. Erməni soyu da Allah kimi bütün zamanların şahididir. O, əbədi olaraq ermənidir, Allahın ortağıdr".

Ermənistanda Andranik də Njde kimi bu gün bütün ermənilərin qəhrəmanı hesab edilir. Onlara bənzəməyə çalışan müasir andranikçilər, njdeçilər onlardan qəddarlığı, adam qanı ilə qidalanmağı yaxşı mənimsəmişlər. Andranikin müsəlman türklərə qarşı bədnam əməlləri 1990-cı illərdə Qarabağda təkrarlandı. Xocalıda baş verənlər Şərqi Anadoluda, Qafqazda, Cənubi Azərbaycanda – Xoyda, Səlmasda, Urmiyada və başqa yerlərdə törədilən vəhşiliklərin təkrarı və davamı idi. Sadəcə, meydandakı aktyorlar fərqli fərdlər idi. Bir də tarix dəyişmişdi.

"Onlar 1992-ci ilin fevralın 26-sı Xocalı soyqırımını Andranikin ad gününə hədiyyə etdilər". Ermənistan mətbuatı bunu açıqca yazır. Andranikin davamçısı digər bir terrorçu – Monte Melkonyanın Birinci Qarabağ savaşındakı "fəaliyyəti" göstərdi ki, onun davamçıları hələ çox qan tökəcəklər. Məhz fevralın 25-dən 26-na keşən gecə Xocalı soyqırımı planı göstərir ki, bu faciə təsadüfən törədilməyib.

***Qfi a ÇAXMAQLI,***
***XQ-nin Türkiyə müxbiri***

# Şərq–Qərb dəhlizində Azərbaycanın rolu artır

**Azərbaycan ilə Çin və Mərkəzi Asiya ölkələri arasında əməkdaşlığın genişləndirilməsində nəqliyyat kommunikasiyalarının, logistik dəhlizlərin inkişafı xüsusi əhəmiyyət kəsb edir. Onlar Türkiyə və Avropa bazarlarına çıxış yollarını diversifikasiya etməyə, yükdaşımalara çəkilən xərclərə və vaxta qənaət etməyə imkan verir.**




Söhbət, ilk növbədə, Çindən Qazaxıstana, Xəzər dənizi, Azərbaycan və Gürcüstan vasitəsilə Avropaya uzanan Şərq–Qərb və ya Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutundan gedir. Bu marşrutda yüklərin əsas hissəsi dəmir yolu nəqliyyatı ilə həyata keçirilir. Yüklər Avropaya iki istiqamət üzrə nəql edilir: Gürcüstanın Poti və Batumi limanları vasitəsi və Bakı–Tbilisi–Qars dəmir yolu ilə.

Qeyd edək ki, Bakı–Tbilisi–Qars dəmir yolu Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı yoldur. Uzunluğu 850 kilometr olan yolun 504 kilometri Azərbaycan ərazisindən keçir. Bu gün yolun yenidən qurulması və modernləşdirilməsi həyata keçirilir.

Dəhlizdə yüklər dəmir yolu ilə yanaşı, avtomobil yolları ilə də daşınır. Azərbaycan və Gürcüstan ərazisindən keçən avtomobil yolları bu zəncirin aparıcı həlqəsinə çevrilib. Son illər dəhlizin yük ötürmə qabiliyyətini artırmaq üçün mühüm nəqliyyat layihələri həyata keçirilir. Məsələn, Bakı–Qazax–Gürcüstan ilə dövlət sərhədi magistral avtomobil yolu yenidən qurulub. Bakıdan Gəncəyədək yol genişləndirilib. Sonra magistral avtomobil yolunun Gəncə–Qazax–Gürcüstan ilə dövlət sərhədi (130,15 kilometr) hissəsi 4 zolağa qədər genişləndirilib.

Hazırda Bakı–Qazax–Gürcüstan dövlət sərhədi magistral avtomobil yolu Şərqdən Qərbə və əks istiqamətdə beynəlxalq və daxili yükdaşımaların artmasında önəmli rol oynayır. Həm də yolun 4 hərəkət zolağına qədər genişləndirilməsi vətəndaşların rahat və təhlükəsiz gediş-gəlişini təmin edir.

Gürcüstanla sərhəddən isə Şərq–Qərb dəhlizinin bu ölkədən keçən hissəsi başlayır. Dəhliz Azərbaycanın "Qırmızı körpü" sərhəd-keçid məntəqəsindən başlayıb Türkiyə ilə sərhəddəki "Sarpi" sərhəd-keçid məntəqəsində başa çatır.

Hazırda Şərq–Qərb Beynəlxalq Nəqliyyat Dəhlizinin Gürcüstanın Xaşuri rayonundan keçən hissəsi və Xaşuri dairəvi yolu yenidən tikilərək istifadəyə verilib. Yeni yol ötürücülük qabiliyyətini artırmaqla yanaşı, hərəkətin sürətliyini də təmin edir. Müasir yol təhlükəsizliyi standartları, o cümlədən işıqlandırma sistemi nəzərə alınmaqla dəhlizin Rikoti tunelinə paralel olaraq 1800 metr uzunluğunda yeni tunelin tikintisi də başa çatdırılıb. Marşrutla (E60) hərəkət edən avtomobillər artıq Zestafoniyə daxil olmur, dolama yoldan istifadə edirlər. Magistral yol boyu vaxta qənaət edilir.

Şərq–Qərb dəhlizi çərçivəsində Gürcüstan ərazisindən Azərbaycan və Ermənistan sərhədlərinə qədər avtomobil yollarının tikintisi də nəzərdə tutulur. Bu məqsədlə Gürcüstanın Regional İnkişaf və İnfrastruktur Nazirliyinin Avtomobil Yolları Departamenti tender elan edib. Söhbət Gürcüstanı Azərbaycan və Ermənistan sərhədləri ilə birləşdirən Şərq–Qərb və Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin tərkib hissəsi olan Rustavi–Qırmızı körpü və Algeti–Sadaxlo yollarının inşasından gedir. Tikinti işlərinə 2025-ci ildə başlanacaq və 30 ay sonra mərhələlərlə başa çatdırılacaq.

Layihə Avropa İnvestisiya Bankı (AİB) və Gürcüstan hökumətinin birgə maliyyələşdirməsi ilə həyata keçiriləcək və AİB bunun üçün 250 milyon avro kredit ayırıb. Şərq–Qərb magistralında yolun bütün hissələrinin tikintisi başa çatdıqdan sonra Qırmızı körpüdən (Azərbaycanla sərhəd) Sarpiyə (Türkiyə ilə sərhəd) indi olduğu kimi 8 saata deyil, 4-4,5 saata getmək mümkün olacaq.

Beləliklə, həm Azərbaycanda, həm də Gürcüstanda yol infrastruktur layihələrinin uğurla həyata keçirilməsi Şərq–Qərb dəhlizinin potensialının artırılmasına, gələcəkdə ondan istifadənin genişləndirilməsinə töhfə verir. Bu da regiondakı böyük nəqliyyat-kommunikasiya layihələrinin aparıcı qüvvəsi olan hər 2 ölkənin strateji mövqeyinin daha da möhkəmlənməsinə və tranzit yükdaşımalardan əldə etdiyi gəlirlərin artmasına şərait yaradır. Azərbaycan və Gürcüstanın ixrac potensialının tam həcmdə realizə olunması üçün real imkanlar açır. Dəhliz Avropa, Mərkəzi Asiya, eləcə də Rusiya ilə Yaxın Şərq ölkələri arasında yük daşımalarında hər 2 ölkənin – Azərbaycan və Gürcüstanın beynəlxalq nəqliyyat dəhlizindəki rolunu artırmaqla yanaşı, iqtisadi inkişafını da stimullaşdırır.

*Pünhan ƏFƏNDİYEV*
*XQ*

# "Kuklalar"ın səhnə sərgüzəştləri



**Azərbaycan Dövlət Kukla Teatrı 93-cü mövsümdə maraqlı səhnə təqdimatları, səfər layihələri və sosial-mədəni aksiyalar gerçəkləşdirəcək. Ənənəyə uyğun olaraq, sənət ocağı plandan kənar səhnə əsərləri də hazırlayacaq.**

Teatrın növbəti fəaliyyət planları ilə bağlı XQ-yə məlumat verən baş rejissor Anar Məmmədov bildirdi:

– Biz ötən mövsüm bir neçə festivala qoşulduq, özümüz isə iki festivala evsahibliyi etdik. Bu dəfə də əməkdaşlıq əlaqələrimizin genişləndirilməsini düşünürük. Türkiyədə keçiriləcək Beynəlxalq Hadi Poyrazoğlu Kukla və Qaragöz Festivalından dəvət almışıq. Biz bu sənət yarışmasında təmsil olunmağı nəzərdə tutmuşuq. Qardaş ölkə kuklaçıları ilə birgə Türk dünyasında məşhur olan Molla Nəsrəddin lətifələri əsasında komik, eləcə də ibrətamiz hekayələrdən ibarət bir tamaşa üzərində ilkin işlərə başlamışıq.

Teatrımızın beynəlxalq əlaqələrində qonşu Gürcüstanla əməkdaşlığa da önəm veririk. Azərbaycan Dövlət Kukla Teatrı ilə Gürcüstan Dövlət Kukla Teatrları Birliyi arasında memorandum imzalanıb. Bu sənədə əsasən, klassik nağıl nümunələrimizdən birini bu dəfə rejissor Nikoloz Sabaşvilinin quruluşunda təqdim edəcəyik.

Özbəkistanın Qaraqalpaq Dövlət Kukla Teatrı ilə də əməkdaşlıq haqqında müqaviləmiz var. Bu mövsüm qəhrəmanlıq, vətənpərvərlik mövzulu müştərək tamaşa planımızı reallaşdıracağıq.

**– Teatr mövsümü hansı tamaşa ilə açacaq?**

– Yaradıcı heyət sentyabrın 20-də "Lokomotiv və vaqonlar" tamaşasının premyerası ilə balaca tamaşaçıların qarşısına çıxacaq.

Yazıçı Sevinc Elsevərin eyniadlı pyesi əsasında hazırlanan səhnə əsərinə quruluşu mən vermişəm. Tamaşada köhnə stansiyadakı qoca və lovğa Lokomotivin timsalında uşaqlara xudbinlik və kobudluqdan uzaq olmaq təlqin edilir.

**– Başqa hansı yeniliklər gözlənilir?**

– Mövsümün sonuna kimi repertuara uyğun olaraq, mənim quruluşumda "Bir gün Şamaxı xanlığında", Səidə Haqverdiyevanın tərtibat verdiyi "Nənəmin aş qazanı" tamaşaları, eləcə də plandankənar dahi Üzeyir Hacıbəylinin felyetonları, novellaları əsasında böyüklər üçün "Ordan-burdan" tamaşası hazırlanacaq.

Növbəti əlavə tamaşa teatrın rus bölməsi üçün seçilib. Bu, belaruslu rejissor-dramaturq Dmitriy Boqoslavskinin "Mən necə səyahətçi oldum" əsəri əsasında hazırlanacaq eyniadlı səhnə əsəridir.

*Ceyhun BALABƏY*
*XQ*

## Yeni nəşrlər

# Laçın elinin söz çələngi



**Azərbaycanda Atatürk Mərkəzində dünən təqdimatı keçirilən "Laçın-100 ədəbi antologiya" adlı kitab Laçın şəhərinin salınmasının 100 illiyi münasibətilə hazırlanıb. Şifahi ədəbiyyat kitabxanamıza dəyərli töhfə olan bu topluda Sarı Aşıq, Mir Həmzə Nigari kimi tanınmış klassiklərlə yanaşı, indiyə qədər ədəbi aləmə məlum olmayan Əmir Bəy, Şair Məmmədalı, Qara Kərim, Aşıq Alı (Suvatlı), Aşıq Abbas, Aşıq Cəfərqulu kimi el sənətkarlarının yaradıcılığından nümunələr verilib.**

Mərasimdə tanınmış şair və yazıçılar, Laçın ictimaiyyətinin təmsilçiləri iştirak edirdilər.

Əvvəlcə professor Ziyadxan Nəbibəyli yeni kitabla bağlı fikirlərini bölüşdü, nəşrin əhəmiyyətini vurğuladı. Alim qeyd etdi ki, rəngarəng şeir və maraqlı nəsr nümunələrinin yer aldığı toplu söz xəzinəmizi zənginləşdirən bir mənbədir.

– Kitabın tərtibçisi şair-tədqiqatçı İlham Qəhrəman belə bir çətin və məsul işi öz üzərinə götürməklə, ən yaxşı işlərdən birinə imza atıb. Nəşrdə xeyli tarixi məlumat da əks olunub. Antologiyanın köməyi ilə oxucular müasir söz adamları ilə yanaşı, həm də tərtibçinin araşdırıb üzə çıxardığı 17, 18 və 19-cu əsrlərdə yaşayıb yaratmış bir çox laçınlı şair və aşıqların əsərləri ilə yaxından tanış ola biləcəklər. Nəşrin ərsəyə gəlməsinə müəllifin 1 ilədək vaxtı gedib. Belə kitablar keçmişimizə və bu günümüzə olan hörmətin bariz göstəricisidir.

**Şair Namiq Zaman antologiya barədə ilkin təəssüratını belə ifadə etdi:**

– Antologiyada 98 müəllifin hər biri haqqında bioqrafik məlumat yer alır. Ədəbi nümunələrin seçilməsində mövzu məhdudiyyəti olmayıb. Bəzi müəlliflərin şeirləri göstərir ki, onlar ustad şair olublar. O şairlərin irsinin bizə tam çatmadığına görə təəssüf edirik. Laçının söz xəritəsi saydığımız kitabda rayonun şəhid və qazilərinin də yaradıcılığına bölmə ayrılması antologiyanın dəyərini artırır.

Çıxış edən digər qonaqlar da kitab haqqında öz fikirlərini səsləndirdilər.

**Sonda antologiyanın tərtibçisi İlham Qəhrəman söylədi ki, bu nəşr hər şeydən öncə Laçının 400 illik tarixinin söz xəritəsidir.**

– Antologiyada laçınlı şair, nasir və aşıqların yaradıcılıq nümunələri 400 illik dövrü əhatə edir. Çalışdıq ki, Laçının hansı kəndində qələm adamı varsa, kənarda qalmasın. Ədəbi antologiya yurdumuzun bu günündən sabahına bizim salnaməmizdir. Kitabda elə söz adamları var ki, onların adları Laçınla qoşa çəkilir. Hüseyn Kürdoğlu, Ağa Laçınlı, Xasay Cabbarov, İlyas İbrahimov, Aşıq Umbay, Malik Fərrux və digər şairlərin adları Laçına şərəf gətirir. Laçına qəlbən bağlı olan Rəşad Məcidin şeirlərini də məmnunluqla topluya daxil etdik.

Sonra İlham Qəhrəman "Laçın-100 ədəbi antologiya"sının imzalı nüsxələrini qonaqlara hədiyyə etdi.

Kitabı vərəqləyərkən ötənlərdə Laçında gözəl qələmi olan, lakin ədəbi aləmdə tanınmağa can atmayan şairlərin yaşadığı məlum olur. Antologiyanın Qarabağ şəhid və qaziləri bölümündə Şahgündüz Cabbarovun söz yadigarları, atası Kamil Vəfadarla yanaşı yer alıb. Birinci Qarabağ müharibəsində şəhid olan Mayılın həyat yoldaşı Kamilə Musayevanın da ürək çırpıntılarından doğan misralar bu bölməyə kövrək bir əhval gətirir. Daşqın Laçın, Zamin Laçın və Araz Elsevər kimi qazilərin ədəbi nümunələri də təsirlidir.

Xatırladaq ki, İlham Qəhrəman "Laçın folkloru", "Laçın lətifələri", Sarı Aşığa həsr olunan "Gül dəftəri" və Aşıq Alının yaradıcılığından bəhs edən "Nə qaldı" kitabları ilə ədəbi aləmdə istedadlı və yurdsevər yazar kimi tanınıb.

*Ceyhun ALIŞLI*
*XQ*

# Modi Kiyevdən necə qayıtdı?

**Hindistanın baş naziri Narendra Modi Ukraynaya baş çəkdi. Modinin Kiyevə səfərinin qısamüddətli olmasını təhlükəsizliklə əlaqələndirirlər. Bu, müstəqillik dövründə Hindistan hökumət başçısının Ukraynaya ilk rəsmi səfəridir. Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşdən sonra hindli nazir Kiyevi tərk etdi. Gözlənildiyi kimi, iki lider arasında danışıqlar ümidverici nəticə ilə yekunlaşmadı.**



İyul ayında Hindistanın baş naziri Narendra Modi Moskvaya səfər etmiş və Rusiya Prezidenti Vladimir Putin ilə görüşmüşdü. Həmin gün Rusiya Ukraynaya aviazərbələr endirmişdi. Modinin Moskvaya səfəri Kiyevdə məyusluqla qarşılanmışdı. Ukrayna Prezidenti Volodimir Zelenski Hindistanın baş nazirinin iyulun 8-9-da Moskvaya səfərini və Putinlə görüşünü "böyük məyusluq" və "sülh səylərinə sarsıdıcı zərbə" adlandırmışdı. Qərb ölkələri də hindistanlı baş nazirin Moskva səfərini tənqid etmişdi.

Xatırladaq ki, Modi Rusiya lideri ilə görüşdə bildirmişdi ki, müharibə problemlərin həlli ola bilməyəcək. O, həmçinin Moskvada aparılan danışıqlar zamanı Ukrayna mövzusu ilə bağlı "açıq şəkildə" fikir mübadiləsi aparıldığını və danışıqlar nəticəsində "çox maraqlı ideyalar yarandığını" qeyd etmişdi. Modi həmin ideyaların nədən ibarət olduğunu açıqlamasa da, Rusiya liderini dinləyərkən özünü "nikbin hiss etdiyini" vurğulamış, iki tərəfin "tezliklə sülhün bərqərar olması" zərurəti ilə razılaşdığını demişdi. Səfərdən sonra belə bir məlumat yayılmışdı ki, Hindistan Rusiya ilə Ukrayna arasında birbaşa vasitəçi olmayacaq, lakin bu ölkələr arasında məlumatlar ötürə bilər. İndi həmin mesajları Zelenskiyə çatdırmaq üçün Modi Kiyevə gəldi.

Bəs Modinin səfərinin Rusiya-Ukrayna müharibəsinə təsiri olacaqmı və Hindistan Rusiyaya təzyiq edəcəkmi? Mütəxəssislər buna inanmırlar. "Foreign Policy" dərgisi yazır ki, Modinin Zelenski ilə görüşünün hər hansı mühüm nailiyyətlərə gətirib çıxaracağı ehtimalı azdır. Ən yaxşı halda Hindistan Ukraynaya hansısa humanitar yardım təklif edə bilər. İkitərəfli danışıqlar iki saata yaxın bağlı qapılar arxasında keçdi və danışıqlardan sonra mətbuat konfransı keçirilmədi. Bununla yanaşı, Modi Kiyevdən əliboş qayıtmadı. Ukrayna və Hindistan liderlərinin iştirakı ilə dörd sənəd imzalandı.

"Associated Press" isə yazır ki, səfər Hindistanın "Rusiyaya meyilli" kimi göründükdən sonra daha neytral mövqe tutmaq cəhdindən xəbər verir. Mütəxəssislərin fikrincə, səfər Modinin iyulda Putinlə görüşünü tənqid edən ABŞ və digər Qərb ölkələrində yaxşı qarşılanacaq. Siyasi analitiklərin sözlərinə görə, Modi üçün səfər "Zelenskini cəlb etmək və Hindistanın maraqlarını təmin etmək, Rusiyanın böyük təsirinə qarşı çıxmaq və Qərbi sakitləşdirmək" üçün bir fürsətdir. Lakin səfər Qərb üçün müsbət siqnal olsa da, onun Hindistanın Moskva ilə daha yaxın münasibətlər saxlaması barədə fikrini dəyişməyəcək.

*S.ELAY*
*XQ*


## "Kapital Bank" ASC səhmdarlarının nəzərinə!

26 sentyabr 2024-cü il saat 11.00-da Bakı şəhəri, Badamdar qəsəbəsi, Mikayıl Müşfiq küçəsi 2E nömrəli ünvanda yerləşən bankın ofisində (3-cü mərtəbə, iclas zalı) bankın səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. "Kapital Bank"ASC tərəfindən 2023-cü ilin maliyyə ilinin yekunlarına əsasən səhmdarlara dividend ödənilməsi haqqında.

Məruzəçi : Zaur Musayev

2.Digər məsələlər.

Məruzəçi : Yaşar Məmmədov.

## "AKSERMAN" ASC səhmdarlarının nəzərinə!

7 oktyabr 2024-cü il saat 11.00-da Ağcabədi şəhəri, M.Ə.Rəsulzadə küçəsi 157 nömrəli ünvanda "AKSERMAN" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

İclasın gündəliyi:

1. Səhmdar cəmiyyətin 2023-cü il üçün fəaliyyətinin yekunlarının müzakirəsi və təsdiqi.
2. Digər məsələlər.

Ümumi yığıncaqda bütün səhmdarların şəxsiyyətini təsdiq edən sənədlə iştirakı vacibdir.

*İdarə heyəti*

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

gəmilərində sürətli internet avadanlıqlarının quraşdırılması xidmətinin (mal-material daxil olmaqla) satın alınması məqsədilə

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il avqustun 30-u saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu – (012) 404-37-00, daxili – 1132.

Ünvan – Bakı, Mikayıl Useynov küçəsi 2.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 181 (30585) 24 avqust 2024-cü il, şənbə

# Azərbaycanın UEFA reytinqi dəyişmədi



**Ötən həftə ilə müqayisədə UEFA reytinqində Azərbaycanın mövqeyi dəyişməz qalıb.**

Avrokuboklarda pley-off mərhələsinin ilk oyunlarından sonra 26-cı sırada yer alan ölkənin əmsalı 18,875-dir.

"Qarabağ" Çempionlar Liqasında Xorvatiyada "Dinamo" (Zaqreb) yığmasına 0:3 hesabı ilə məğlub olub.

"Zirə" isə UEFA Konfrans Liqasında Kiprdə "Omoniya"ya 0:6 hesabla uduzub.

55 ölkənin yer aldığı reytinq siyahısına İngiltərə (89.303) başçılıq edir.

# Basketbolçumuz liderlər sırasında



**Basketbolun 3x3 növü üzrə Avropa kubokunun ilk günündən sonra ən məhsuldar oyunçular açıqlanıb.**

2 matçda 13 xal toplayan Azərbaycan yığmasının basketbolçusu Dina Ulyanova da liderlər sırasında yer alıb. O, yalnız ispaniyalı Sandra Yqueravidedən geri qalır. Pireneyli basketbolçunun hesabında 20 xal var. Dina komandamızın xallarının təxminən 68 faizini toplayıb.

Qeyd edək ki, qrupda İspaniyaya 12:20, Avstriyaya 7:21 hesabı ilə uduzan yığmamız mübarizəni başa vurub.

# Bakı avarçəkmə çempionatının qalibləri



**Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası ilə Bakı Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı əsasında avarçəkmə üzrə açıq Bakı çempionatı keçirilib.**

Bakı bulvarında AKAF-nin binasının qarşısında təşkil olunan turnirdə paytaxtla yanaşı, Mingəçevirdən olan yeniyetmə və gənc idmançılar müxtəlif yaş kateqoriyalarında yarışıblar.

Avarçəkənlər kayak və kanoe növlərində 200, 500 metr məsafədə bir və iki nəfərlik qayıqlarda, akademik növdə isə 500 metr məsafədə yalnız bir nəfərlik qayıqda mübarizə aparıblar. Maraqlı mübarizə şəraitində keçən açıq Bakı çempionatında qalib gələn idmançılar medal və diplomla mükafatlandırılıblar.

***L.QURBANOVA***
***XQ***



# Darıxma, hər şey yaxşı olacaq...

**İndi az adam tapmaq olar ki, əsəbləri və ya təzyiqi qaydasında olsun. Kimi dindirirsən deyir ki, "nevrozam", yaxud "bu andıra qalmış təzyiq məni yaşamağa qoymur". Soruşmağa da peşiman olursan, öz ağrı-acısından o qədər danışır ki, əhvalın bir az da pozulur.**

O gün bir stəkan çay içib evdən çıxdım. Doğrusu, yuxusuzluq məni gic elədiyindən işə getmək istəmirdim. Qardaş, ilan vuran yatır, mən yata bilmirəm. Ancaq evdə qalsaydım da, dincələ bilməyəcəkdim.

Həyətə düşən kimi diqqətimi ilk çəkən "Mercedes Ağakərim"in çəninin daşması və oradan tökülən suyun blokun ağzında gölməçə yaratması oldu. Axırıncı dəfə suyun pulu qaldırılanda mən yazmışdım ki, nə qədər tozlu olsa da, daha heç kəs küçələrə su səpməyəcək. Az keçmiş bildim ki, hökumətin bu qərarı ağakərimkimilərə az təsir edib. Mənə qaranlıq qalan o idi ki, bu kişinin "şotçik"i blokda göz qabağında, açıq-aydın. İki gündən bir də çəni daşıb tökülür həyətə, oradan da küçəboyu axıb gedir mikrorayonun mərkəzinə. İndi təsəvvür edin. Əgər Ağakərim lap "Mercedes"i də satsa, axıb gedən suyun pulunu ödəyə bilməz. Deməli, bu məsələdə mənim bilmədiyim bir "hikmət" var. (Mənə deyən lazımdı ki, bu olayın sənə nə dəxli var, "Azərsu" bilər, Ağakərim kişi bilər...)

Binanın birinci mərtəbəsində yerləşən uşaq bağçasının müdiri Nazəndə xanım həyətdə əli belində dayanıb Ağakərimin ünvanına dişinin dibindən çıxanı deyirdi. Kimsə bildirdi ki, ay xanım, özünü yorma, onlar evdə yoxdurlar, suyu da "podval"dan bağlamışıq, daha bağçaya tökülməyəcək. Xanım bunu eşidəndən sonra toxtadı və bircə onu dedi ki, görüm, onları heç sağ qayıtmasınlar.

Avtobus tez gəldi. Minib bir kənara çəkildim ki, istidən ürəyim sıxılmasın. Çünki bəzən elə olur ki, sarımsaq qatılmış qurutlu xəngəl yeyən "paxmel"in biri gəlib bitir burnunun ucunda. Vallahi, elə səhər-səhər bu qarmaqarışıq iydən beynim çatlayır. Deyən lazımdı ki, zalım balası, vurmusan, yemisən, səhər bir ağzını yaxala, güzgüdə yaraşıqlı sifətinə bax...

Yaxud, avtobusa minib lap arxa oturacaqların birində oturursan, işə gedən çox olduğundan bəzən bir alagöz xanım gəlib durur yan tərəfində və sanki gözləri yol çəkirmiş kimi hansı nöqtəyəsə baxır, baxır. Üstünə tökdüyü ətirin iyi də "dəm" eləyir səni. Qurcuxa-qurcuxa qalırsan və arabir ürəyindən keçir ki, xudaya, bu nə məngənədi keçirmisən məni? Nə sağa baxa bilirsən, nə sola. Deyirsən ki, xanım, lütfən, əyləşin. Oturmur! Otursaydı, bəlkə, birtəhər lap arxa küncə keçərdim.Yox, oturmur... Yazıq canım, bəs neyləyim?

Qəribədi, iki gün əvvəl hava lap payızda olduğu kimiydi - külək, yağış, soyuq. Adama elə gəlirdi ki, günəş tezliklə buralarda görünməz. Amma qəfil istilər düşdü, dünənədək yaşıl olan otlar saralmağa başladı. Çox zaman yayın qızmarını arzulayan mən də istinin təsirindən özümü narahat hiss etdim.





Ötən gün də belə olmuşdu. Başımın ağrısı hələ kəsməmişdi. Avtobusdakı söhbətləri eşitmək belə istəmirdim. Bilirdim ki, hər yersiz deyilən söz, xoşagəlməz hərəkət məni əsəbiləşdirəcək. Elə bu düşüncədə kimsə yavaşca qoluma toxundu.

– Nolub, məni görüb üzünü niyə o yana çevirirsən? Saqqala salam vermirsən? Gözümə birtəhər dəyirsən, ee...

Arvad qohumlarımdan Yaqub idi. Yamanca ilişmişdim. Heç qoymadı özünün verdiyi sualları cavablandırım.Yenə davam elədi:

– Yaxşı qohum deyilsən, bizi itirib-axtarmırsan. O gün, yerin məlum...

Qarşımda oturan oğlan telefonu açan kimi əcayib səslər toplusu səsləndi. "Mahnı", deyəsən, oğlanın özünə də xoş gəlmədi. Buna görə də kanalı dəyişdi. Bu dəfə meyxana başladı:

– "Bəlkə mən heç düz eləmirəm..."

Yaqub da başladı astaca çırtma vurmağa. Az keçmişdi ki, yanındakı eynəkli kişi oğlanın üstünə qışqırdı:

– Ay bala, söndür o zibilini, baş-beyinimiz gedir...

Oğlan da dilini dinc qoymadı:

– Dayı, niyə zibil olur! 1200 manat pul saymışam, ee, buna. Hansı musiqi desən var. Pulsuz konsert verirəm, sizin "sağ olun"uzdu bu?

Avtobus deyəsən, "probka"ya düşmüşdü. Sərnişinlərin çoxu dilxor olmuşdu.Yaqub vəziyyətimin yaxşı olmadığını görüb tez-tez deyirdi:

– Darıxma, hər şey yaxşı olacaq...

Əslində, onun bu sözləri məni bir az da əsəbiləşdirirdi. İstədim avtobusdan düşüb, yolun qalan hissəsini piyada gedim. Ancaq gec idi.

Oğlan yenə telefonu acdı və bu dəfə illər əvvəl dəbdə olan mahnı səslənməyə başladı:

**Qarşını kəsib ağlasam,**
**Qapını döyüb yalvarsam,**
**Səndən imdad diləsəm,**
**Neylərsən mənə, neylərsən?**

Eynəkli kişi daha dözmədi:

– Adə, indi o telefonu alıb soxacam...

Kişi sözlərinin dalını gətirmədi, əvəzində əlindəki çəliyi qaldırıb oğlanın başına endirmək istədi. Amma əl ağacı oğlanın başına yox, Yaqubun gicgahına dəydi və zərbə dəyən yer bir neçə dəqiqə ərzində qızarıb yumurlandı.

Qadınların qışqırığı sürücünü də məsələdən agah elədi.

Mən Yaqubun özündən gedəcəyini yəqin etmiş kimi, tez-tez deyirdim:

– Darıxma, hər şey yaxşı olacaq. Yazıq kişi o qədər əsəbiləşdi ki...

Qadınlardan biri dedi:

– Onu xəstəxanaya aparın, birdən yolda yıxılıb eləyər.

Yaqub isə əli gicgahında dedi:

– Əşi, lazım deyil, kişi deyilik, bəyəm. Elə bilərəm ki, dədəm vurub.

Amma kişi Yaqubdan üzr istədi:

– Bağışla məni, oğul. Nanəcibin hərəkətləri əsəblərimi oynatdı.

Sonra avtobusda sükut yarandı.

Sanki hamı xoş söz eşitmək istəyirdi. Birdən sürücü dedi:

– "Probka" açıldı, gedirik!

Mənim gözümYaqubda idi. Artıq o, danışmırdı. Eynəkli kişi isə əsəb içində qovrulurdu. Deyəsən, o, fürsət tapıb ağacı konsert verən oğlanım başına endirmək istəyirdi.

Mən də bir qədər əsəbiləşmişdim. Arada özümü sakitləşdirmək üçün deyirdim:

– Darıxma, hər şey yaxşı olacaq!

O gündən sonra dost-tanışdan kimsə mənə dərdini danışanda, hər nədənsə əsəbiləşəndə Yaqubun sözlərini təkrarlayıram:

– Darıxma, hər şey yaxşı olacaq!

**PS.** Əziz dostlar, siz də hər hansı problemlə üz-üzə qalsanız Yaqubun sözlərini təkrarlayın. Sizlərə bol ümidli, daha xoş günlər arzulayıram!

***Səməd MƏLİKZADƏ***



# Aranda yağmursuz, dağlarda yağış, duman və külək

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, avqustun 24-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq.**

Əsasən yağmursuz keçəcək. Mülayim şimal-qərb küləyi əsəcək. Gecə 21-26°, gündüz 31-36° isti olacaq. Atmosfer təzyiqi 759 mm civə sütunundan 757 mm civə sütununa enəcək, nisbi rütubət gecə 70-80 , gündüz 50-55 faiz olacaq.

Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuqulba) 26-27° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 27-28° isti olacaq.

Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq rayonlarda zəif duman olacaq. Şərq küləyi əsəcək, əsasən dağlıq və dağətəyi rayonlarda arabir güclənəcək. Havanın temperaturu gecə 21-26°, gündüz 34-39°, dağlarda gecə 15-20°, gündüz 22-27° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

# Vəcihə Səmədovaya həsr olunmuş poçt markası

**Ümumdünya Poçt İttifaqı Azərbaycanın ilk peşəkar qadın rəssamı Vəcihə Səmədovaya həsr olunan poçt bloku ilə bağlı paylaşım edib. "Azərpoçt" tərəfindən hazırlanmış poçt markası Vəcihə Səmədovanın 100 iliyinə həsr edilib. Paylaşım İttifaqın "She Stamps" layihəsi çərçivəsində həyata keçirilib.**



Blokun üzərində rəssamın portreti və rəsm əsərləri təsvir olunub. Azərbaycanın Əməkdar incəsənət xadimi Vəcihə Səmədova 1924-cü ildə anadan olub. Görkəmli Azərbaycan rəssamı ölkəmizin təsviri sənət tarixində öz layiqli dəsti-xətti və yaradıcılıq manerası ilə seçilən sənətkarlarımızdandır.

Qısa ömür yaşayan və fitri istedada malik olan Vəcihə Səmədovanın fərdi sərgiləri dəfələrlə Bakı, Moskva, Sofiya və digər şəhərlərdə uğurla nümayiş etdirilib. Onun tablolarındakı rəng çalarları, milli kolorit, böyük ustalıq bu əsərlərin dünya muzeylərində layiqli yer tutmasına səbəb olub.

Vəcihə Səmədova 1965-ci ildə vəfat edib. Azərbaycan Rəssamlar İttifaqının sərgi salonu onun adını daşıyır.

***AYTƏN***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3685
SİFARİŞ 1868
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır 00:00